# Yekun variant

## 570 saylı (2024-cü ildə düzəliş edilmiş) Beynəlxalq Audit Standartı

## *"FƏALİYYƏTİN FASİLƏSİZLİYİ"*

Digər Beynəlxalq Audit Standartlarına (BAS) edilən müvafiq və məntiqli düzəlişlər daxil olmaqla

**APREL 2025-ci il**

IAASB™
International Auditing and Assurance Standards Board
AN IFEA BOARD

Copyright © IFAC

# BATSŞ-nin 570 saylı Beynəlxalq Audit Standartının (2024-cü ildə düzəliş edilmiş), "Fəaliyyətin fasiləsizliyi" (Standart) İMNŞ tərəfindən təsdiqlənməsi

İctimai maraqlara nəzarət şurası (İMNŞ) Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurasının (BATSŞ) *BAS 570 (2024-cü ildə düzəliş edilmiş), Fəaliyyətinin Fasiləsizliyi BAS-ın* tam işlənib hazırlanması dövrü boyunca standartların müəyyən edilməsi prosesinə nəzarət etmişdir.

Standartların hazırlanması prosesi boyunca PIOB tərəfindən qaldırılan və IAASB-yə təqdim edilən tövsiyələr və ictimai maraq doğuran məsələlər PIOB-un veb saytında mövcuddur.

IAASB Standartın razılaşdırılmış prosedura uyğun olaraq işlənib hazırlanması və Standartda tətbiq olunan və İMNŞ-nın internet saytından əldə edilə bilən İctimai Maraq Strukturunun (İMS) konsepsiya və prinsiplərinə əsaslanan ictimai maraqlara uyğun olmasına dair yazılı bəyanat təqdim etmişdir[1].

İMNŞ hesab edir ki, Standart razılaşdırılmış prosedura uyğun olaraq işlənib hazırlanmışdır. İMNŞ həmçinin hesab edir ki, Standart İMS-nın konsepsiya və prinsiplərinə əsaslanan ictimai maraqlara cavab verir.

Aprel 2025-ci il

[1] İctimai Maraq Strukturu

Aprel 2025-ci il © Müəlliflik hüququ Beynəlxalq Mühasiblər Federasiyasına (BMF) məxsusdur. Bütün hüquqlar qorunur.

Bu nəşr şəxsi və qeyri-kommersiya məqsədləri üçün yüklənilə və ya Beynəlxalq Audit və Təminat Standartları Şurasından® (BATSŞ®) satın alına bilər (Veb-sayt: www.iaasb.org). Bu sənədin yalnız şəxsi, qeyri-kommersiya məqsədləri üçün istifadə edildiyi hallar istisna olmaqla, onun surətini çıxarmaq, tərcümə etmək, saxlamaq və ya ötürmək, yaxud digər oxşar şəkildə istifadə etmək üçün BMF-dən yazılı icazə tələb olunur. BATSŞ-nın əməliyyatlarını dəstəkləyən strukturlar və proseslər Beynəlxalq Etika və Audit Fondu (BEAF™) tərəfindən təmin edilir.

Müəlliflik hüququ, əmtəə nişanı və icazələr ilə bağlı məlumat üçün İcazələr bölməsinə keçin və ya Permissions@ifac.org elektron poçt vasitəsilə əlaqə saxlayın.

**BATSŞ haqqında**

Bu sənəd Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası tərəfindən hazırlanmış və təsdiq edilmişdir. BATSŞ -nin məqsədi audit, təminat və digər əlaqəli xidmətlər üçün yüksək keyfiyyətli standartlar müəyyən etməklə və beynəlxalq və milli audit və təminat standartları arasında uyğunluğu təşviq etməklə, bununla da dünya miqyasında təcrübənin keyfiyyətini və ardıcıllığını artırmaqla və qlobal audit və təminat peşəsinə ictimai inamı gücləndirməklə ictimai maraqlara xidmət etməkdir.

Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası (IAASB) audit və təsdiqləmə standartlarını, eləcə də rəhbəredici göstərişləri vahid standartlaşdırma prosesi çərçivəsində hazırlayır; bu prosesə IAASB-nin fəaliyyətinə nəzarət edən İctimai Maraqların Nəzarət Şurası (PIOB) və standartların və rəhbəredici göstərişlərin hazırlanmasına ictimai maraqlar kontekstində töhfə verən Maraqlı Tərəflərin Məsləhət Şurası (SAC) cəlb olunur.

## MÜNDƏRİCAT

Səh.

BAS 570 (2024-cü ildə düzəliş edilmiş) “Fəaliyyətin Fasiləsizliyi”.....................................................6

Digər Beynəlxalq Audit Standartlarına (BAS) edilən müvafiq və nəticəvi düzəlişlər........................66

# BAS 570 (2024-CÜ İLDƏ DÜZƏLİŞ EDİLMİŞ), *FƏALİYYƏTİNİN FASİLƏSİZLİYİ* BEYNƏLXALQ AUDİT STANDARTI (BAS)

(15 dekabr 2026-cı il tarixindən tez olmayaraq başlayan dövrlər üzrə maliyyə hesabatlarının auditi üçün etibarlıdır)

## MÜNDƏRİCAT


Paraqraf

**Giriş**

Bu BAS-ın əhatə dairəsi ... 1

Mühasibat uçotunda fəaliyyətinin fasiləsizliyi prinsipi ... 2

Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi üzrə məsuliyyət ... 3-7

Qüvvəyə minmə tarixi ... 9

**Məqsədlər** ... **9**

**Anlayış** ... **10**

**Tələblər** ... **10**

Risk qiymətləndirmə prosedurları və əlaqəli tədbirlər ... 10-11

Rəhbərliyin qiymətləndirməsinin dəyərləndirilməsi ... 11-13

Rəhbərliyin gələcək tədbirlər planlarının dəyərləndirilməsi ... 13

Auditor hesabatı tarixindən sonra məlum olan məlumatlar ... 13

Əldə edilmiş audit sübutlarının dəyərləndirilməsi və nəticə çıxarılması ... 14

Açıqlamaların yetərliliyi ... 14-15

Auditor hesabatı üçün nəticələr ... 15-17

Yazılı təqdimatlar ... 17

İdarəetməyə məsul şəxslərlə ünsiyyət ... 17-18

Müəssisədən kənar müvafiq orqana məlumatvermə ... 18

Sənədləşdirilmə ... 18

**Tətbiqi və digər izahedici materiallar** ... 18

Bu BAS-ın əhatə dairəsi ... 18-19

Mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipi ... 19

Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi üzrə məsuliyyət ... 19

Anlayış ........ 19-20
Riski qiymətləndirmə prosedurları və əlaqəli fəaliyyətlər ........ 20-28
Rəhbərliyin qiymətləndirməsinin dəyərləndirilməsi ........ 28-34
Rəhbərliyin gələcək tədbirlər planlarının dəyərləndirilməsi ........ 34-37
Auditor hesabatının tarixindən sonra məlumatların məlum olması ........ 37
Əldə edilmiş audit sübutlarının dəyərləndirilməsi və nəticə çıxarılması ........ 37-39
Açıqlamaların yetərliliyi ........ 39-40
Auditor hesabatı üçün nəticələr ........ 40-44
Yazılı təqdimatlar ........ 44
İdarəetməyə məsul şəxslərlə ünsiyyət ........ 44-45
Müəssisədən kənar müvafiq səlahiyyətli orqana məlumatvermə ........ 45-46
Əlavə: Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli müstəqil auditorun hesabatının nümunələri

## Giriş

### Bu BAS-ın əhatə dairəsi

1. . Bu Beynəlxalq Audit Standartı (ISA) maliyyə hesabatlarının auditində auditorun fəaliyyətin fasiləsizliyi ilə bağlı məsuliyyətlərini və auditor hesabatına təsirlərini tənzimləyir. Bu BAS müəssisənin həcmindən və ya əməliyyatlarının mürəkkəbliyindən asılı olmayaraq tətbiq olunsa da, xüsusi mülahizələr yalnız listinq subyektinin maliyyə hesabatlarının auditlərinə şamil olunur. (İst: Paraq. A1–A2)

### Mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipi

2. Mühasibat uçotunda fəaliyyətinin fasiləsizliyi prinsipinə əsasən, maliyyə hesabatları müəssisənin fəaliyyətinin fasiləsizliyi və yaxın gələcəkdə öz fəaliyyətini davam etdirəcəyi ehtimalı əsasında hazırlanır. Rəhbərlik müəssisəni ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı və ya bunu etməkdən başqa real alternativi olmadığı təqdirdə, ümumi təyinatlı maliyyə hesabatları mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən hazırlanır. Xüsusi təyinatlı maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi prinsipi üçün münasib olan (məsələn, müəyyən yurisdiksiyalarda fəaliyyətin fasiləsizliyi prinsipi vergi əsasında hazırlanmış bəzi maliyyə hesabatları üçün məqsədəuyğun deyil) maliyyə hesabatlarının çərçivələrinə uyğun hazırlana bilər(lakin bu məcburi deyil). Mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipi müvafiq olduqda, müəssisə iş fəaliyyətinin normal gedişatında öz aktivlərini reallaşdıra və öhdəliklərini icra edə biləcəyi ehtimalına əsaslanaraq aktivlər və öhdəliklər nəzərə alınır. (İst: Paraq. A2)

### Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi üzrə məsuliyyət

*Rəhbərliyin məsuliyyətləri*

3. Maliyyə hesabatlarının bəzi çərçivələri rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini xüsusi qiymətləndirməsi üçün birbaşa tələbləri ehtiva edir və müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli nəzərə alınmalı məsələlərə və açıqlanmalı məlumatlara dair standartları əhatə edir. Məsələn, 1 saylı Mühasibat Uçotunun Beynəlxalq Standartı (MUBS) rəhbərlikdən müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsini tələb edir.[1] Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi üçün rəhbərliyin məsuliyyəti və maliyyə hesabatlarında müvafiq məlumatların açıqlanması ilə bağlı müfəssəl tələblər, həmçinin, qanun və ya qaydalarda müəyyən edilə bilər. (İst: Para1. A4)

4. Maliyyə hesabatlarının digər çərçivələrində, rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi üçün birbaşa tələblər olmaya bilər. Buna baxmayaraq, mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipi, 2-ci paraqrafda qeyd edildiyi kimi, maliyyə hesabatlarının hazırlanmasında təməl prinsipi olduğu hallarda, maliyyə hesabatları hazırlanan zaman maliyyə hesabatlarının çərçivələrində birbaşa müvafiq tələb olmasa belə, rəhbərlik müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməlidir.

5. Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsi, müəyyən bir vaxtda hadisələrin və ya şəraitlərin gələcəkdə qeyri-müəyyən nəticələri barədə mühakimə yürütməsini əhatə edir. Aşağıdakı amillər bu mühakimə ilə əlaqəlidir:

- Hadisənin və ya şəraitin nəticəsi ilə bağlı qeyri-müəyyənlik dərəcəsi, belə hadisə, şərait və ya nəticənin baş verməsi arasındakı dövr artdıqca əhəmiyyətli dərəcədə artır. Bu səbəbdən, rəhbərliyin

[1] 1 saylı “Maliyyə hesabatlarının təqdimatı” MUBS, 25-26-cı paraqraflar

qiymətləndirməsini birbaşa tələb edən maliyyə hesabatlarının çərçivələrinin əksəriyyəti rəhbərlikdən bütün mövcud məlumatları nəzərə almaq üçün tələb olunan minimum müddəti müəyyən edir.

- Müəssisənin həcmi və əməliyyatlarının mürəkkəbliyi, fəaliyyətinin xüsusiyyəti və şəraiti, eləcə də kənar amillərin təsir dərəcəsi hadisələrin və ya şəraitlərin nəticələri ilə bağlı mühakiməyə təsir göstərir.
- Gələcəklə bağlı hər hansı bir mühakimə, mühakimənin yürüdüldüyü anda mövcud olan məlumatlara əsaslanır. Sonrakı hadisələr, yürüdüldüyü anda ağlabatan mühakimələrlə ziddiyyət təşkil edən nəticələrə səbəb ola bilər.

*Auditorun məsuliyyətləri*

6. Auditorun məsuliyyətləri, maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğu ilə bağlı yetərli müvafiq audit sübutları əldə etmək və bu barədə nəticə çıxarmaq, eləcə də əldə edilmiş audit sübutları əsasında müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olub-olmaması barədə nəticə çıxarmaqdan ibarətdir. Bu məsuliyyətlər, maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən maliyyə hesabatlarının çərçivələri, rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsi üçün birbaşa tələbi əhatə etməsə də qüvvədədir.

7. Bununla belə, 200 saylı BAS-da[2] qeyd edildiyi kimi, auditorun əhəmiyyətli təhrifləri aşkar etmək qabiliyyətinə xas olan məhdudiyyətlərin potensial təsiri müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirməməsinə səbəb ola bilən gələcək hadisələr və ya şəraitlər üçün daha böyükdür. Auditor həmin gələcək hadisə və ya şəraitləri proqnozlaşdıra bilməz. Müvafiq olaraq, auditor hesabatında müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli müəyyən edilmiş əhəmiyyətli qeyri-müəyyənliyə dair istinadın olmaması, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət kimi qəbul edilə bilməz.

**Qüvvəyə minmə tarixi**

8. Bu BAS 15 dekabr 2026-cı il tarixindən tez olmayaraq başlayan dövrlər üçün maliyyə hesabatlarının auditi üçün etibarlıdır.

## Məqsədlər

9. Auditorun məqsədləri aşağıdakılardır:

   (a) maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğu ilə bağlı yetərli müvafiq audit sübutları əldə etmək və bu barədə nəticə çıxarmaq;

   (b) əldə edilən audit sübutlarına əsaslanaraq, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlərlə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliklərin olub-olmaması haqqında nəticə çıxarmaq; habelə

   (c) bu BAS-a uyğun hesabat vermək.

[2] 200 saylı "Müstəqil auditorun ümumi məqsədləri və auditin beynəlxalq audit standartlarına uyğun aparılması" BAS, A56–A57 paraqrafları

## Anlayış

10. Bu BAS-ın məqsədləri üçün aşağıdakı termin bu mənanı bildirir:

Əhəmiyyətli qeyri-müəyyənlik (Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli) (Material Uncertainty (Related to Going Concern) — Ayrılıqda və ya məcmu halında müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə bağlı qeyri-müəyyənlik. "Ciddi şübhə altına ala bilən" ifadəsi elə hallara şamil olunur ki, rəhbərliyin gələcək tədbirlər planları onların təsirini azaltmadığı təqdirdə, mümkün təsirin miqyası və aşkar edilmiş hadisələrin və ya şəraitlərin başvermə ehtimalı müəssisənin iş fəaliyyətinin normal gedişatında aktivlərini reallaşdırmağa və öhdəliklərini yerinə yetirməyə və yaxın gələcəkdə fəaliyyətini davam etdirə bilməyə imkan verməyə bilər. (İst: Paraq. A5–A6)

## Tələblər

### Riski qiymətləndirmə prosedurları və əlaqəli tədbirlər

### Tədbirlər

11. 315 saylı (2019-cu ildə yenidən işlənmiş) BAS-ı[3] tətbiq edərkən, auditor, müəssisənin fəaliyyətinin fasiləsizlliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin aşkar edilib-edilmədiyini müəyyən etmək üçün müvafiq zəmin təmin edən audit sübutları əldə etmək məqsədilə 12-ci bənddə tələb olunanlar da daxil olmaqla, riski qiymətləndirmə prosedurlarını hazırlamalı və yerinə yetirməlidir. Bu cür hadisələr və ya şəraitlər rəhbərliyin gələcək tədbirlər planlarına daxil edilmiş təsiri azaldan hər hansı əlaqəli amillər nəzərə alınmazdan əvvəl müəyyən edilməlidir. (İst: Paraq. A7–A15)

*Müəssisə və onun mühiti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və müəssisənin daxili nəzarət sistemi haqqında anlayışın əldə edilməsi*

12. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-ı[4] tətbiq edərkən, auditor aşağıdakılar barədə anlayış əldə etmək üçün riski qiymətləndirmə prosedurlarını yerinə yetirməlidir: (İst: Paraq. A9–A15)

Müəssisə və onun mühiti

(a) Müəssisənin biznes modeli, məqsədləri, strategiyaları və fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlərlə əlaqəli biznes riskləri. (İst: Paraq. A16)

(b) Sənaye şəraiti, o cümlədən rəqabət mühiti, texnoloji yeniliklər və müəssisənin maliyyələşdirilməsinə təsir edən digər xarici amillər.

(c) Proqnozlar, gələcək dövrlər üzrə pul vəsaitlərinin hərəkəti və rəhbərlik tərəfindən büdcənin hazırlanması prosesləri daxil olmaqla, müəssisənin maliyyə göstəricilərini qiymətləndirmək üçün daxildə və xaricdə istifadə edilən tədbirlər. (İst: Paraq. A17)

Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri

(d) Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli tələbləri və müəssisənin maliyyə hesabatlarına daxil edilməsi tələb olunan əlaqəli açıqlamalar. (İst: Paraq. A18, A20)

(e) Rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən nəzərdə tutulan istifadə edilmənin əsası. (İst: Paraq. A19–A20)

[3] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) "Əhəmiyyətli təhriflər riskinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi" BAS, 13-14-cü paraqraflar
[4] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, 19-27-ci paraqraflar

Müəssisənin daxili nəzarət sistemi

(f) İdarəetməyə məsul şəxslərin hamısı müəssisənin idarə edilməsində iştirak etmədiyi təqdirdə[5], idarəetməyə məsul şəxslər rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsinə nəzarəti necə həyata keçirir. (İst: Paraq. A21–A22)

(g) Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər, yaxud şəraitlərlə əlaqəli biznes risklərini müəyyən etmək, qiymətləndirmək və onlarla bağlı tədbir görmək üçün müəssisənin riski qiymətləndirmə prosesi.

(h) Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirmək üçün rəhbərlik tərəfindən müvafiq metod, əhəmiyyətli ehtimallar və verilənlər necə müəyyən edilir. (İst: Paraq. A23–A24)

(i) Müəssisənin maliyyə hesabatlarının hazırlanması prosesində müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyəti ilə bağlı açıqlamalar necə əks etdirilir. (İst: Paraq. A25).

*Auditin bütün mərhələlərində hadisələr və ya şəraitlər barədə məlumatlara xüsusi diqqət yetirilməsi*

13. Auditor, auditin bütün mərhələlərində müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər barədə məlumatlara xüsusi diqqət yetirməlidir. (İst: Paraq. A26–A29)

*Rəhbərlik tərəfindən əvvəllər aşkar edilməmiş və ya açıqlanmamış hadisələr və ya şəraitlər*

14. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-ı[6] tətbiq edərkən, auditor riski qiymətləndirmə prosedurları və əlaqəli tədbirlər nəticəsində əldə edilən audit sübutlarının rəhbərliyin əvvəllər müəyyən etmədiyi və ya auditora açıqlamadığı, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin mövcudluğuna dəlalət edib-etmədiyini müəyyən etməlidir. (İst: Paraq: A30–A31)

*Müəssisənin daxili nəzarət sistemində nəzarətlə bağlı çatışmazlıqlar*

15. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-ı[7] tətbiq edərkən, auditor müəssisənin daxili nəzarət sisteminin hər komponentinin auditor tərəfindən qiymətləndirilməsi əsasında rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyinin qiymətləndirməsi ilə bağlı nəzarətdə bir və ya daha çox çatışmazlığın aşkar edilib-edilmədiyini müəyyən etməlidir. (İst: Paraq. A32)

**Rəhbərliyin qiymətləndirməsinin dəyərləndirilməsi**

16. Rəhbərlik hələ də müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirmədiyi hallarda, auditor rəhbərlikdən qiymətləndirmə aparmasını tələb etməlidir. Rəhbərlik qiymətləndirmə aparmaq istəmədiyi halda, auditor bunun audit üçün nəticələrini nəzərə almalıdır. (İst: Paraq. A33)

17. Auditor, rəhbərliyin qiymətləndirməsinin əsaslandığı əhəmiyyətli mühakimələr də daxil olmaqla, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə dair qiymətləndirməsini dəyərləndirmək üçün audit prosedurlarını hazırlamalı və yerinə yetirməlidir. (İst: Paraq. A34–A36)

18. 17-ci bənddə tələb olunan audit prosedurlarını hazırlayıb yerinə yetirərkən, auditor bunu təsdiqləyici

ola bilən audit sübutlarının əldə edilməsinə və ya ziddiyyətli ola bilən audit sübutlarının istisna edilməsinə qərəzli olmayan şəkildə etməlidir. (İst: Paraq. A37)

[5] 260 saylı (düzəliş edilmiş) "İdarəetməyə məsuliyyətli şəxslərlə əlaqə" BAS, 13-cü paraqraf
[6] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, 35-ci paraqraf
[7] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, 27-ci paraqraf

*Rəhbərliyin qiymətləndirməsində istifadə edilən metod, əhəmiyyətli ehtimallar və verilənlər*

19. 17-ci bənddə tələb olunan audit prosedurları rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsi üçün istifadə edilən metod, əhəmiyyətli ehtimallar və verilənlərin qiymətləndirilməsini ehtiva etməlidir. Bu cür audit prosedurlarının xüsusiyyətini və həcmini müəyyən edərkən auditor yerinə yetirilən riski qiymətləndirmə prosedurlarının nəticələrini nəzərə almalıdır. Bu cür audit prosedurları aşağıdakıları əks etdirməlidir: (İst: Paraq. A35, A38, A46)

(a) Rəhbərlik tərəfindən müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi üçün istifadə edilən metod, o cümlədən: (İst: Paraq. A39)

(i) Seçilmiş metodun maliyyə hesabatlarının tətbiq olunan çərçivələri baxımından uyğun olub-olmaması, uyğun olduğu təqdirdə isə əvvəlki dövrlərdə istifadə edilən metodlara edilən dəyişikliklərin uyğun olub-olmaması; habelə (İst: Paraq. A40)

(ii) Hesablamaların, müvafiq hallarda, metoda uyğun olaraq tətbiq olunub-olunmaması və riyazi cəhətdən dəqiq olub-olmaması. (İst: Paraq. A41)

(b) Rəhbərliyin qiymətləndirməsinin əsaslandığı əhəmiyyətli ehtimalların aşağıdakı şərtlərə uyğun olub olmaması: (İst: Paraq. A42).

(i) Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri baxımından uyğundur və əvvəlki dövrlər ilə müqayisədə edilən dəyişikliklər, müvafiq hallarda, uyğundur; habelə

(ii) Bir-biri ilə və auditorun audit zamanı əldə etdiyi məlumatlara əsaslanaraq, müəssisənin biznes fəaliyyətinin digər sahələrində istifadə edilən əlaqəli ehtimallara uyğundur.

(c) Verilənlərin aşağıdakı şərtlərə uyğun olub-olmaması:

(i) müvafiq və etibarlıdır; habelə (İst: Paraq. A43–A44)

(ii) maliyyə hesabatlarının tətbiq olunan çərçivələri baxımından və müvafiq hallarda, əvvəlki dövrlərdən sonra edilən dəyişikliklər uyğundur. (İst: Paraq. A45)

*Rəhbərliyin qiymətləndirməsindən kənar dövrlər*

20. Auditor rəhbərliyin qiymətləndirməsinin əhatə etdiyi dövrdən kənar olan və müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər barədə məlumatlı olub-olmadığını rəhbərlikdən soruşmalıdır. Əgər rəhbərlik və ya auditor bu cür hadisələri və ya şəraitləri aşkar edərsə, auditor rəhbərlikdən həmin hadisələrin və ya şəraitlərin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi üçün mümkün əhəmiyyətini qiymətləndirməsini tələb etməlidir. (İst: Paraq. A47–A49)

*Rəhbərlikdən öz qiymətləndirməsinin dövrünün uzadılmasının tələb edilməsi*

21. Əgər rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsi, 560 saylı BAS-da[8] müəyyən edildiyi kimi maliyyə hesabatlarının təsdiq edildiyi tarixdən etibarən on iki aydan az müddəti əhatə edirsə, auditor rəhbərlikdən qiymətləndirmə dövrünü həmin tarixdən etibarən ən azı on iki aya qədər uzatmasını tələb etməlidir. (İst: Paraq. A50–A53)

*Rəhbərliyin öz qiymətləndirməsini genişləndirmək istəməməsi*

22. Əgər rəhbərlik auditorun tələbi ilə qiymətləndirməni genişləndirmək istəmirsə, auditor bu məsələni rəhbərliklə və müvafiq hallarda, idarəetməyə məsul şəxslərlə müzakirə etməlidir. (İst: Paraq. A54–A56)

23. Əgər 22-ci paraqrafda tələb olunan müzakirədən sonra auditorun peşəkar mühakiməsinə əsasən

[8] 560 saylı "Sonrakı hadisələr" BAS, 5(b) paraqrafı

rəhbərliyin öz qiymətləndirməsini genişləndirməsi zəruri olarsa və rəhbərlik bunu etmək hələ də istəmirsə, auditor bunun audit üçün nəticələrini müəyyən etməlidir. (İst: Paraq. A57)

*Rəhbərliyin qiymətləndirməsində istifadə edilən məlumatlar*

24. Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsini dəyərləndirərkən, auditor rəhbərliyin qiymətləndirməsinə auditora məlum olan bütün müvafiq məlumatların daxil olub-olmadığını nəzərə almalıdır.

25. Əgər auditor rəhbərliyin əvvəllər aşkar etmədiyi və ya auditora açıqlamadığı, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər aşkar edərsə, auditor aşağıdakıları etməlidir:

(a) Həmin hadisələrin və ya şəraitlərin rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsinə təsiri barədə anlayış əldə etmək üçün bu məsələni rəhbərliklə müzakirə etmək və rəhbərlikdən onların mümkün əhəmiyyətliliyini dəyərləndirməsini tələb etmək;

(b) Həmin hadisələrin və ya şəraitlərin təsiri ilə bağlı tədbir görmək üçün rəhbərlikdən müəssisənin fəaliyyətinin fasiləsizliyinin qiymətləndirilməsini yenidən nəzərdən keçirməsini tələb etməyin zəruri olub-olmadığını müəyyən etmək; habelə (İst: Paraq. A58)

(c) Müvafiq hallarda, 17-19-cu paraqraflara uyğun olaraq, rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsini dəyərləndirmək üçün əlavə audit prosedurları hazırlamaq və yerinə yetirmək.

**Rəhbərliyin gələcək tədbirlər planlarının dəyərləndirilməsi**

26. Əgər müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər aşkar edilərsə, auditor rəhbərliyin öz fəaliyyətinin fasiləsizliyini qiymətləndirməsi ilə bağlı rəhbərliyin gələcək tədbirlər planlarını, o cümlədən aşağıdakıları dəyərləndirməlidir: (İst: Paraq. A59–A62)

(a) Bu planların nəticəsi, aşkar edilmiş hadisələrin və ya şəraitlərin təsirlərini azaltmaq üçün yetərli ol bilər;

(b) Rəhbərliyin planları bu şəraitdə yerinə yetirilə bilər; habelə

(c) Rəhbərliyin həm müəyyən fəaliyyət planını həyata keçirmək niyyəti, həm də imkanı var.

27. Əgər rəhbərliyin gələcək tədbirlər planlarına əhəmiyyətli ehtimallardan və ya verilənlərdən istifadə edilməsi daxildirsə, auditor 19(b)-(c) paraqraflarında tələb olunan audit prosedurlarını yerinə yetirməlidir.

*Müəssisənin sahibkar-rəhbəri də daxil olmaqla, üçüncü şəxslərin və ya əlaqəli tərəflərin maddi dəstəyi*

28. Əgər rəhbərliyin gələcək tədbirlər planlarına müəssisənin sahibkar-rəhbəri də daxil olmaqla, üçüncü şəxslərin və ya əlaqəli tərəflərin maddi dəstəyi daxildirsə, auditor həmin tərəflərin zəruri maddi dəstəyi davam etdirmək və ya təmin etmək niyyəti və imkanı barədə audit sübutları əldə etməlidir. (İst: Paraq. A63–A65)

**Auditor hesabatı tarixindən sonra məlum olan məlumatlar**

29. Əgər auditora auditor hesabatının tarixindən sonra, lakin maliyyə hesabatlarının dərc olunma tarixindən əvvəl rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsi ilə bağlı əlavə məlumat məlum olarsa, auditor 560 saylı BAS-a uyğun olaraq prosedurlar yerinə yetirməlidir. (İst: Paraq. A66)

**Əldə edilmiş audit sübutlarının dəyərləndirilməsi və nəticə çıxarılması**

30. Auditor maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğu ilə bağlı yetərli müvafiq audit sübutlarının əldə edilib-edilmədiyini dəyərləndirməli və bu barədə nəticə çıxarmalıdır. Bunu edərkən auditor: (İst: Paraq. A67)

(a) Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirərkən rəhbərliyin yürütdüyü mühakimələrin və verdiyi qərarların, hətta ayrılıqda ağlabatan olsa belə, rəhbərliyin mümkün qərəzliliyinin göstəriciləri olub-olmadığını dəyərləndirməlidir. Rəhbərliyin mümkün qərəzliliyinin göstəriciləri aşkar edildikdə, auditor onların audit üçün nəticələrini dəyərləndirməlidir. (İst: Paraq. A68–A71)

(b) Maliyyə hesabatlarındakı təsdiqləmələri təsdiqləməsindən və ya onlara zidd olmasından asılı olmayaraq, digər audit sübutları ilə uyğun və ya ziddiyyətli olan audit sübutları da daxil olmaqla, əldə edilmiş bütün audit sübutlarını nəzərə almalıdır.

31. Əldə edilmiş audit sübutları əsasında auditor öz peşəkar mühakiməsinə əsasən müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlərlə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olub-olmadığı barədə nəticə çıxarmalıdır. (İst: Paraq. A72)

**Açıqlamaların yetərliliyi**

*Əhəmiyyətli qeyri-müəyyənlik olmadıqda açıqlamaların yetərliliyi*

32. Əgər müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər aşkar edilmişdirsə, lakin əldə edilmiş audit sübutlarına əsasən auditor heç bir əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəlirsə, auditor maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələbləri baxımından, o cümlədən, müvafiq hallarda, rəhbərlik tərəfindən heç bir əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gələrək əhəmiyyətli mühakimələr yürüdüldükdə, maliyyə hesabatlarında bu hadisələrin və ya şəraitlərin yetərli şəkildə açıqlanıb-açıqlanmamasını dəyərləndirməlidir. (İst: Paraq. A73–A76)

*Əhəmiyyətli qeyri-müəyyənlik mövcud olduqda açıqlamaların yetərli olub-olmaması*

33. Əgər auditor rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin mövcud şəraitdə məqsədəuyğun olduğu qənaətinə gələrsə, lakin əhəmiyyətli qeyri-müəyyənlik mövcud olarsa, auditor aşağıdakıları müəyyən etməlidir: (İst: Paraq. A77)

(a) Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən əsas hadisələr və ya şəraitlərin, eləcə də rəhbərliyin bu hadisələr və ya şəraitlərə dair görəcəyi gələcək tədbirlər planlarının maliyyə hesabatlarında yetərli şəkildə açıqlanıb-açıqlanmaması; habelə

(b) Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlərlə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğunun və buna görə də müəssisənin iş fəaliyyətinin normal gedişatında aktivlərini reallaşdıra və öhdəliklərini yerinə yetirə bilməyəcəyini və yaxın gələcəkdə fəaliyyətini davam etdirə bilməyəcəyinin maliyyə hesabatlarında açıq şəkildə açıqlanıb-açıqlanmaması.

Əhəmiyyətli qeyri-müəyyənlik mövcud olduqda, qeyri-müəyyənliyin xüsusiyyəti və nəticələri aşağıdakılar üçün açıqlanmalıdır:

(i) maliyyə hesabatlarının ədalətli təqdimatı (maliyyə hesabatlarının ədalətli təqdimat çərçivələri tətbiq edildiyi halda), yaxud

(ii) maliyyə hesabatlarının yanlış təsəvvür yaratmaması (uyğunluq çərçivələri tətbiq edildiyi halda).

**Auditor hesabatı üçün nəticələr**

*Mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsi məqsədəuyğundur - əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil*

34. Əgər auditor mühasibat uçotunda müəssisının fəaliyyətinin fasiləsizliyi prinsipinin məqsədəuyğun olduğu və əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olmadığı qənaətinə gələrsə, auditor hesabatına “Müəssisənin fəaliyyətinin fasiləsizliyi” başlığı ilə ayrıca bir bölmə daxil etməli və: (İst: Paraq. A78–A79)

(a) aşağıdakıları qeyd etməlidir: (İst: Paraq. A80–A81)

(i) bütövlükdə maliyyə hesabatlarının auditi baxımından və onlara dair auditor rəyini formalaşdırdıqda, auditor qənaətə gəlmişdir ki, maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsi məqsədəuyğundur;

(ii) Əldə edilmiş audit sübutlarına əsasən, auditor müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlərlə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etməmişdir; habelə

(iii) Auditorun nəticələri auditor hesabatının tarixinə qədər əldə edilmiş audit sübutlarına əsaslanır və müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

(b) Listinq subyektinin maliyyə hesabatlarının auditi üçün müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlərlə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəlmək üçün rəhbərlik tərəfindən əhəmiyyətli mühakimələr yürüdüldükdə: (İst: Paraq. A82–A83, A89)

(i) Əgər varsa, maliyyə hesabatlarında əlaqəli açıqlamaya (açıqlamalara) istinad daxil etməlidir; habelə (İst: Paraq. A73–A76)

(ii) Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin auditor tərəfindən necə dəyərləndirildiyini təsvir etməlidir. (İst: Paraq. A84–A88)

*Mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsi məqsədəuyğundur – əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur*

Maliyyə hesabatlarında əhəmiyyətli qeyri-müəyyənliyin açıqlanması yetərlidir

35. Əhəmiyyətli qeyri-müəyyənlik maliyyə hesabatlarında yetərli şəkildə açıqlandığı halda, auditor müsbət rəy bildirməli və auditor hesabatına “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik” başlığı altında ayrıca bölmə daxil etməlidir və: (İst: Paraq. A78–A79, A90–A91)

(a) Maliyyə hesabatlarında əlaqəli açıqlamaya (açıqlamalara) istinad daxil etməlidir; (İst: Paraq. A73, A77)

(b) Listinq subyektinin maliyyə hesabatlarının auditi üçün rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsinin auditor tərəfindən neçə dəyərləndirildiyini təsvir etməlidir; (İst: Paraq. A84–A88)

(c) Bu hadisələrin və ya şəraitlərin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğuna dəlalət etdiyini qeyd etməlidir;

(d) Aşağıdakıları qeyd etməlidir:

(i) Bu məsələ ilə bağlı auditor rəyi dəyişdirilməmişdir;

(ii) Bütövlükdə maliyyə hesabatlarının auditi baxımından və onlara dair auditor rəyini formalaşdırdıqda, auditor qənaətə gəlmişdir ki, maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsi məqsədəuyğundur; habelə

(iii) Auditorun qənaətləri auditor hesabatının tarixinə qədər əldə edilmiş audit sübutlarına əsaslanır və müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

Maliyyə hesabatlarında əhəmiyyətli qeyri-müəyyənliyin açıqlanması yetərli deyil

36. Əgər əhəmiyyətli qeyri-müəyyənlik barədə müvafiq informasiya maliyyə hesabatlarında yetərli şəkildə açıqlanmamışdırsa, bu zaman auditor: (İst: Paraq. A78–A79, A90, A92)

(a) 705 saylı (düzəliş edilmiş) BAS-a[9] əsasən, müvafiq olaraq, şərti müsbət rəy və ya mənfi rəy bildirməlidir;

(b) Auditor hesabatının “Şərti müsbət (mənfi) rəy üçün əsaslar” bölməsində əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğunu və maliyyə hesabatlarında bu məsələnin yetərli şəkildə açıqlanmadığını bildirməlidir;

(c) Auditor hesabatına “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik” başlığı altında ayrıca bölmə daxil etməlidir və:

(i) Maliyyə hesabatlarında yetərli şəkildə açıqlanmayan əhəmiyyətli qeyri-müəyyənliyin mövcudluğuna dəlalət edən auditor hesabatının “Şərti müsbət (mənfi) rəy üçün əsaslar” bölməsinə diqqəti cəlb etməlidir;

(ii) Bildirməlidir ki:

a. bütövlükdə maliyyə hesabatlarının auditi baxımından və onlara dair auditor rəyini formalaşdırdıqda, auditor qənaətə gəlmişdir ki, maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsi məqsədəuyğundur; habelə

b. Auditorun nəticələri auditor hesabatının tarixinə qədər əldə edilmiş audit sübutlarına əsaslanır və müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

*Auditor maliyyə hesabatlarına dair rəy verməkdən imtina etdikdə mülahizələr*

37. Qanun və ya qaydalarla tələb olunmadığı təqdirdə, auditor maliyyə hesabatlarına dair rəy verməkdən imtina etdikdə, auditor öz hesabatına “Müəssisənin fəaliyyətinin fasiləsizliyi” və ya “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik” üzrə ayrıca bölmələr daxil etməməlidir.[10] (İst: Paraq. A93–A94)

*Mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsi məqsədəuyğun deyil*

38. Əgər maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilmişdirsə, lakin auditorun peşəkar mühakiməsinə əsasən maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə

[9] 705 saylı (düzəliş edilmiş) “Müstəqil auditorun hesabatında fərqli rəylər” BAS
[10] 705 saylı (düzəliş edilmiş) BAS, 29-cu paraqraf

edilməsi məqsədəuyğun deyilsə: (İst: Paraq. A95–A96)

(a) Auditor mənfi rəy bildirməlidir; habelə

(b) Qanun və ya qaydalarla tələb olunmadığı təqdirdə, auditor öz hesabatına "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" və ya "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik" üzrə ayrıca bölmələr daxil etməməlidir.

**Yazılı təqdimatlar**

39. Auditor rəhbərlikdən[11] və lazım olduqda idarəetməyə məsul şəxslərdən aşağıdakıları əks etdirən yazılı təqdimatlar tələb etməlidir: (İst: Paraq. A97)

(a) Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğu;

(b) Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyinin qiymətləndirməsində istifadə olunan metodun, əhəmiyyətli ehtimalların və verilənlərin, eləcə də əlaqəli açıqlamaların maliyyə hesabatlarının tətbiq olunan çərçivələri baxımından məqsədəuyğunluğu;

(c) Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyinin qiymətləndirməsi, rəhbərliyə məlum olan və müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən bütün hadisələri və ya şəraitləri əks etdirsin və bütün bu cür hadisələr və ya şəraitlər, əgər varsa, auditora açıqlansın; habelə

(d) Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli məsələlər, o cümlədən, müvafiq hallarda, rəhbərliyin heç bir əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəlməsində yürütdüyü əhəmiyyətli mühakimələr də daxil olmaqla, maliyyə hesabatlarında yetərli şəkildə açıqlansın.

40. Əgər müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər aşkar edilərsə, 39-cu paraqrafda tələb olunan yazılı təqdimatlar aşağıdakıları da əks etdirməlidir: (İst: Paraq. A97)

(a) Rəhbərliyin gələcək tədbirlər planları və bu cür planların aşkar edilmiş hadisələrin və ya şəraitlərin nəticələrini azaldıb-azaltmaması;

(b) Bu planların mümkünlüyü; habelə

(c) Rəhbərliyin müəyyən fəaliyyət planını həyata keçirmək niyyətinin və imkanının olub-olmaması.

**İdarəetməyə məsul şəxslərlə ünsiyyət**

41. İdarəetməyə məsul şəxslərin hamısı müəssisənin idarə edilməsində iştirak etdiyi hallar istisna olmaqla,[12] auditor müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər barədə vaxtında idarəetməyə məsul şəxslərə məlumat verməlidir. (İst: Paraq. A98–A99)

42. Əgər müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər aşkar edilərsə, auditor idarəetməyə məsul şəxslərə aşağıdakılar barədə məlumat verməlidir: (İst: Paraq. A100)

(a) Hadisələrin və ya şəraitlərin əhəmiyyətli qeyri-müəyyənlik təşkil edib-etməməsi;

(b) Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğu;

(c) Rəhbərliyin gələcək tədbirlər planlarının auditor tərəfindən dəyərləndirilməsi də daxil olmaqla,

[11] 580 saylı "Yazılı təqdimatlar" BAS
[12] 260 saylı (düzəliş edilmiş) BAS, 13-cü paraqraf

yerinə yetirilən audit prosedurlarına və auditorun nəticələri üçün əsaslara ümumi baxış;

(d) Maliyyə hesabatlarındakı əlaqəli açıqlamaların, o cümlədən rəhbərliyin yürütdüyü əhəmiyyətli mühakimələrin və hadisələrin və ya şəraitlərin mənfi təsirlərinin aradan qaldırılması üçün əhəmiyyət kəsb edən rəhbərliyin planlarındakı yüngülləşdirici amilləri təsvir edən açıqlamaların yetərliliyi;

(e) Müvafiq hallarda, rəhbərliyin tələb olunduqda müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsini həyata keçirmək və ya genişləndirmək istəməməsi; habelə

(f) Auditə və ya auditor hesabatına təsiri. (İst: Paraq. A101)

**Müəssisədən kənar müvafiq orqana məlumatvermə**

43. Auditor hesabatına "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik" başlığı altında ayrıca bir bölmə daxil etməyi və ya fəaliyyətin fasiləsizliyi ilə əlaqəli məsələlərə dair fərqli rəy verməyi nəzərdən keçirdikdə, auditor aşağıdakıları müəyyən etməlidir: (İst: Paraq. A102–A105)

(a) qanun, qayda və ya müvafiq etik normalar üzrə auditordan müəssisədən kənar müvafiq səlahiyyətli orqana hesabat vermək tələb olunurmu;

(b) qanun, qayda və ya müvafiq etik normalar mövcud şəraitdə müəssisədən kənar müvafiq səlahiyyətli orqana hesabatvermənin məqsədəuyğun ola biləcəyi məsuliyyətlər və ya hüquqlar müəyyən edirmi.

**Sənədləşdirilmə**

44. 230 saylı BAS-ı[13] tətbiq edərkən, auditor audit sənədlərinə aşağıdakılar ilə bağlı yürüdülmüş əhəmiyyətli peşəkar mühakimələri daxil etməlidir:

(a) Auditorun aşağıdakılara dair qənaətləri:

(i) maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğu;

(ii) əhəmiyyətli qeyri-müəyyənliyin mövcudluğu; habelə

(b) Maliyyə hesabatlarında müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli rəhbərliyin açıqladığı məlumatların yetərli olub-olmamasının auditor tərəfindən müəyyən edilməsi.

***

## Tətbiqi və digər izahedici materiallar

**Bu BAS-ın əhatə dairəsi** (İst: Paraq. 1)

A1. Bu BAS-da əhatə olunan məsələlərə əlavə olaraq, 701 saylı BAS-da[14] auditorun əsas audit məsələləri haqqında auditor hesabatında məlumat vermək məsuliyyəti də əks etdirilir. Həmin BAS-da qəbul edilir ki, 701 saylı BAS tətbiq edildikdə aşağıdakılar xüsusiyyətinə görə əsas audit məsələləridir:[15]

- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə atına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik; yaxud
- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə

[13] 230 saylı "Auditin sənədləşdirilməsi" BAS, 8–11-ci paraqraflar, A6–A7 paraqraflar və Əlavə
[14] 701 saylı "Müstəqil auditorun hesabatında əsas audit məsələləri haqqında məlumatvermə" BAS
[15] 701 saylı BAS, 15-ci paraqraf

gələrkən rəhbərlik tərəfindən əhəmiyyətli mühakimələr yürüdüldükdə.

Bununla belə, bu cür hallarda, auditor hesabatı üçün nəticələr bu BAS-a uyğun olur.

A2. Listinq subyektlərinin maliyyə hesabatlarının auditi aparıldıqda, auditor əldə edilmiş audit sübutlarına əsasən əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəldikdə və rəhbərlik tərəfindən müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəldikdə, bu BAS üzrə auditordan auditor hesabatında "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" başlığı altında auditorun müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə dair rəhbərliyin qiymətləndirməsini necə dəyərləndirdiyini açıqlaması tələb edilir.

### Mühasibat uçotunda fəaliyyətinin fasiləsizliyi prinsipi

*İctimai sektor müəssisələrinə xas olan mülahizələr* (İst: Paraq. 2)

A3. Mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən ictimai sektor müəssisələrinin rəhbərləri də istifadə etməlidir. Məsələn, 1 saylı İctimai Sektor üçün Beynəlxalq Mühasibat Uçotu Standartında (IPSAS) ictimai sektor müəssisələrinin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyəti məsələsi əks etdirilir.[16] Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli risklər ictimai sektor müəssisələrinin mənfəət əldə etmək üçün fəaliyyət göstərdiyi, hökumət dəstəyinin azaldıla və ya ləğv edilə biləcəyi, yaxud özəlləşdirmə hallarında baş verə bilər. İctimai sektorda müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlərə ictimai sektor müəssisəsinin davamlı mövcud qalması üçün maliyyələşmənin yetərli olmaması və ya ictimai sektor müəssisəsi tərəfindən göstərilən xidmətlərə təsir edən siyasi qərarların qəbul edilməsi aid ola bilər.

### Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi üzrə məsuliyyət

*Rəhbərliyin məsuliyyətləri* (İst: Paraq. 3)

A4. Müəssisələrin maliyyə hesabatlarını mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırladığı hallar fərqli ola bilər. Məsələn, 1 saylı MUBS-da izah olunur ki, bu hallar müəssisənin gəlirli əməliyyatlar tarixçəsinə və maliyyə resurslarına asanlıqla çıxışa malik olduğu vaxtdan başlayıb rəhbərliyin fəaliyyətin fasiləsizliyi prinsipinin məqsədəuyğun olduğundan əmin olmaq üçün cari və gözlənilən gəlirlilik, kreditlərin ödənişi cədvəlləri və potensial yeni maliyyələşdirmə mənbələri ilə bağlı çoxsaylı amilləri nəzərə almalı olduğu vaxta qədər dəyişə bilər.[17]

**Anlayış** (İst: Paraq. 10)

A5. Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrində müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli maliyyə hesabatlarında açıqlanması tələb olunan qeyri-müəyyənlikləri təsvir edərkən "əhəmiyyətli qeyri-müəyyənlik" termini açıq şəkildə istifadə edilə də bilər, edilməyə də. Məsələn, "əhəmiyyətli qeyri-müəyyənlik" termini 1 saylı MUBS-da və 1 saylı IPSAS-da istifadə olunur. Bəzi digər maliyyə hesabatlarının çərçivələrində "əhəmiyyətli qeyri-müəyyənlik" termini oxşar hallarda istifadə olunur. 31-ci paraqrafa əsasən, auditor, maliyyə hesabatlarının tətbiq olunan çərçivələrində "əhəmiyyətli qeyri-müəyyənlik" anlayışının müəyyən edilib-edilməməsindən və ya necə müəyyən edilməsindən asılı olmayaraq, əhəmiyyətli qeyri-müəyyənliyin mövcudluğu barədə nəticə çıxarmalıdır. Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrində həmçinin "ciddi şübhə altına ala bilər" termini müəyyən edilməyə və ya təsvir edilməyə bilər, yaxud başqa terminlərdən və ya ifadələrdən istifadə edilə bilər.

[16] 1 saylı "Maliyyə hesabatlarının təqdim edilməsi" MUBS, 38-41-ci paraqraflar
[17] 1 saylı MUBS, 26-cı paraqraf

A6. Gələcək tədbirlər planlarına, məsələn, rəhbərliyin aktivləri əvvəlcə nəzərdə tutulduğundan daha tez reallaşdırması və ya müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini dəstəkləmək üçün alternativ və ya əlavə likvidlik mənbələri əldə etməsi daxil ola bilər (həmçinin bax: 26-28-ci paraqraflar). Belə hallarda, qeyri-müəyyənliyə səbəb olan hadisələrin və ya şəraitlərin müddəti də əhəmiyyətli ola bilər. Məsələn, rəhbərliyin tədbir görməli olduğu müddət nə qədər qısa olarsa, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyəti ilə bağlı qeyri-müəyyənlik bir o qədər əhəmiyyətli ola bilər.

**Riski qiymətləndirmə prosedurları və əlaqəli fəaliyyətlər**

*Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini əhəmiyyətli şübhə altına ala bilən hadisələr və ya şəraitlər* (İst: Paraq. 11)

A7. Bəzi hadisələr və ya şəraitlər ayrı-ayrılıqda nəzərə alındıqda əhəmiyyətli şübhə yaratmaya bilər, lakin digər hadisələr və ya şəraitlər ilə birlikdə nəzərə alındıqda, onlar müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilər.

Nümunələr:

- Aşağıda ayrılıqda və ya məcmu halında müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən aşkar edilmiş hadisələr və ya şəraitlərə dair nümunələr verilmişdir. Bu nümunələrin siyahısı tam deyil.
- Maliyyə əlamətləri
- Xalis öhdəliklər və ya xalis cari öhdəliklərin cəmi.
- Borc müddətinin uzadılmasının və ya ödənişin real perspektivlər olmadan ödəmə müddəti yaxınlaşan müddətli borclar və ya uzunmüddətli aktivləri maliyyələşdirmək üçün qısamüddətli borclara həddindən artıq etibar.
- Kreditorlar tərəfindən maliyyə dəstəyi göstərməkdən imtinanın əlamətləri.
- Ötən dövrlərin və ya proqnozlaşdırılan maliyyə hesabatlarında əks etdirilmiş əməliyyatlar nəticəsində yaranan pul vəsaitlərinin təkrarlanan mənfi hərəkəti və ya pul vəsaitlərinin hərəkətini yarada bilməmə.
- Əsas mənfi maliyyə göstəriciləri.
- Əsas fəaliyyətdən əhəmiyyətli itkilər və ya pul vəsaitlərinin hərəkətini formalaşdıran aktivlərin dəyərinin əhəmiyyətli dərəcədə aşağı düşməsi.
- Dividendlər üzrə borclar və ya dividendlərin ödənilməsinin dayandırılması.
- Kreditorlar qarşısında öhdəliklərin müəyyən edilmiş ödəniş tarixlərində yerinə yetirilə bilməməsi.
- Kreditin ödənilməsi və ya kredit müqaviləsi üzrə digər tələblərə riayət edilməməsi və ya həmin tələbləri yerinə yetirmək imkanının məhdud olması, yaxud kredit müqavilələrinin şərtlərinə riayət edilməməsi.
- Təchizatçılarla kredit əsasında aparılan əməliyyatlardan çatdırılma zamanı nağd ödəniş şərti ilə aparılan əməliyyatlara keçid.
- Rəqabət qabiliyyətini qoruyub saxlamaq üçün, o cümlədən maliyyələşdirmə, əsas elmi-tədqiqat işləri, kapital xərcləri, vacib yeni məhsulların hazırlanması və digər vacib investisiyalar üçün əlavə borc və ya kapital maliyyələşməsinin cəlb edilə bilməməsi.
- Maliyyə aktivləri və öhdəliklərinin ödəmə müddətinin uyğunsuzluğu nəticəsində likvidlik riskinə məruz qalma.
- Əməliyyat əlamətləri
- Rəhbərliyin müəssisəni ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyəti.
- Lazımi əvəzləmə olmadan əsas heyətin və rəhbərliyin işdən getməsi.
- Müştəri tələbatında əhəmiyyətli azalmalar.
- Əsas bazarın, əhəmiyyətli müştərinin (müştərilərin), françayzinq hüququnun, lisenziyanın və ya

əsas təchizatçının (təchizatçıların) itirilməsi.

- Əmək münasibətləri ilə bağlı çətinliklər.
- Mühüm mal-material ehtiyatlarının çatışmazlığı.
- Yüksək dərəcədə uğurlu rəqibin meydana gəlməsi.
- Digər əlamətlər
- Kiberhücum nəticəsində biznesdə əhəmiyyətli və ya davamlı fasilə (məs., məlumatlara çıxışın məhdudlaşdırılması və ya xidmət göstərilməsinin mümkünsüz olması).
- Maliyyə qurumları üçün ödəmə qabiliyyəti və ya likvidliyə dair tələblər, yaxud birjada listinq tələbləri kimi kapital normasına və ya digər qanun və ya qaydaların tələblərinə əməl etməmə və ya həmin tələbləri yerinə yetirmək imkanının məhdud olması.
- Satış zəmanətləri, maliyyə zəmanətləri və ətraf mühitin bərpası kimi məsələlərdən irəli gələn, uğurlu olduğu halda, müəssisənin təmin edə bilməyəcəyi ehtimal olunan iddialar ilə nəticələnəcək başa çatmamış məhkəmə çəkişmələri və şərti öhdəliklər və ya müəssisəyə qarşı nəzarət icraatları.
- Davamlılıqla bağlı məsələlər də daxil olmaqla, müəssisəyə mənfi təsir göstərə biləcək qanun və ya qaydalarda, yaxud dövlət siyasətində dəyişikliklərin baş verməsi.
- Səhm qiymətində əhəmiyyətli dərəcədə azalma.
- Valyuta məzənnələri, əmtəələr (məs., xam neft qiymətləri), səhmlər və ya faiz dərəcələri kimi dəyişkən bazarlara əhəmiyyətli dərəcədə məruzqalma.
- Sığortasız və ya tam şəkildə sığortalanmamış fəlakətlər və ya onlar baş verdikdə (məs., zəlzələ) yaranan fəaliyyətin dayanması.
- Müharibə, vətəndaş iğtişaşları, xəstəliklərin yayılması kimi müəssisəyə mənfi təsir göstərəcəyi ehtimal edilən ətraf mühitdə baş verən dəyişikliklər və ya iqlim dəyişikliyi ilə bağlı fiziki risklər (məs., güclü sel).

A8. Müəyyən hallarda, auditor, 240 saylı BAS-a[18] uyğun olaraq, dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi ilə əlaqəli olan, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrdən və ya şəraitlərdən irəli gələn dələduzluq riskinin amillərini müəyyən edə bilər.

Nümunələr:

- Əməliyyatlardan pul vəsaitlərinin təkrarlanan mənfi axını və ya əməliyyatlardan pul vəsaitlərinin axını yarada bilməməsi iflas, girov hüququndan məhrumolma və ya rəqib şirkətlər tərəfindən mənimsənilmə təhlükəsi yarada bilər ki, bu da dələduzluq törətmək üçün stimul və ya təzyiq əlaməti ola bilər.
- Borc öhdəliklərinin yerinə yetirilməməsi və ya həmin öhdəlikləri yerinə yetirmək imkanının məhdud olması borcların müddətini uzatmaq imkanına təhdid edə bilər və biznes fəaliyyətininin göstəricilərini yaxşılaşdırmaq və ya maliyyə hesabatlarını qəsdən təhrif etmək üçün stimul və ya təzyiq əlaməti ola bilər.

*Riski qiymətləndirmə prosedurları və əlaqəli tədbirlər* (İst: Paraq. 11–12)

A9. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS auditorun müəssisə və onun mühiti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və müəssisənin daxili nəzarət sistemi haqqında anlayış əldə etmək məsuliyyəti, eləcə də dələduzluq və ya səhv nəticəsində baş vermiş əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi ilə bağlı tələbləri və təlimatları ehtiva edir. Bu BAS-dakı tələblər və təlimatlar, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin aşkar edilməsi ilə əlaqəli 315 saylı (2019-cu ildə

[18] 240 saylı "Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti" BAS, 24-cü paraqraf

düzəliş edilmiş) BAS üzrə tələb olunanlara istinad edir və ya onları əhatə edir.

A10. Riski qiymətləndirmə prosedurları və əlaqəli tədbirlər auditora rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinin vacib məsələ olub-olmadığını və onun auditin planlaşdırılmasına təsirini müəyyən etməkdə kömək edir. Xüsusən, 11-12-ci paraqraflarda tələb olunanlar kimi riski qiymətləndirmə prosedurlarını yerinə yetirərkən, auditor ayrılıqda və ya məcmu halında nəzərdən keçirildikdə, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin mövcudluğuna dəlalət edən müəyyən hadisələr və ya şəraitlər haqqında məlumatları aşkar edə bilər. Bu prosedurlar həmçinin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər aşkar edildikdə rəhbərliklə daha vaxtında müzakirələrə, o cümlədən rəhbərliyin gələcək tədbirlər planlarının və aşkar edilmiş müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirməsi ilə bağlı məsələlərin həllinin müzakirə edilməsinə imkan verir. Auditor bu BAS-ın tələblərinə riayət etmək üçün yerinə yetiriləcək risk qiymətləndirmə prosedurlarının xüsusiyyətini və həcmini müəyyən etmək üçün peşəkar mühakimə yürüdür.

A11. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-a[19] uyğun olaraq auditordan təsdiqedici ola biləcək audit sübutlarının əldə edilməsinə və ya ziddiyyətli ola biləcək audit sübutlarının istisna edilməsinə yönəlməmiş şəkildə riski qiymətləndirmə prosedurlarını hazırlamaq və yerinə yetirmək tələb edilir. Riski qiymətləndirmə prosedurlarının qərəzsiz şəkildə hazırlanması və yerinə yetirilməsi auditora ziddiyyətli ola biləcək məlumatları müəyyən etməyə kömək edə bilər. Bu, auditora müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin maliyyə hesabatlarının hazırlanmasında rəhbərliyin qərəzli olması riskinə səbəb olub-olmadığını müəyyən edərkən peşəkar inamsızlığı qoruyub saxlamağa kömək edə bilər (həmçinin bax: A68–A71 paraqrafları).

A12. Aşağıda müvafiq ola biləcək riski qiymətləndirmə prosedurlarının nümunələri verilir:

Nümunələr:

Müəssisə və onun mühiti

- Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli rəhbərliyin qiymətləndirməsinə daxil edilmiş gələcək mənfəətlə əlaqəli həssaslıq təhlili haqqında anlayış əldə etmək üçün maliyyə planlaşdırma və təhlil heyətinə pul vəsaitlərinin hərəkəti, mənfəət və digər müvafiq proqnozlarla bağlı sorğuların göndərilməsi.
- Məhkəmə proseslərinin və iddiaların mövcudluğu və rəhbərliyin onların nəticələrinə dair qiymətləndirmələrinin və maliyyə nəticələrinin qiymətləndirilməsinin müvafiqliyi barədə müəssisənin hüquq məsləhətçisinə sorğuların göndərilməsi.
- Müəssisənin fəaliyyətinin fasiləsizliyi üçün rəhbərliyin qiymətləndirmə prosesinin effektivliyi barədə məlumat əldə etmək üçün əvvəlki proqnozların təhlili (retrospektiv təhlil).
- Borc öhdəliklərinin və kredit sazişlərinin şərtləri ilə tanışlıq və hər hansı birinin pozulub-pozulmadığının müəyyən edilməsi.

Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri

- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin əlaməti ola bilən, müəssisənin mövcud olan ən son maliyyə hesabatlarına daxil edilmiş gələcəklə bağlı rəhbərliyin irəli sürdüyü əhəmiyyətli mühakimələr və ehtimallar barədə açıqlamaların təhlili.

Müəssisənin daxili nəzarət sistemi

[19] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, 13-cü paraqraf

- Maliyyələşdirmə çətinlikləri barədə məlumatları müəyyən etmək üçün səhmdarların, idarəetməyə məsul şəxslərin və müvafiq komitələrin yığıncaqlarının protokollarının təhlili.

A13. Auditor, 11-ci paraqrafda tələb olunduğu kimi, riski qiymətləndirmə prosedurlarını hazırlayarkən və yerinə yetirərkən avtomatlaşdırılmış alətlərdən və metodlardan da istifadə edə bilər.

Nümunələr:

Auditor aşağıdakı hallarda avtomatlaşdırılmış alət və metodlardan istifadə edə bilər:

- Əsas maliyyə göstəriciləri (məs., müəssisənin əsas qazanc mənbələri və onların pul vəsaitlərinin əmələ gəlməsi ilə əlaqəsi) tendensiyaları haqqında anlayış əldə etmək və ya uyğunsuzluqları və ya qeyri-adi hadisələri müəyyən etmək üçün analitik prosedurlar yerinə yetirildikdə.
- Müəssisənin maliyyə vəziyyətini qiymətləndirmək və ya müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin təsiri barədə anlayış əldə etmək üçün proqnozlaşdırıcı modellər (məs., iflas və ya müflisləşmənin proqnozlaşdırılması üçün modellər) tətbiq edildikdə.

Uyğunlaşdırılma (İst: Paraq. 11–12)

A14. Auditorun riski qiymətləndirmə prosedurlarının xüsusiyyəti və həcmi müəssisənin xüsusiyyətindən və şəraitindən asılı olaraq dəyişə bilər.

Nümunələr:

Müəssisə və onun mühiti

- Müəssisənin maliyyə göstəricilərini qiymətləndirmək üçün daxildə və xaricdə istifadə edilən tədbirlər haqqında anlayış əldə etmək üçün auditorun riski qiymətləndirmə prosedurlarının xüsusiyyəti və həcmi strukturu və biznes fəaliyyəti mürəkkəb olan müəssisələr üçün daha geniş ola bilər. Belə müəssisələrin kreditorlar, təchizatçılar və ya qrup müəssisələri ilə borc müqavilələri də mürəkkəb ola bilər. Əksinə, biznes fəaliyyətləri sadə, bir neçə biznes sahəsi və borc müqavilələri mürəkkəb olmayan kiçik və ya daha az mürəkkəb müəssisələr üçün auditorun riski qiymətləndirmə prosedurları çox geniş olmaya bilər.

Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri

- Müəssisənin biznes fəaliyyətinə, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli qeyri-müəyyənliklər daha az dərəcədə təsir etdikdə, müəssisənin maliyyə hesabatlarında edilən əlaqəli açıqlamalar sadə ola bilər və tətbiq olunan maliyyə hesabatlarının tələblərini tətbiq etmək daha asan ola bilər. Belə hallarda, mühasibat uçotunda müəssisənin fəaliyyətinin fasiləsizliyinin rəhbərlik tərəfindən nəzərdə tutulan istifadə prinsipi haqqında anlayış əldə etmək üçün auditorun prosedurları çox geniş olmaya bilər.

Müəssisənin daxili nəzarət sistemi

- Auditorun riski qiymətləndirmə prosedurlarının xüsusiyyəti və həcmi müəyyən məsələlərin mövcud şəraitə nə dərəcədə şamil olunmasından da asılı ola bilər. Məsələn, kiçik və ya daha az mürəkkəb müəssisələrdə idarəetməyə məsul şəxslərə müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyəti ilə bağlı rəhbərliyin qiymətləndirməsinə nəzarət edən müstəqil və ya kənar üzvlər daxil olmaya bilər. Bundan əlavə, müəssisənin riski qiymətləndirmə prosesi sahibkar-rəhbərin birbaşa iştirakı ilə həyata keçirilə bilər.

A15. Kiçik və ya daha az mürəkkəb müəssisələr üçün aşağıdakı mülahizələr uyğun ola bilər:

- Müəssisənin həcmi onun əlverişsiz şərtlərə tabgətirmə qabiliyyətinə təsir göstərə bilər. Kiçik müəssisələr fürsətlərdən istifadə etmək üçün tez bir zamanda reaksiya verə bilər, lakin əməliyyatları davam etdirmək üçün ehtiyatları çatışmaya bilər.
- Kiçik müəssisələr üçün xüsusi əhəmiyyət kəsb edən şəraitlərə bankların və digər kreditorların müəssisəyə dəstəyi dayandırması riski, eləcə də əsas təchizatçının, müştərinin, işçinin və ya lisenziya, françayzinq və ya digər hüquqi müqavilə əsasında fəaliyyət göstərmək hüququnun itirilməsi ehtimalı daxildir.

*Müəssisə və onun mühiti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və müəssisənin daxili nəzarət sistemi barədə anlayışın əldə edilməsi*

Müəssisə və onun mühiti (İst: Paraq. 12(a), 12(c))

A16. Müəssisənin biznes modeli, məqsədləri, strategiyaları və əlaqəli biznes riskləri, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrə və ya şəraitlərə səbəb ola bilər. Bəzi biznes riskləri o qədər əhəmiyyətli ola bilər ki, fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinin məqsədəuyğunluğu və əhəmiyyətli qeyri-müəyyənliyin mövcudluğu barədə nəticəyə təsir göstərə bilər.

Nümunələr:

- Sahədə baş verən dəyişiklikləri araşdırmaq üçün müvafiq işçi heyətindən və ya təcrübədən istifadə etmək imkanının olmaması və ya əhəmiyyətli müştərilərin və ya bazar payının itirilməsi kimi sahədəki yeniliklər.
- Məhsul üzrə məsuliyyətinin artmasına səbəb ola biləcək yeni məhsullar və xidmətlər.
- Müəssisənin təsərrüfat fəaliyyətinin genişlənməsi və tələbatın dəqiq müəyyən edilməməsi.
- Normativ tələblər nəticəsində davamlılıqla əlaqəli məsələlərdən irəli gələnlər də daxil olmaqla, təsərrüfat fəaliyyəti üçün hüquqi risklər və ya maliyyə riskləri və ya məhdudiyyətləri.
- Müəssisənin əvvəlcədən təyin edilmiş müəyyən gəlir göstəricilərinə nail ola bilməməsi səbəbindən maliyyələşmə itkiləri kimi cari və perspektiv maliyyə tələbatları.
- Stimullar və rəhbərliyə qarşı təzyiqlər, bu da rəhbərliyin qərəzliliyinə səbəb ola bilər və buna görə də rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsində istifadə edilən ehtimalların ağlabatanlığına təsir göstərə bilər.

A17. Rəhbərlik, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələri və ya şəraitləri aşkar edərkən, yəqin ki, gələcək haqqında mövcud məlumatlardan, eləcə də daxili və xarici mənbələrdən əldə edilən köhnə məlumatlardan istifadə edir. Daxili və ya xarici mənbələrdən istifadə edilən tədbirlər haqqında anlayışın əldə edilməsi, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin mövcudluğuna dəlalət edən gözlənilməz nəticələri və ya tendensiyaları işıqlandıra bilər.

Nümunələr:

- Fəaliyyətin nəticələrinin daxili qiymətləndirmələri, eyni sahədə fəaliyyət göstərən digər müəssisələrlə müqayisədə satış həcmində qeyri-adi pisləşməyə dəlalət edə bilər ki, bu da bazar payının əhəmiyyətli dərəcədə azalmasına və ya müştəri itkisinə dəlalət edə bilər.
- Qiymətlər haqqında verilənlər, rəqiblər haqqında müqayisə edilə bilən verilənlər (müqayisəli təhlil məlumatları) və ya makroiqtisadi göstəricilərə dair verilənlər kimi kənar verilənlər mənbələri müəssisənin proqnozlarında, gələcək pul vəsaitlərinin hərəkətində və büdcənin hazırlanması proseslərində istifadə olunan rəqabət, sahə, iqtisadi və digər amillərin mövcudluğuna dəlalət edə bilər.

- Analitiklər, kredit agentlikləri və ya institusional investorlar kimi kənar şəxslər tərəfindən müəssisənin maliyyə göstəricilərinin təhlili rəhbərliyin fəaliyyət göstəriciləri ilə uyğunsuzluqları üzə çıxara bilər.

Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri (İst: Paraq. 12(d), 12(e))

A18. Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələbləri haqqında anlayışın əldə edilməsi auditora maliyyə hesabatlarının tətbiq olunan çərçivələrində nəzərdə tutulmuş tanınma, qiymətləndirmə və təqdimat meyarları və maliyyə hesabatlarının onların mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlandığı zaman necə tətbiq olunduğu barədə məlumat verir. Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri, həmçinin rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olub-olmaması barədə nəticə çıxararkən yürütdüyü əhəmiyyətli mühakimələr və etdiyi ehtimallar barədə açıqlanan məlumatlara dair tələbləri də əhatə edə bilər. Qanun və ya qaydalar, həmçinin mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipi əsasında maliyyə hesabatları hazırlanarkən açıqlama və digər ətraflı tələbləri də əhatə edə bilər.

A19. Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsinin xüsusiyyəti, həcmi, müddəti və tezliyi müəssisədən asılı olaraq fərqli ola bilər. Bəzi müəssisələrdə rəhbərlik müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini davamlı monitorinqin bir hissəsi olaraq daha tez-tez qiymətləndirə bilər, digər müəssisələrdə isə bu, illik əsasda aparıla bilər. Bu cür qiymətləndirmə hələ aparılmadığı halda, auditor rəhbərliklə müzakirə aparmaqla və rəhbərliyə müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin aşkar edilib-edilmədiyi barədə sorğu göndərməklə, mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən nəzərdə tutulan istifadə edilməsi üçün həmin prinsip haqqında anlayış əldə edə bilər.

İctimai sektor müəssisələrinə xas olan mülahizələr (İst: Paraq. 12(d), 12(e))

A20. Bəzi yurisdiksiyalarda maliyyə hesabatlarının tətbiq olunan çərçivələri, rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsi ilə əlaqəli olan, ictimai sektor müəssisələri üçün müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli xüsusi təlimatları əhatə edə bilər. Məsələn, bu cür təlimatlarda dövlət proqramlarının fasiləsizliyinin müəyyən ictimai sektor müəssisələri üçün uyğunluğunun nəzərə alınması və bu proqramları həyata keçirmək üçün dövlət xidmətlərinin və əlaqəli dövlət maliyyələşdirməsinin fasiləsizliyi ehtimalının vacibliyi tanına bilər.

Müəssisənin daxili nəzarət sistemi (İst: Paraq. 12(f), 12(h), 12(i))

A21. Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi aşağıdakı kimi olduqda, idarəetməyə məsul şəxslər tərəfindən həyata keçirilən nəzarət haqqında anlayışın əldə edilməsi xüsusilə vacib ola bilər:

- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olub-olmadığını qiymətləndirmək üçün rəhbərlik tərəfindən əhəmiyyətli mühakimələrin yürüdülməsini tələb edir; yaxud
- Məsələn, verilənlərin çoxsaylı mənbələrindən və ya bir-biri ilə mürəkkəb əlaqələri olan ehtimallardan istifadə edilməsi səbəbindən mürəkkəbdir.

A22. İdarəetməyə məsul şəxslər tərəfindən həyata keçirilən nəzarət rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsinin effektivliyinə təsir göstərə bilər. Auditor aşağıdakılar haqqında anlayış əldə etməlidir:

- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirərkən rəhbərliyin istifadə etdiyi metodun uyğunluğu haqqında anlayış əldə etmək üçün idarəetməyə məsul şəxslərin bacarıq və ya biliyə malik olub-olmaması.

- Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsinin maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələblərinə uyğun olaraq aparılıb-aparılmadığı haqqında anlayış əldə etmək üçün idarəetməyə məsul şəxslərin bacarıq və ya biliyə malik olub-olmaması.
- İdarəetməyə məsul şəxslərin rəhbərlikdən asılı olub-olmaması, rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini necə qiymətləndirdiyini vaxtında dəyərləndirmək üçün tələb olunan məlumata və bu tədbirlərin yetərli və ya müvafiq olmadıqda rəhbərliyin hərəkətlərini şübhə altına almaq səlahiyyətinə malik olub-olmaması.
- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirmək üçün rəhbərliyin prosesinə idarəetməyə məsul şəxslər tərəfindən nəzarət edilib-edilməməsi.

A23. Rəhbərliyin müvafiq metodu, əhəmiyyətli ehtimalları və verilənləri necə müəyyən etdiyi haqqında auditorun anlayış əldə etməsi üçün əhəmiyyətli ola biləcək aspektlərə aşağıdakılar daxil ola bilər:

- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirmək üçün istifadə edilən metod, ehtimallar və verilənlərin rəhbərlik tərəfindən hansı prinsip əsasında seçilmişdir; habelə
- Rəhbərlik tərəfindən aşağıdakılar da daxil olmaqla, alternativ metodların, ehtimalların və ya verilənlərin nəzərə alınıb-alınmaması:
    - Rəhbərlik ehtimalların müvafiq və tam olduğunu necə müəyyən edir.
    - Rəhbərlik qiymətləndirmədə istifadə olunan verilənlərin müvafiqliyini, dəqiqliyini və tamlığını necə müəyyən edir.

A24. Rəhbərlik əvvəlki dövrdən sonra müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirmə metodunu dəyişdiyi halda, yeni metodun, məsələn, daha uyğun olub-olmaması, müəssisəyə təsir edən mühitdəki və ya şəraitdəki dəyişikliklərə, yaxud maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin və ya normativ hüquqi bazanın tələblərindəki dəyişikliklərə cavab tədbiri olub-olmaması və ya rəhbərlikdə başqa bir əsaslı səbəbinin olub-olmaması nəzərə alına bilər. Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi metodu rəhbərlik tərəfindən dəyişdirilmədiyi halda, əvvəlki metodun, əhəmiyyətli ehtimalların və verilənlərin davamlı istifadə edilməsinin mövcud mühit və ya şərait baxımından uyğun olub-olmaması nəzərə alına bilər.

A25. Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyəti ilə əlaqəli açıqlamalar başqa köməkçi materiallardan əldə edilən məlumatları, habelə baş kitabdan və köməkçi mühasibat jurnallarından kənar əldə edilən məlumatları (məs., müəssisənin riski idarəetmə sistemi tərəfindən hedcinq strategiyaları haqqında hazırlanmış məlumatlar və ya rəhbərliyin alternativ ehtimalları nəzərdən keçirdiyini nümayiş etdirən maliyyə modellərindən əldə edilən həssaslıq təhlili) ehtiva edə bilər. Müəssisənin daxili nəzarət sistemi haqqında anlayışın əldə edilməsi çərçivəsində auditor rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyəti ilə əlaqəli açıqlamaları hazırlamaq üçün istifadə edilən bu cür məlumatların müvafiqliyini necə müəyyən etdiyini nəzərdən keçirə bilər.

*Auditin bütün mərhələlərində hadisələr və ya şəraitlər barədə məlumatlara xüsusi diqqət yetirilməsi*
(İst: Paraq. 13)

A26. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-da[20] izah edildiyi kimi, müəssisə və onun mühiti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və müəssisənin daxili nəzarət sistemi barədə anlayışın əldə

[20] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, A48 paraqrafı

edilməsi məlumatların toplanması, yenilənməsi və təhlili üçün dinamik və təkrarlanan bir prosesdir və auditin bütün mərhələlərində davam edir. Buna görə də, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin aşkar edilib-edilməməsi ilə bağlı auditorun qərarı yeni məlumatlar əldə edildikcə dəyişə bilər.

> Nümunə:
>
> Auditor, daşınmaz əmlak bazarında qiymətlərin düşməsi nəticəsində daşınmaz əmlakla təmin edilmiş orta müddətli kreditlər verən təşkilat üçün qiymətləndirmə təsdiqləməsi ilə əlaqəli əhəmiyyətli təhrif riskini aşkar edə bilər. Eyni hadisə, ciddi iqtisadi tənəzzül ilə birlikdə baş verdikdə, daha uzunmüddətli nəticələrə və əhəmiyyətli təhrif riskinin qiymətləndirilməsinə daha böyük təsir göstərə bilər ki, bu da müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisə və ya şəraitin mövcudluğuna dəlalət edə bilər.

A27. 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq, auditordan tələb olunur ki, auditorun riskin aşkar edilməsi və ya qiymətləndirilməsi üçün əsas götürdüyü audit sübutları ilə uyğun olmayan yeni məlumat əldə etdiyi təqdirdə, auditorun əhəmiyyətli təhrif risklərini aşkar etməsini və ya qiymətləndirməsini təhlil etsin.[21] Əgər auditor tərəfindən risk müəyyən edildikdən və ya qiymətləndirildikdən sonra müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər aşkar edilərsə, bu BAS-dakı prosedurları yerinə yetirməklə yanaşı, auditor tərəfindən əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və ya qiymətləndirilməsi yenidən nəzərdən keçirilməli ola bilər.

A28. Auditor həmçinin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər barədə aşağıdakı mənbələrdən məlumat əldə edə bilər:

- Kənar məlumat mənbələri (məs., müəssisənin maliyyə göstəriciləri haqqında kənar tərəflərin ictimaiyyətə açıq olan məlumatları, məsələn, səhmlərin qısamüddətli satışı, iqtisadi və ya gəlir proqnozları kimi sahəyə aid və ya makroiqtisadi perspektivlər haqqında məlumatlar).
- Müəssisə üçün yerinə yetirilən digər tapşırıqlar (məs., razılaşdırılmış prosedurlar üzrə tapşırıq).
- Auditorun digər məlumatları 720 saylı (düzəliş edilmiş) BAS-a[22] uyğun olaraq nəzərdən keçirməsi).[22]

*İctimai sektor müəssisələrinə xas olan mülahizələr* (İst: Paraq. 13)

A29. İctimai sektorda bəzi müəssisələrin maliyyə hesabatlarının hazırlanmasından əlavə, ictimaiyyətə hesabatvermə üzrə daha geniş məsuliyyətləri ola bilər ki, bu da auditora müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər barədə məlumat verə bilər. Məsələn, müəyyən yurisdiksiyalarda ictimai sektor müəssisələrindən maliyyə vəziyyətinin uzunmüddətli fiskal dayanıqlığı barədə hesabat vermələri tələb oluna bilər, auditorun isə bu cür məlumatlarla bağlı qanun və ya qaydalarla müəyyən edilmiş əlavə məsuliyyətləri ola bilər. Belə hallarda, auditora müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin mövcudluğuna dəlalət edən uzunmüddətli fiskal dayanıqlıq ilə bağlı problemlər məlum ola bilər.

*Rəhbərlik tərəfindən əvvəllər aşkar edilməmiş və ya açıqlanmamış hadisələr və ya şəraitlər* (İst: Paraq. 14)

A30. Əgər auditor, rəhbərlik tərəfindən aşkar edilməyən və ya auditora açıqlanmayan müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələri və ya

[21] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS, 37-ci paraqraf
[22] 720 saylı (düzəliş edilmiş) "Digər məlumatlar üzrə auditorun məsuliyyəti" BAS

şəraitləri aşkar edərsə, bu, daxili nəzarətlə bağlı çatışmazlıq təşkil edə bilər. 265 saylı BAS[23] auditorun maliyyə hesabatlarının auditində müəyyən etdiyi daxili nəzarətlə bağlı çatışmazlıqlar barədə idarəetməyə məsul şəxslərə və rəhbərliyə müvafiq şəkildə məlumat vermək məsuliyyətindən bəhs edir.

A31. Rəhbərlik tərəfindən müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər aşkar edilmədikdə və ya auditora açıqlanmadıqda, bu, onların tamlığına və dürüstlüyünə şübhə yarada bilər, məsələn, auditor onların aldatmaq niyyətində olduğundan şübhələnə bilər. 240 saylı BAS-da dələduzluq nəticəsində baş verən əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi ilə bağlı əlavə tələblər və təlimat verilir.[24]

*Müəssisənin daxili nəzarət sistemində nəzarətlə bağlı çatışmazlıqlar* (İst: Paraq. 15)

A32. Auditor rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyinin qiymətləndirməsinə aid nəzarət ilə bağlı bir və ya daha çox çatışmazlıq aşkar etdikdə, 265 saylı BAS-a uyğun olaraq auditor daxili nəzarət ilə bağlı çatışmazlıqların ayrılıqda və ya məcmu halında əhəmiyyətli çatışmazlıq təşkil edib-etmədiyini müəyyən etməlidir. Auditorun rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsiziyinin qiymətləndirməsi ilə əlaqəli daxili nəzarətdə əhəmiyyətli çatışmazlığın olub-olmadığını müəyyən edərkən nəzərə ala biləcəyi məsələlərə aşağıdakılar daxil ola bilər:

- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələri və ya şəraitləri aşkar etmək, qiymətləndirmək və aradan qaldırmaq üçün prosesin rəhbərlik tərəfindən müəyyən edilməməsi.
- İdarəetməyə məsul şəxslər tərəfindən rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsinə effektiv nəzarətin olmaması.
- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin rəhbərlik tərəfindən aşkar edilməməsinə və ya açıqlanmamasına dair sübutlar.

**Rəhbərliyin qiymətləndirməsinin dəyərləndirilməsi**

*Rəhbərlikdən qiymətləndirmə aparmasının tələb edilməsi* (İst: Paraq. 16)

A33. Rəhbərlik, maliyyə hesabatlarının çərçivələrində açıq şəkildə tələb olunmasa belə, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirmək istəmədikdə, auditor rəhbərliyin qiymətləndirməsinin olmamasını auditorun əldə etdiyi audit sübutlarının məhdudlaşdırılması hesab edə bilər. 705 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq, yetərli müvafiq audit sübutları əldə edə bilməməyin maliyyə hesabatlarına mümkün təsirləri nüfuzedici olduqda, auditor rəy verməkdən imtina edir.

*Rəhbərliyin qiymətləndirməsi və əsaslandırıcı təhlili və auditorun dəyərləndirməsi* (İst: Paraq. 17)

A34. Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsi auditorun aşağıdakıların dəyərləndirməsinin əsas hissəsidir:

- Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğu; habelə
- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin mövcudluğu.

A35. Rəhbərliyin apardığı təhlildəki çatışmazlığı düzəltmək auditorun məsuliyyəti deyil. Bununla belə, bəzi hallarda, rəhbərliyin öz qiymətləndirməsini əsaslandırmaq üçün apardığı müfəssəl təhlilin yetərsizliyi

[23] 265 saylı "Daxili nəzarətlə bağlı çatışmazlıqların idarəetməyə məsul şəxslərə və rəhbərliyə bildirilməsi" BAS
[24] 240 saylı BAS, 26-28-ci paraqraflar

auditorun bu vəziyyətdə rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğu barədə nəticə çıxarmasına mane ola bilməz. Məsələn, müəssisə mənfəətli əməliyyatlar apardıqda və likvidlik problemi olmadıqda, habelə müəssisənin riski qiymətləndirmə prosesi nəticəsində müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər aşkar edilmədikdə, rəhbərlik tərəfindən öz qiymətləndirməsini aparmaq üçün istifadə edilən metod, ehtimallar və verilənlər çox müfəssəl olmaya bilər. Bununla belə, auditorun peşəkar mühakiməsinə əsasən, rəhbərliyin müəssisənin xüsusiyyəti və şəraiti əsasında müvafiq qiymətləndirmə aparmadığı hallarda, bu, 265 saylı BAS-a uyğun olaraq daxili nəzarət ilə bağlı çatışmazlığın mövcudluğuna dəlalət edə bilər.

*İctimai sektor müəssisələrinə xas olan mülahizələr* (İst: Paraq. 17)

A36. Dövlət yardımından yararlana bilən bəzi ictimai sektor müəssisələri üçün rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini qiymətləndirməsi həmişə ödəmə qabiliyyəti və ya likvidlik testlərinə əsaslanmaya bilər və auditor müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini dəyərləndirdikdə digər amillər daha əhəmiyyətli ola bilər. Məsələn, qiymətləndirmə dövründə dövlət siyasətində dəyişikliyin olmaması, iş fəaliyyətinin normal gedişatında müəssisənin aktivlərini reallaşdırması və öhdəliklərini yerinə yetirməsi, habelə yaxın gələcəkdə əməliyyatlarını davam etdirməsi üçün davamlı maliyyələşdirmənin təmin olunması ehtimalını müəyyən edərkən daha əhəmiyyətli ola bilər.

*Audit sübutlarının qərəzsiz şəkildə əldə edilməsi* (İst: Paraq. 18)

A37. Audit sübutlarının qərəzsiz şəkildə əldə edilməsi, müəssisə daxilində və xaricində müxtəlif mənbələrdən sübutların əldə edilməsindən ibarət ola bilər. Bununla belə, auditordan audit sübutları kimi istifadə ediləcək bütün mümkün məlumat mənbələrini müəyyən etmək məqsədilə hərtərəfli axtarış aparmaq tələb olunmur.

Nümunələr:

Ziddiyyətli məlumatlar aşağıdakıları əhatə edə bilər:

- Rəhbərliyin pul vəsaitlərinin hərəkəti proqnozunda istifadə etdiyi ehtimalları dəyərləndirmək üçün auditor tərəfindən yerinə yetirilən prosedurların nəticələri, təxirə salınmış vergi aktivlərinin bərpa olunma qabiliyyətini və ya aktivlərin dəyərsizləşməsini dəyərləndirmək üçün istifadə edilən proqnozlar kimi digər məqsədlər üçün istifadə edilən ehtimallarla uyğunsuzluqları üzə çıxarır.
- Kredit tarixçəsi haqqında kənar mənbələrdən alınan məlumatlar debitor borclarının qalıqlarının bərpa olunma qabiliyyətini qiymətləndirərkən rəhbərlik tərəfindən nəzərə alınmayan əhəmiyyətli müştəri(lər) üçün maliyyə çətinliklərinin mövcudluğuna dəlalət edə bilər.
- Digər hesab qalıqları üçün aparılan təhlilin nəticəsi, müəssisənin fəaliyyətinin fasiləsizliyini qiymətləndirərkən rəhbərlik tərəfindən lazımi qaydada nəzərə alınmayan maliyyə göstəricilərinin pisləşdiyini (məs., inventarın köhnəlməsinin artması, müştərilər tərəfindən ödənişlərin gecikdirilməsi, müştəri bazasında dəyişikliklər, borc almanın artması və ya kreditorlara ödənişlərin gecikdirilməsi) bildirir.

Təsdiqləyici məlumatlar aşağıdakıları ehtiva edə bilər:

- Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyinin qiymətləndirməsində istifadə etdiyi proqnozlar və ehtimallara uyğun gələn analitiklərin gözləntiləri və ya sahəyə aid verilənlər kimi kənar mənbələrdən ictimaiyyətə açıq məlumatlar.

*Rəhbərliyin qiymətləndirməsində istifadə edilən metod, əhəmiyyətli ehtimallar və verilənlər* (İst: Paraq. 19)

A38. Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsində istifadə etdiyi metod, əhəmiyyətli ehtimallar və verilənlər, maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinin məqsədəuyğunluğu və əhəmiyyətli qeyri-müəyyənliyin mövcudluğu barədə rəhbərliyin yürütdüyü mühakimələri əsaslandırır.

Metod (İst: Paraq. 19(a))

A39. “Metod” rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirmək üçün tətbiq etdiyi yanaşmaya aiddir. Metod keyfiyyət və ya kəmiyyət ilə bağlı məlumatlardan istifadəyə əsaslana bilər və ehtimalların və verilənlərin tətbiq edilməsini, eləcə də onlar arasında bir sıra əlaqələrin nəzərə alınmasını əhatə edir.

Nümunələr:

- Müəssisənin təsərrüfat fəaliyyəti daha mürəkkəb olduqda və ya müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli qeyri-müəyyənliklərin təsirinə daha çox məruz qaldıqda, rəhbərliyin istifadə etdiyi metod bir neçə mənbədən əldə edilən tarixi və gələcək dövrlərə aid verilənlərin daxil edilməsini tələb edə bilər. Bu metod həmçinin aralarında çoxsaylı qarşılıqlı əlaqələri olan və ya verilənlərin müəssisədən kənar mənbələrindən əldə edilən əhəmiyyətli mühakimələri və ehtimalları əhatə edə bilər. Əsaslandırıcı təhlil mənfi ssenarilərin təsirlərini əhatə edə bilər və ya müəssisənin cari və gözlənilən gəlirliliyi, likvidlik mənbələri, maliyyə öhdəlikləri və müəssisənin əməliyyatlarını yaxın gələcəkdə davam etdirmək üçün lazım olan vəsaitlərlə bağlı alternativ nəticələri nəzərdən keçirmək üçün həssaslıq və ssenari təhlilindən istifadə edə bilər. Əsaslandırıcı təhlil həmçinin likvidlik, bazar və kredit risklərinə təsir edən riskə aid dəyişənlər arasındakı qarşılıqlı asılılıqları əks etdirə bilər.
- Müəssisənin təsərrüfat fəaliyyəti sadə olduqda və ya müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli qeyri-müəyyənliklər təsərrüfat fəaliyyətinə daha az dərəcədə təsir etdikdə, rəhbərlik qərara gələ bilər ki, ən uyğun metod müvafiq qiymətləndirmə dövrünü əhatə edən pul vəsaitlərinin hərəkətinin sadə proqnozunu və büdcəsini və ya digər ekvivalent təhlili hazırlamaqdır.

A40. Seçilmiş metodun maliyyə hesabatlarının tətbiq olunan çərçivələri baxımından uyğun olub-olmaması və müvafiq hallarda, əvvəlki dövrdən sonra edilən dəyişikliklərin uyğun olub-olmaması ilə bağlı auditorun qiymətləndirməsinə aid olan məsələlərə aşağıdakılar daxil ola bilər:

- Metodun seçilməsinin rəhbərlik tərəfindən əsaslandırılmasının müvafiq olub-olmaması;
- Rəhbərlik müxtəlif metodların əhəmiyyətli dərəcədə fərqli nəticələrə səbəb olduğunu müəyyən etdikdə, bu fərqlərin səbəblərinin rəhbərlik tərəfindən necə araşdırılması; habelə
- Dəyişikliklərin yeni şəraitə və ya yeni məlumatlara əsaslanıb-əsaslanmaması. Bu baş vermədikdə, dəyişikliklər ağlabatan olmaya bilər və ya rəhbərliyin mümkün qərəzliliyinin göstəricisi ola bilər (həmçinin bax: A68–A71 paraqrafları).

A41. Hesablamaların riyazi baxımdan düzgün olub-olmadığının auditor tərəfindən dəyərləndirilməsi ilə əlaqəli ola bilən məsələlərə rəhbərliyin mükəmməl və ya mürəkkəb hesablamalar və ya emal addımları (məs., çoxsaylı düsturlar və ya makrolar) üçün yetərli izahatlar verib-verməməsi daxil ola bilər.

Əhəmiyyətli ehtimallar (İst: Paraq. 19(b))

A42. Rəhbərliyin qiymətləndirməsinin əsaslandığı əhəmiyyətli ehtimallarla bağlı auditorun dəyərləndirməsi üçün mülahizələr aşağıdakıları ehtiva edə bilər:

- Ehtimalların seçilməsinin rəhbərlik tərəfindən əsaslandırılması;
- İstifadə edilən ehtimalların müəssisənin təsərrüfat fəaliyyətinin digər sahələrində, məsələn, biznes perspektivləri, strategiya sənədlərindəki ehtimallar və uçot qiymətləndirmələrinin aparılmasında istifadə edilən ehtimallar ilə uyğun olub-olmaması;
- Əvvəlki dövrdə rəhbərlik tərəfindən istifadə edilən ehtimalların, məsələn, əvvəlki ildəki ehtimalları cari ilin faktiki nəticələri ilə müqayisə etməklə əsaslı olub-olmaması.
- Qiymətləndirmə aparılan zaman rəhbərliyin istifadə olunan verilənlərə ehtimallardakı dəyişikliklərin təsirini müəyyən etmək üçün rəhbərlik tərəfindən alternativ ehtimalların nəzərdən keçirib-keçirməməsi, məsələn, "pessimist" və "optimist" ssenariləri əhatə edən həssaslıq təhlilinin aparılması; habelə
- Ehtimalların seçilməsində əvvəlki dövrlərdən sonra baş vermiş dəyişikliyin yeni şəraitə və ya yeni məlumatlara əsaslanıb-əsaslanmaması. Bu baş verMədikdə, dəyişiklik ağlabatan olmaya bilər və ya rəhbərliyin mümkün qərəzliliyinin mövcudluğuna dəlalət edə bilər (həmçinin bax: A68–A71 paraqrafları).

> Nümunə:
>
> Avtomatlaşdırılmış alət və üsullardan istifadə edilməsi, rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyinin qiymətləndirməsinin həssaslıq təhlilini apararkən auditora endirim və ya artım sürəti kimi daxil edilən dəyişənlərdə baş verən dəyişikliklərin nəticələrə necə təsir etdiyi haqqında anlayış əldə etməyə kömək edə bilər.

Verilənlər (İst: Paraq. 19(c))

A43. Verilənlərin müvafiq və etibarlı olub-olmadığına dair auditorun qiymətləndirməsi ilə əlaqəli ola biləcək məsələlərə, məsələn, verilənlərin seçilməsi üçün rəhbərliyin əsaslandırması, rəhbərliyin verilənlərin uyğun olub-olmadığını necə qiymətləndirdiyi, verilənlərin mənbəyi və ya məlumatların emalının bütün mərhələlərində verilənlərin bütövlüyünün qorunub saxlanılıb-saxlanılmadığı və necə qorunub saxlanıldığı daxil ola bilər.

A44. Müəssisə tərəfindən təqdim edilən məlumatlardan istifadə edərkən, 500 saylı BAS-a[25] uyğun olaraq, auditordan məlumatın auditorun məqsədləri üçün kifayət qədər etibarlı olub-olmadığını dəyərləndirmək, o cümlədən mövcud şəraitdə zəruri olduqda məlumatın dəqiqliyi və tamlığı barədə audit sübutları əldə etmək və məlumatın auditorun məqsədləri üçün kifayət qədər dəqiq və ətraflı olub-olmadığını dəyərləndirmək tələb olunur.

A45. Verilənlərin maliyyə hesabatlarının tətbiq olunan çərçivələri baxımından uyğun olub-olmamasını və müvafiq hallarda, əvvəlki dövrdən sonra edilən dəyişikliklərin uyğun olub-olmamasını dəyərləndirərkən auditor aşağıdakıları nəzərə ala bilər:

- İstifadə edilən verilənlər rəhbərliyin maliyyə hesabatlarının hazırlanmasında başqa yerlərdə istifadə etdiyi verilənlərlə uyğundurmu;
- Verilənlərdə edilən dəyişikliklər məqsədəuyğundurmu və rəhbərlik tərəfindən əsaslandırılmışdırmı; habelə
  - Seçilmiş verilənlərin mənbələrində və ya maddələrində əvvəlki dövrlərdən sonra dəyişiklik yeni şəraitlər və ya yeni məlumat əsasında edilmişdirmi. Belə olmadıqda, dəyişiklik ağlabatan olmaya bilər və ya rəhbərliyin mümkün qərəzliliyinə dəlalət edə bilər (həmçinin bax: A68–A71paraqrafları).

Uyğunlaşdırılma (İst: Paraq. 19)

[25] 500 saylı "Audit sübutları" BAS, 9-cu paraqraf

A46. Auditorun yerinə yetirdiyi prosedurların xüsusiyyəti və həcmi, rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə qiymətləndirmək üçün istifadə etdiyi metoddan, əhəmiyyətli ehtimallardan və verilənlərdən, eləcə də müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin xüsusiyyətindən və şəraitlərindən asılı olaraq dəyişə bilər.

Nümunələr:

Metod

- Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirmək üçün istifadə etdiyi metod nə qədər mürəkkəb olarsa, rəhbərliyin qiymətləndirmə apararkən ixtisaslaşmış bacarıq və ya biliklərdən istifadə etməli olma ehtimalı bir o qədər yüksəkdir. Həmçinin, rəhbərliyin metodunu qiymətləndirmək üçün auditorun yerinə yetirdiyi prosedurların daha geniş olacağı ehtimal edilir. Belə hallarda, audit prosedurlarını tətbiq etməkdə və ya həmin prosedurların nəticələrini dəyərləndirməkdə auditora kömək etmək üçün ixtisaslaşmış bacarıq və ya biliklərə malik tapşırıq qrupunun üzvlərini cəlb etmək də məqsədəuyğun ola bilər.
- Bunun əksinə olaraq, rəhbərliyin metodu daha sadə olduqda, məsələn, istifadə olunan metod sadə büdcə, satış və ya pul vəsaitlərinin hərəkətinin proqnozu və müəssisənin borcalma imkanları və tələblərinin təhlilini əhatə etdikdə, auditorun yerinə yetirdiyi prosedurlar çox geniş olmaya bilər.

Əhəmiyyətli ehtimallar

- Rəhbərlik tərəfindən istifadə edilən ehtimallara yüksək səviyyədə subyektivlik xas olduqda (məs., müəssisənin struktur vahidlərinin gələcək restrukturizasiyası üçün müəssisədaxili hazırlanmış planlara əsaslanan ehtimallar), auditorun yerinə yetirdiyi prosedurlar daha geniş ola bilər və gələcəyə yönəlmiş ehtimalların nəzərdən keçirilməsini əhatə edə bilər.
- Bunun əksinə olaraq, rəhbərlik digər bazar iştirakçıları tərəfindən geniş istifadə edilən ehtimallardan istifadə etdikdə, rəhbərlik tərəfindən istifadə edilən ehtimalları dəyərləndirmək üçün auditorun yerinə yetirdiyi prosedurlar çox geniş olmaya bilər və auditor tərəfindən ehtimalların birbaşa bazardan və ya üçüncü tərəfdən əldə edilən ehtimallarla müqayisə edilməsini əhatə edə bilər.

Verilənlər

- Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini qiymətləndirməsi bir neçə mənbədən çoxlu miqdarda verilənləri əhatə etdikdə, istifadə olunan verilənlərin etibarlılığının qiymətləndirilməsinə mürəkkəblik xas ola bilər və auditor yerinə yetirdiyi prosedurlarda rəhbərlik tərəfindən istifadə edilən verilənlərin etibarlılığını dəyərləndirmək üçün avtomatlaşdırılmış alətlər və üsullardan istifadə edə bilər.
- Bunun əksinə olaraq, verilənlərin mənbəyi nüfuzlu kənar məlumat mənbəyindən (məs., mərkəzi bankdan və ya nüfuzlu, hörmətli mənbələrdən təqdim edilən statistik hesabatlardan) əldə edildikdə, məlumatın etibarlılığını nəzərdən keçirmək üçün auditorun yerinə yetirdiyi prosedurlar o qədər də geniş olmaya bilər.

*Rəhbərliyin qiymətləndirməsindən kənar dövr* (İst: Paraq. 20)

A47. Auditor rəhbərliyin qiymətləndirməsi ilə əhatə edilmiş dövrdən kənar baş verəcək maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadənin məqsədəuyğunluğuna şübhə altına ala bilən planlaşdırılmış və ya digər məlum hadisələrin və ya şəraitlərin mümkün mövcudluğuna diqqət yetirir. Hadisə və ya vəziyyətin nəticəsi ilə əlaqəli qeyri-müəyyənlik dərəcəsi, hadisə və ya vəziyyət daha uzaq gələcək dövrə aid olduqca artır.

A48. Rəhbərliyin sorğu göndərilməsi istisna olmaqla, auditorun, rəhbərlik tərəfindən qiymətləndirilmiş dövrdən kənar müəssisənin fəaliyyətinin fasiləsizliyin davam etdirmək qabiliyyətinə ciddi şübhə altına

ala bilən hadisələri və ya şəraitləri aşkar etmək üçün hər hansı digər audit prosedurlarını yerinə yetirmək məsuliyyəti yoxdur, çünki bu müddət, 21-ci paraqrafın tələbinə uyğun olaraq, maliyyə hesabatlarının təsdiq edildiyi tarixdən ən azı on iki ay keçməlidir.

A49. Rəhbərliyin qiymətləndirməsindən kənar dövrdə hadisələr və ya şəraitlər aşkar edildikdə, bu cür hadisələrin və ya şəraitlərin xüsusiyyətindən və şəraitindən asılı olaraq, auditor rəhbərlikdən qiymətləndirmə dövrünü yenidən nəzərdən keçirməyi, məsələn, maliyyə hesabatlarının təsdiq edildiyi tarixdən etibarən onu on iki aydan çox uzatmağı tələb edə bilər.

*Rəhbərlikdən qiymətləndirmə dövrünü uzatmağı tələb etmək* (İst: Paraq. 21)

A50. Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli rəhbərliyin açıq qiymətləndirməsini tələb edən maliyyə hesabatlarının çərçivələrinin əksəriyyəti rəhbərliyin bütün mövcud məlumatları nəzərə alması üçün tələb olunan minimum müddəti müəyyən edir.[26] 21-ci paraqrafa uyğun olaraq, maliyyə hesabatlarının təsdiq edildiyi tarixdən etibarən on iki aydan az müddət keçərsə, auditor rəhbərlikdən qiymətləndirmə müddətini uzatmağı tələb etməlidir. Bu tələb həmçinin maliyyə hesabatlarının tətbiq olunan çərçivələrində rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsi ilə əhatə olunacaq müddət qeyd olunmadıqda da tətbiq olunur.

A51. BAS-ların məqsədləri üçün maliyyə hesabatlarının təsdiq edilməsi tarixi maliyyə hesabatlarını, o cümlədən əlaqəli qeydləri təşkil edən bütün hesabatların hazırlandığı və müvafiq səlahiyyətə malik şəxslərin həmin maliyyə hesabatları üzrə məsuliyyəti öz üzərilərinə götürmüş olduqlarını təsdiqlədikləri tarixdir.[27] Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrində "maliyyə hesabatlarının təsdiq edilməsi tarixi"ni təsvir etmək üçün digər terminlərdən istifadə edilə bilər.[28]

A52. Auditor həmçinin 21-ci paraqrafdakı tələbə əməl etməkdə özünə kömək etmək üçün auditin ilkin mərhələsində rəhbərliklə maliyyə hesabatlarının təsdiq edilməsinin gözlənilən tarixini müzakirə etmək istəyə bilər. Anlaşılmazlıqların qarşısını almaq üçün auditor həmçinin məktub-sazişində rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsinin maliyyə hesabatlarının təsdiq edildiyi tarixdən sonra ən azı on iki ayı əhatə edəcəyi ehtimalına istinad edə bilər.[29]

A53. Bəzi müəssisələr, məsələn, davamlı dövlət maliyyələşdirməsindən asılı olan dövlət sektoru müəssisələri, adətən hökumətlərin illik büdcə dövründən kənar müddət üzrə maliyyələşdirmədən əmin olmurlar. Buna görə də rəhbərlik davamlı maliyyələşdirmənin təmin edilməsi ilə bağlı ehtimallar irəli sürməlidir ki, rəhbərliyin qiymətləndirməsi maliyyə hesabatlarının təsdiq edildiyi tarixdən etibarən ən azı on iki aylıq müddəti əhatə etsin. Belə hallarda hökumət siyasətində dəyişiklik barədə məlumatın olmaması auditorun həmin ehtimalların uyğunluğunu qiymətləndirməsi üçün əhəmiyyətli ola bilər.

*Rəhbərliyin öz qiymətləndirməsini genişləndirmək istəməməsi* (İst: Paraq. 22–23)

A54. Rəhbərliyin qiymətləndirməsini genişləndirmək istəməməsi, auditorun maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğu barədə əldə etməyə çalışdığı audit sübutlarına məhdudiyyət yarada bilər. Müvafiq olaraq, auditor bu məsələni rəhbərliklə və lazım olduqda idarəetməyə məsul şəxslərlə müzakirə etməli və rəhbərliyin qərarının səbəblərini soruşmalıdır.

[26] Məsələn, 1 saylı MUBS-da bu müddətin hesabat dövrü bitən tarixdən sonra ən azı on iki ay olduğu, lakin bununla məhdudlaşmadığı müəyyən edilir, 1 saylı IPSAS-da isə bu müddətin maliyyə hesabatlarının təsdiqləndiyi tarixdən sonra ən azı on iki ay olduğu, lakin bununla məhdudlaşmadığı müəyyən edilir.

[27] 560 saylı BAS, 5(b) paraqrafı

[28] Məsələn, 10 saylı "Hesabat dövründən sonrakı hadisələr" MUBS-da "maliyyə hesabatlarının dərc olunmaq üçün təsdiq edildiyi tarix" terminindən istifadə edilir və bu tarixin rəhbərliyin strukturundan, maliyyə hesabatlarının hazırlanması və yekunlaşdırılması zamanı riayət edilən qanunların tələblərindən və tətbiq olunan prosedurlardan asılı olaraq dəyişəcəyini izah olunur.

[29] 210 sylı "Audit tapşırıqlarının şərtlərinin razılaşdırılması" BAS, A24 paraqrafı

A55. Rəhbərlik qiymətləndirmə müddətini uzatmamağı seçdikdə, rəhbərlik və idarəetməyə məsul şəxslər maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğunu əsaslandırmaq üçün əlavə məlumat təqdim edə bilərlər. Məsələn, bu, müəssisənin gəlirli əməliyyatları olduğu və likvidlik problemi olmadığı, rəhbərlik və ya idarəetməyə məsul şəxslərin isə seçdikləri qiymətləndirmə müddətindən kənar əhəmiyyətli şübhə yarada bilən hər hansı bir hadisə və ya şərait aşkar etmədiyi hallar ola bilər.

A56. Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilmə müddətini maliyyə hesabatlarının təsdiq edildiyi tarixdən sonra ən azı on iki aya qədər uzatmaq üçün rəhbərliyin istifadə etdiyi prosesin təfərrüatlılıq səviyyəsi və rəsmiliyi müəssisədən müəssisəyə dəyişə bilər. Bəzi müəssisələrdə rəhbərlik, davamlı monitorinqin bir hissəsi olaraq, ətraflı təhlillə dəstəklənən müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsini daha tez hazırlaya bilər. Digər hallarda isə rəhbərlik öz qiymətləndirməsini maliyyə hesabatlarının tarixindən maliyyə hesabatlarının təsdiq edildiyi tarixə qədər daha az rəsmi üsullarla yeniləyə bilər. A35 paraqrafında izah edildiyi kimi, rəhbərliyin öz qiymətləndirməsini əsaslandırmaq üçün apardığı çox geniş olmayan təhlil auditorun rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin mövcud şəraitdə məqsədəuyğunluğu barədə nəticə çıxarmasına mane ola bilməz.

A57. Auditor rəhbərliyin qiymətləndirmə müddətini uzatmamaq qərarı nəticəsində maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğunu əsaslandıran yetərli müvafiq audit sübutları əldə edə bilmədiyi halda, auditor aşağıdakıların məqsədəuyğun olduğu qənaətinə gələ bilər:

- Əhəmiyyətli təhrif risklərinin qiymətləndirilməsini yenidən nəzərdən keçirmək və planlaşdırılmış audit prosedurlarını 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS-a[30] uyğun olaraq dəyişiklik etmək. Məsələn, rəhbərliyin qərarı bu şəraitdə ağlabatan deyilsə, bu, 240 saylı BAS-a uyğun olaraq dəyərləndirmə tələb edən dələduzluq riski amilinin mövcudluğuna dəlalət edə bilər.
- Rəhbərliyin qiymətləndirməsini genişləndirmək istəməməsini auditorun əldə etdiyi audit sübutlarına məhdudiyyətin qoyulması kimi nəzərə almaq. 705 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq, yetərli müvafiq audit sübutları əldə edə bilməməyin maliyyə hesabatlarına mümkün təsirləri nüfuzedici olduqda, auditor rəy verməkdən imtina edir.

*Rəhbərliyin qiymətləndirməsində istifadə edilən məlumatlar* (İst: Paraq. 25)

A58. 20, A27, A30–A31 və A66 paraqraflarında auditorun rəhbərlikdən qiymətləndirməsini yenidən nəzərdən keçirməsini tələb etməsi zəruri ola biləcəyi hallarda müvafiq şəraitlər təsvir olunur.

**Rəhbərliyin gələcək tədbirlər planlarının dəyərləndirilməsi** (İst: Paraq. 26–28)

A59. Rəhbərliyin gələcək tədbirlər planları, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən aşkar edilmiş hadisələrin və ya şəraitlərin əhəmiyyətini azalda bilər. Gələcək tədbirlər üçün bu cür planlar aktivlərin likvidləşdirilməsi, pul vəsaitlərinin borc alınması və ya borcun restrukturizasiyası, xərclərin azaldılması və ya təxirə salınması, yaxud kapitalın artırılması planları daxil ola bilər.

| Nümunələr: |
| --- |
| • Müəssisənin öz borclarını normal şəkildə ödəyə bilməməsi riski, rəhbərliyin aktivlərin satılması, kreditlərin ödənişi cədvəllərinin yenidən tərtib edilməsi və ya əlavə kapitalın cəlb edilməsi kimi |

[30] ~~315 saylı (2019-cu ildə düzəliş edilmiş), 37-ci paraqraf~~

alternativ mənbələrdən müvafiq pul vəsaitlərinin hərəkətini təmin etmək planları ilə kompensasiya edilə bilər.
- Əsas təchizatçının itirilməsinin nəticələri rəhbərliyin münasib alternativ təchizat mənbəyi təmin etmək üçün gördüyü tədbirlərlə yüngülləşdirilə bilər.

A60. Rəhbərliyin niyyəti və qabiliyyəti ilə bağlı əldə ediləcək audit sübutlarının xüsusiyyəti və həcmini müəyyən etmək üçün peşəkar mühakimə yürüdülməlidir. Rəhbərliyin gələcək tədbirlər planlarını dəyərləndirmək üçün auditorun yerinə yetirdiyi prosedurlara aşağıdakılar daxil ola bilər:

- Müəyyən fəaliyyət planının səbəbləri barədə rəhbərliyə sorğunun göndərilməsi.
- Müəssisənin iqtisadi vəziyyəti, o cümlədən onun mövcud öhdəliklərinin və rəhbərliyin hərəkətlərinin mümkünlüyünə təsir göstərə biləcək hüquqi, normativ və ya müqavilə üzrə məhdudiyyətlərinin nəticələri nəzərə alınmaqla müəyyən fəaliyyət planını həyata keçirmək qabiliyyəti ilə bağlı rəhbərliyə göndərilən sorğulara verilən cavabların dəyərləndirilməsi.
- Rəhbərliyə və ya idarəetməyə məsul şəxslərə göndərilən sorğulara verilən cavabların müəssisə daxilində və ya xaricində mənbələrdən alınan audit sübutları ilə dəyərləndirilməsi.
- Rəhbərliyin bəyan edilmiş niyyətlərini həyata keçirmə tarixçəsi haqqında məlumatların yoxlanılması.
- Yazılı planların və digər sənədlərin, o cümlədən, müvafiq hallarda, rəsmi olaraq təsdiq edilmiş büdcələrin, icazələrin və ya protokolların yoxlanılması.
- Aktivlərin planlaşdırılan satışını əsaslandıran qeydlərin və sənədlərin yoxlanılması.
- Tənzimləyici tədbirlər barədə hesabatların yoxlanılması.
- Rəhbərliyin gələcək tədbirləri görmək planlarının mümkünlüyünə təsir göstərə biləcək kreditorlar və maliyyə təminatçıları ilə yazışmaların yoxlanılması.
- Rəhbərliyin planlarındakı əhəmiyyətli ehtimalların digər mühasibat uçotu qiymətləndirmələrində istifadə edilən ehtimallar və ya müəssisənin biznes fəaliyyətinin digər sahələrində istifadə edilən əlaqəli ehtimallar ilə uyğunluğunun dəyərləndirilməsi,
- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini zəifldən və ya başqa şəkildə təsir göstərən hadisələri müəyyən etmək məqsədilə maliyyə hesabatlarının tarixindən sonra və auditor hesabatının tarixinə qədər baş verən hadisələrin təhlil edilməsi.
- Müəssisənin sahibkar-rəhbəri də daxil olmaqla, üçüncü şəxslər və ya əlaqəli tərəflər ilə maddi dəstəyin təmin edilməsi və ya davam etdirilməsi barədə müqavilələrin mövcudluğunun, qanuniliyinin və icrasının mümkünlüyünün təsdiq edilməsi və həmin tərəflərin əlavə vəsait təmin etmək üçün maliyyə imkanlarının qiymətləndirilməsi.

  Proqnoz maliyyə məlumatları müvafiq olduqda, aşağıdakıları müqayisə etməklə analitik prosedurların yerinə yetirilməsi:

  - Yaxın tarixi dövrlər üzrə proqnoz maliyyə məlumatları ilə həmin dövrlərin faktiki nəticələri; habelə
    - Qiymətləndirmə tarixinə olan nəticələrlə cari dövr üzrə proqnoz maliyyə məlumatları.
  - Rəhbərliyin gələcək tədbirlər planları daxili mənbələrdən alınan məlumatlara əsaslandıqda müəssisədən kənar nüfuzlu müstəqil mənbələrdən alınan məlumatlarla müqayisə edilməsi.

A61. Müəyyən hallarda auditor müəssisə ilə xarici maliyyə təminatçıları arasında borc alma imkanlarının mövcudluğu və şərtləri ilə bağlı kənar təsdiqləmə[31] tələb etməyi nəzərdən keçirə bilər.

Nümunələr:

[31] 330 saylı "Qiymətləndirilmiş risklərə qarşı auditorların cavab tədbirləri" BAS, 19-cu paraqraf

Kənar təsdiqləmə tələb etmək aşağıdakı hallarda məqsədəuyğun ola bilər:

- Qiymətləndirmə dövründə borcalma imkanları yenilənir.
- Müəssisənin fəaliyyətini davam etdirmək üçün tələb olunanlardan əlavə mövcud olan maliyyə resursları məhduddur.
- Müəssisə, məsələn, maliyyə hesabatlarının təsdiq edildiyi tarixdən etibarən on iki ay ərzində, tezliklə yenilənməsi gözlənilən borcalma imkanlarından asılıdır.
- Borcalma imkanlarının əvvəlki yenilənməsinin çətinliklə razılaşdırıldığına və ya kreditorun maliyyələşdirmənin davam etdirilməsi üçün ilkin şərt kimi əlavə şərtlər tətbiq etdiyinə dəlalət edən əlamət mövcuddur.
- Proqnozlaşdırılan pul vəsaitlərinin hərəkətində əhəmiyyətli dərəcədə pisləşmə mövcuddur.
- Borcalma üçün təminat kimi verilən aktivlərin dəyəri azalır.
- Müəssisə borc müqavilələrinin şərtlərini pozub və ya mümkün pozuntu əlamətləri mövcuddur.

A62. Bəzi maliyyə təminatçıları borcalma imkanlarının yenilənəcəyini yazılı şəkildə müəssisəyə və ya onların auditoruna təsdiqləməkdə tərəddüd edə bilərlər. Rəhbərliyin gələcək tədbirlər planları kənar maliyyə təminatçılarından borcalma imkanlarının davam etdirilməsi və ya təmin edilməsi üzrə razılaşmalara əsaslandıqda, kənar təsdiqləmənin olmaması auditorun əldə etməyə çalışdığı audit sübutlarına məhdudiyyət yarada bilər. Belə hallarda, auditor borc alma imkanları, o cümlədən borcalma imkanlarının yenilənəcəyini yazılı şəkildə təsdiqləməkdə tərəddüd etmələrinin səbəbi və bu əsaslandırmanın müəssisənin şəraitinə xas olub-olmadığı barədə məlumat ilə bağlı kənar maliyyə təminatçılarına sorğu göndərməyi nəzərdən keçirə bilər. Auditor həmçinin rəhbərlikdən müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən aşkar edilmiş hadisələrin və ya şəraitlərin əhəmiyyətliliyini azalda bilən alternativ strategiyaların və ya maliyyələşdirmə mənbələrinin olub-olmadığı barədə sorğu göndərməli ola bilər. Alternativ strategiyalar və ya maliyyələşdirmə mənbələri mövcud olmadıqda, əhəmiyyətli qeyri-müəyyənlik mövcud ola bilər.

*Üçüncü şəxslərin və ya əlaqəli tərəflərin, o cümlədən sahibkar-rəhbərin maliyyə dəstəyi*

Niyyət (İst: Paraq. 28)

A63. Rəhbərliyin gələcək tədbirlər planları kreditlərin subordinasiyası, maliyyələşdirmənin davam etdirilməsi və ya əlavə maliyyələşdirmənin təmin edilməsi üzrə öhdəliklər və ya zəmanətlər vasitəsilə üçüncü şəxslər və ya əlaqəli tərəflər, o cümlədən müəssisənin sahibkar-rəhbəri tərəfindən maliyyə dəstəyi ehtiva etdikdə və bu cür maliyyə dəstəyi müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyəti üçün vacib olduqda, auditor lazımi maliyyə dəstəyi göstərmək niyyətləri barədə kifayət qədər müvafiq audit sübutları əldə etmək üçün belə tərəflərdən yazılı təsdiq tələb etməyi nəzərdən keçirə bilər. Belə yazılı təsdiq kağız şəklində, elektron və ya digər vasitələrlə[32] ola bilər və aşağıdakıları əhatə edə bilər:

- Həmin tərəflərin öhdəliklərinin şərtləri.
- Müvafiq hallarda, öhdəliklərin qanuniliyi və icrasının mümkünlüyü.
- Tərəflərin maliyyə dəstəyini təmin etmək niyyətində olduğu müddət və ya konkret tarix.

Qabiliyyət (İst: Paraq. 28)

A64. Üçüncü şəxslərin və ya əlaqəli tərəflərin, o cümlədən müəssisənin sahibkar-rəhbərinin maliyyə dəstəyi göstərmək qabiliyyətinə dair yetərli müvafiq audit sübutları əldə etmək üçün auditorun yerinə yetirdiyi prosedurlarına aşağıdakılar daxil ola bilər:

- Maliyyə dəstəyinin kommersiya baxımından əsaslandırılması və bu dəstəyin müəyyən

[32] 505 saylı "Kənar mənbədən təsdiqləmələr" BAS, 6(a) paraqrafı

edilməsinin əsasları (məsələn, müəssisənin biznes planları və ya digər proqnozlar) barədə sorğuların göndərilməsi.

- Müəssisənin öhdəliklərini yerinə yetirməsi üçün maliyyə dəstəyini vaxtında təmin etmək imkanları barədə sorğuların göndərilməsi.
- Üçüncü şəxslərin və ya əlaqəli tərəflərin, o cümlədən müəssisənin sahibkar-rəhbərinin maliyyə dəstəyi göstərmək imkanları barədə müvafiq biliklərə və məlumatlara malik ola biləcək digər şəxslərə - məsələn, kənar və ya daxili hüquq məsləhətçisi və ya qrup audit tapşırığında əlaqəli tərəfin maliyyə hesabatlarının auditoruna - sorğuların göndərilməsi.
- Belə dəstəyə ehtiyac olduqda tərəflərin əvvəllər təmin etdiyi maliyyə dəstəyi ilə bağlı qeydlərin yoxlanılması.
- Müəssisəyə lazımi maliyyə dəstəyini təmin edəcək tərəflərin maliyyə vəziyyəti haqqında audit sübutları əldə etmək məqsədilə ən son mövcud olan auditi aparılmış maliyyə hesabatlarının və ya digər əsaslandırıcı məlumatların yoxlanılması.

Uyğunlaşdırılma (İst: Paraq. 28)

A65. Müəssisənin sahibkar-rəhbəri tərəfindən maliyyə dəstəyi çox vaxt kiçik və ya daha az mürəkkəb müəssisələrin fəaliyyətinin fasiləsizliyini davam etdirmək üçün vacibdir. Kiçik və ya daha az mürəkkəb müəssisənin əsasən sahibkar-rəhbərdən alınan kreditlə maliyyələşdirildiyi hallarda, bu vəsaitlərin geri götürülməməsi vacib ola bilər.

Nümunə:

Maliyyə çətinliyi yaşayan kiçik və ya daha az mürəkkəb müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyəti sahibkar-rəhbərin müəssisəyə verdiyi kreditin bankların və ya digər kreditorların xeyrinə subordinasiya etməsindən və ya sahibkar-rəhbərin öz şəxsi aktivlərini girov kimi təqdim etməklə müəssisə üçün kreditə zəmanət verməsindən asılı ola bilər. Belə hallarda, auditor sahibkar-rəhbərin kreditinin subordinasiyasına və ya zəmanətinə dair müvafiq sənədli sübutlar əldə edə bilər. Müəssisə sahibkar-rəhbərdən əlavə dəstəkdən asılı olduqda, auditor sahibkar-rəhbərin dəstək razılaşması çərçivəsində bu öhdəliyi yerinə yetirmək imkanını dəyərləndirir. Bundan əlavə, auditor bu cür dəstəyə aid olan şərtlərin və sahibkar-rəhbərin niyyətinin və ya anlayışının yazılı təsdiqlənməsini tələb edə bilər.

**Auditor hesabatının tarixindən sonra məlumatların məlum olması** (İst: Paraq. 29)

A66. 560 saylı BAS-a uyğun olaraq auditordan tələb olunur ki, auditor hesabatının tarixindən sonra, lakin maliyyə hesabatları dərc edilməzdən əvvəl məlum olan, auditor hesabatının tarixində auditora məlum olsaydı, onun auditor hesabatını dəyişdirməsinə səbəb ola biləcək faktlarla bağlı müvafiq cavab tədbirləri görsün.[33] Məsələn, bu, auditor hesabatının tarixi ilə maliyyə hesabatlarının dərc ediləcəyi tarix arasında əhəmiyyətli gecikmənin olduğu auditora məlum olduğu və auditorun belə bir gecikmənin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlərlə əlaqəli olduğunu müəyyən etdiyi hallar ola bilər.

**Əldə edilmiş audit sübutlarının dəyərləndirilməsi və nəticə çıxarılması** (İst: Paraq. 30–31)

A67. Əgər auditor maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğuna dair yetərli müvafiq audit sübutları əldə edə bilmirsə, 705 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq, auditor bunun audit üçün nəticələrini nəzərə almalıdır.

*Rəhbərliyin mümkün qeyri-obyektivliyinin əlamətləri (İst: Paraq. 30(a))*

[33] 560 saylı BAS, 10-13-cü paraqraflar

A68. Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsində qeyri-müəyyənlik, mürəkkəblik və subyektivlik artdıqca, rəhbərliyin istər bilərəkdən, istərsə də bilmədən qeyri-obyektivliyin yaranmasına meyllik dərəcəsi də arta bilər.

A69. Auditor rəhbərliyin mümkün qeyri-obyektivliyinin əlamətlərini aşkar etdikdə, auditora rəhbərliklə əlavə müzakirə aparmaq və rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirmək üçün istifadə etdiyi metodun, ehtimalların və verilənlərin uyğun olub-olmadığını təsdiqləmək üçün yetərli müvafiq audit sübutlarının əldə edilib-edilmədiyini yenidən nəzərdən keçirmək lazım ola bilər.

Nümunələr:

- Rəhbərlik etibarlı bazar ehtimallarına və ya məlumatlarına əhəmiyyət verməyib, daxildə işlənib hazırlanmış ehtimallardan istifadə etməyə və ya daha əlverişli nəticə verən məlumatları seçməyə meylli ola bilər.
- Aydın və müvafiq bir səbəb olmadan müxtəlif dövrlərdə metodda, ehtimallarda və ya verilənlərdə dəyişikliklər ola bilər. Əksinə, iqtisadi şəraitdə əhəmiyyətli dəyişikliklərə və ya digər şəraitlərin dəyişikliyin zəruri ola biləcəyini göstərməsinə baxmayaraq, rəhbərlik müxtəlif dövrlərdə metodda, ehtimallarda və ya verilənlərdə dəyişiklik etməyə bilər.
- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsində rəhbərliyin istifadə etdiyi məlumatın mənbəyinin müəyyənləşdirilməsinə sahibkar-rəhbərin və ya əlaqəli tərəfin əhəmiyyətli təsiri ola bilər.
- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə bağlı gələcək nəticələri qiymətləndirərkən rəhbərlik həddindən artıq optimist ola və ya tarixi məlumatlardakı tendensiyaları və sxemləri nəzərə almaya bilər.

A70. Bu cür əlamətlər aşkar edildikdə, bu, auditorun riski qiymətləndirməsinin və əlaqəli cavab tədbirlərinin məqsədəuyğun olaraq qalıb-qalmadığı barədə nəticəsinə də təsir göstərə bilər. Auditor həmçinin auditin digər aspektləri[34] üçün nəticələrini, o cümlədən müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirərkən rəhbərliyin yürütdüyü mühakimələrin uyğunluğunu əlavə olaraq şübhə altına almaq ehtiyacını nəzərə almalı ola bilər. Bundan əlavə, rəhbərliyin mümkün qeyri-obyektivliyinin əlamətləri 700 saylı (düzəliş edilmiş) BAS-da[35] müzakirə edildiyi kimi, maliyyə hesabatlarının bütövlükdə əhəmiyyətli təhriflərdən azad olub-olmadığı barədə auditorun nəticəsinə təsir göstərə bilər.

A71. Rəhbərliyin mümkün qeyri-obyektivliyinin əlamətləri dələduzluq riski amilləri də ola bilər və auditorun risk qiymətləndirməsinin, xüsusən də dələduzluq səbəbindən baş vermiş əhəmiyyətli təhrif risklərinin qiymətləndirməsinin və əlaqəli cavab tədbirlərinin uyğun olaraq qalıb-qalmadığını yenidən qiymətləndirməsinə səbəb ola bilər.[36] Çaşdırmaq niyyəti olduqda, rəhbərliyin qeyri-obyektivliyinin dələduzluqdur və auditor bu qeyri-müəyyənliyin dələduzluq səbəbindən baş vermiş əhəmiyyətli təhrif olub-olmadığını nəzərdən keçirməli ola bilər.

*Əhəmiyyətli qeyri-müəyyənliyin mövcudluğu barədə nəticənin çıxarılması* (İst: Paraq. 31)

A72. Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər aşkar edildikdə, 31-ci paraqrafda tələb olunan auditorun nəticəsi, 26-28-ci paraqraflara uyğun olaraq rəhbərliyin gələcək tədbirlər planlarının auditor tərəfindən dəyərləndirilməsindən asılıdır. Məsələn, əldə edilmiş audit sübutlarına əsasən auditor aşağıdakı

[34] 540 saylı (düzəliş edilmiş) "Uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi" BAS, A133-A136 paraqrafları
[35] 700 saylı (düzəliş edilmiş) "Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi" BAS, 11-ci paraqraf
[36] 240 saylı BAS, 25-ci paraqraf

nəticələrə gəldikdə, əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur:

- Bu planların nəticəsi aşkar edilmiş hadisələrin və ya şəraitlərin təsirini azaltmaq üçün yetərli olmaya bilər.
- Rəhbərliyin planlarının icrası mövcud şəraitdə mümkün olmaya bilər.
- Rəhbərliyin müəyyən fəaliyyət planlarını həyata keçirmək niyyəti və ya imkanı olmaya bilər.
- Üçüncü şəxslərin və ya əlaqəli tərəflərin, o cümlədən müəssisənin sahibkar-rəhbərinin zəruri maliyyə dəstəyini göstərmək niyyəti və ya imkanı olmaya bilər.

Əhəmiyyətli qeyri-müəyyənlik mövcud olduqda, auditor maliyyə hesabatlarında 33-cü paraqrafa uyğun olaraq tələb olunan açıqlamaların təqdim edilib-edilmədiyini müəyyən etməlidir.

**Açıqlamaların yetərliliyi**

*Əhəmiyyətli qeyri-müəyyənlik mövcud olmadıqda açıqlamaların yetərliliyi* (İst: Paraq. 32, 34(b)(i))

A73. Bəzi maliyyə hesabatlarının çərçivələrində aşağıdakılarla bağlı açıqlamalar əks etdirilə bilər:

- Əsas hadisələr və ya şəraitlər;
- Müəssisənin öhdəliklərini yerinə yetirmək qabiliyyəti ilə əlaqədar həmin hadisələrin və ya şəraitlərin əhəmiyyətliliyinin rəhbərlik tərəfindən qiymətləndirilməsi;
- Bu hadisələrin və ya şəraitlərin təsirinin azaldılması ilə bağlı rəhbərliyin planları;
- Rəhbərliyin gələcəklə bağlı etdiyi ehtimallar və qiymətləndirmədə qeyri-müəyyənliyin digər mənbələri; və ya
- Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsi çərçivəsində yürütdüyü əhəmiyyətli mühakimələr.

Nümunə:

Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirərkən rəhbərlik, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər haqqında bütün müvafiq məlumatları nəzərə alır. Bütün müvafiq məlumatları, o cümlədən həmin hadisələrin və ya şəraitlərin təsirlərini azaltmaq üçün hər hansı bir düzəliş tədbirinin mümkünlüyünü və effektivliyini nəzərə aldıqdan sonra rəhbərlik heç bir əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gələ bilər. Məsələn, müştəri tələbatının azalmasına və daha geniş iqtisadi mühitdə qarşılaşılan qeyri-müəyyənliklərə cavab olaraq, rəhbərlik müəyyən uğur dəlillərini (məs., müəssisənin aktivlərini reallaşdırmaq və öhdəliklərini yerinə yetirmək və yaxın gələcəkdə fəaliyyətini davam etdirmək qabiliyyətini dəstəkləmək üçün xərclərin azaldılması, pul vəsaitlərinin hərəkətinin optimallaşdırılması və likvidliyin qorunması) nümayiş etdirən dönüş strategiyasını həyata keçirməyə başlamış ola bilər. Bununla belə, əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olmadığı qənaətinə gəlmək üçün gələcək pul vəsaitlərinin hərəkətlərinin təsirini və müddətini dəyərləndirərkən rəhbərliyin əhəmiyyətli mühakimə yürütməsi tələb edilir.

A74. Maliyyə hesabatları ədalətli təqdimat çərçivəsinə uyğun olaraq hazırlandıqda, maliyyə hesabatlarının ədalətli təqdimata nail olub-olmadığı ilə bağlı auditorun dəyərləndirməsi maliyyə hesabatlarının ümumi təqdimatının, strukturunun və məzmununun, habelə əlaqəli qeydlər də daxil olmaqla maliyyə hesabatlarında əsas əməliyyatların və hadisələrin ədalətli təqdimata nail olacaq şəkildə təqdim edilib-edilməməsinin təhlilini ehtiva edir.[37]

A75. Rəhbərlik tərəfindən əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəlmək üçün əhəmiyyətli mühakimələr yürüdüldükdə, 32-ci paraqrafı tətbiq edərkən auditor faktlardan və şəraitdən asılı olaraq,

[37] 700 saylı (düzəliş edilmiş) BAS, 14-cü paraqraf

müvafiq hallarda, maliyyə hesabatlarının ədalətli təqdimata nail olması üçün (ədalətli təqdimat çərçivələri üçün) və ya maliyyə hesabatlarında yanlış məlumatların verilməməsi üçün (uyğunluq çərçivələri üçün) əlavə açıqlamaların zəruri olduğunu müəyyən edə bilər. Məsələn, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri ilə bu hallarla bağlı heç bir açıqlama açıq şəkildə tələb olunmadıqda, əlavə açıqlamalar zəruri ola bilər.

A76. 705 saylı (düzəliş edilmiş) BAS-a[38] uyğun olaraq, maliyyə hesabatlarının tətbiq olunan çərçivələrində tələb olunan konkret açıqlamalardan başqa ədalətli təqdimatı təmin etmək üçün zəruri olan əlavə açıqlamalar maliyyə hesabatlarında təqdim edilmədikdə, auditor öz hesabatında fərqli rəy bildirməlidir.

*Əhəmiyyətli qeyri-müəyyənlik mövcud olduqda açıqlamanın yetərliliyi* (İst: Paraq. 33, 35(a))

A77. 33-cü paraqrafa uyğun olaraq, auditor həmin paraqrafda qeyd edilən məsələlərin maliyyə hesabatlarında açıqlanan məlumatlarda əks etdirilib-etdirilmədiyini müəyyən etməlidir. Bu müəyyənləşdirmə maliyyə hesabatlarının tətbiq olunan çərçivələri üzrə tələb olunan əhəmiyyətli qeyri-müəyyənliyə dair açıqlanan məlumatların yetərli olub-olmamasının auditor tərəfindən müəyyən edilməsinə əlavədir. 33-cü paraqrafda qeyd edilən məsələlərə əlavə olaraq bəzi maliyyə hesabatlarının çərçivələri üzrə tələb olunan açıqlamalar aşağıdakılara dair açıqlamalarda ehtiva edə bilər:

- Müəssisənin öz öhdəliklərini yerinə yetirmək qabiliyyəti ilə bağlı hadisələrin və ya şəraitlərin əhəmiyyətliliyinin rəhbərlik tərəfindən qiymətləndirilməsi və bu hadisələri və ya şəraitləri həll etmək üçün rəhbərliyin gələcək tədbirlər planları; və ya
- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsinin tərkibində rəhbərlik tərəfindən yürüdülən əhəmiyyətli mühakimələr.

Maliyyə hesabatları çərçivələrinin bəzilərində əsas hadisələrin və ya şəraitlərin mümkün təsirinin həcmi, eləcə də onların başvermə ehtimalı və müddəti barədə açıqlamaların rəhbərlik tərəfindən nəzərdən keçirməsi ilə bağlı əlavə təlimatlar verilə bilər.

**Auditor hesabatı üçün nəticələr** (İst: Paraq. 34–38)

A78. Bu BAS-ın əlavəsində mühasibat uçotunun MHBS standartları maliyyə hesabatlarının tətbiq olunan çərçivələri olduqda, maliyyə hesabatlarına dair auditor hesabatına daxil edilməsi tələb olunan hesabatların nümunələri verilir. Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri mühasibat uçotunun MHBS standartlarından fərqli olduqda, bu BAS-ın əlavəsində verilən hesabatların nümunələrini uyğunlaşdırıb mövcud şəraitdə tətbiq edilən başqa maliyyə hesabatlarının çərçivələrini əks etdirmək lazım ola bilər.

A79. 34-36-cı paraqraflarda tələb olunan hesabatlar, təsvir edilən hər bir vəziyyətdə auditor hesabatında təqdim edilməli olan minimum məlumatları təşkil edir. Auditor tələb olunan hesabatları tamamlayan əlavə məlumat, məsələn, maliyyə hesabatları üzrə məsuliyyət daşıyan şəxslərin və auditorun müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli müvafiq məsuliyyətlərinin təsvir olunduğu yerə istinad təqdim edə bilər. 700 saylı (düzəliş edilmiş) BAS-ın[39] əlavəsinə maliyyə hesabatları üzrə məsuliyyət daşıyan şəxslərin və auditorun müvafiq məsuliyyətlərini təsvir etmək üçün müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli auditor hesabatına daxil ediləcək ifadələrin nümunələri daxil edilmişdir.

*Mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsi məqsədəuyğundur - əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil* (İst: Paraq. 34)

A80. Auditor öz hesabatında 34(a) paraqrafında tələb olunan hesabatları (məs., müvafiq uçot siyasətlərinə və ya maliyyə hesabatlarındakı qeydlərə istinad təqdim etmək) tamamlayan əlavə məlumat təqdim

[38] 705 saylı (düzəliş edilmiş) BAS, 6-cı paraqraf və A7 paraqrafı
[39] 700 saylı (düzəliş edilmiş) BAS, 34-cü və 39-cu paraqraflar.

edə bilər.

A81. Bu BAS-ın əlavəsində verilən Nümunə 1 rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğu ilə əlaqəli auditorun yetərli müvafiq audit sübutları əldə etdiyi və əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olmadığı qənaətinə gəldiyi zaman, listinq subyekti olmayan müəssisənin auditor hesabatının nümunəsidir.

A82. Listinq subyekti olmayan müəssisənin maliyyə hesabatlarının auditi üçün qanun və ya qaydalarla auditordan 34(b) paraqrafında tələb olunan məlumatları təqdim etməsi tələb edilə bilər. Auditor həmçinin listinq subyekti olmayan müəssisə üçün 34(b) paraqrafında tələb olunan məlumatların auditor hesabatında maliyyə hesabatlarının nəzərdə tutulan istifadəçiləri üçün şəffaflığı artırmaq məqsədilə təqdim edilməsinin məqsədəuyğun olduğuna qərar verə bilər. Məsələn, auditor bunu, onların çoxsaylı və geniş maraqlı tərəfləri olduğuna görə və biznesin xüsusiyyətini və həcmini nəzərə alaraq digər müəssisələr, o cümlədən əhəmiyyətli ictimai maraq kəsb edə bilən müəssisələr üçün etmək qərarına gələ bilər. Bu cür müəssisələr maliyyə qurumlarını (məsələn, banklar, sığorta şirkətləri və pensiya fondları) və xeyriyyə təşkilatları kimi digər müəssisələri ehtiva edə bilər.

A83. Auditorun peşəkar mühakiməsinə əsasən elə hallar ola bilər ki, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli rəhbərliyin yürütdüyü mühakimələrin açıqlanması nəzərdə tutulan istifadəçilərin maliyyə hesabatları haqqında anlayış əldə etmələri üçün fundamental olsun. Həmçinin, elə hallar ola bilər ki, maliyyə hesabatlarında açıqlamaya (açıqlamalara) istinad etməklə yanaşı, auditor onların əsas aspektlərinə diqqət çəkməyi məqsədəuyğun hesab edə bilsin. Belə hallarda, maliyyə hesabatlarında açıqlanan aşkar edilmiş hadisələrin və ya şəraitlərin aspektlərini, məsələn, əsas fəaliyyətdən əhəmiyyətli itkilər, mövcud borcalma imkanları və borcu təkrar maliyyələşdirmək imkanı və ya kredit öhdəliklərinin yerinə yetirilməməsi və müvafiq yüngülləşdirici amilləri daxil etmək və ya rəhbərliyin yürütdüyü mühakimələrin açıqlanması aspektlərinə diqqət çəkmək üçün 34(b) paraqrafında tələb olunan məlumatlar əlavə edilə bilər.

*Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyinin qiymətləndirməsi auditor tərəfindən necə dəyərləndirildiyinin təsviri* (İst: Paraq. 34(b)(ii), 35(b))

A84. Auditor, rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsinin auditor tərəfindən necə dəyərləndirildiyini təsvir edərkən aşağıdakı komponentlərdən birini və ya bir neçəsini təsvir edə bilər:

- Yerinə yetirilmiş prosedurların qısa icmalı;
- Auditor prosedurlarının nəticəsinin göstərilməsi;
- Auditorun cavab tədbirinin və ya yanaşmasının rəhbərliyin gələcək tədbirlər üçün planlarının dəyərləndirilməsi də daxil olmaqla, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlərə ən çox aidiyyəti olan aspektləri; yaxud
- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əsas müşahidələr.

A85. Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsi auditor tərəfindən necə qiymətləndirildiyini təsvir etmək üçün auditor hesabatında təqdim ediləcək təfərrüatların həcmi peşəkar mühakimə əsasında müəyyən edilir. Auditor hesabatında təqdim ediləcək təfərrüatların həcmini müəyyən edərkən auditor aşağıdakı amilləri nəzərə ala bilər:

- Əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəlmək üçün rəhbərliyin qiymətləndirməsini dəyərləndirmək məqsədilə yerinə yetirilmiş audit prosedurlarının xüsusiyyəti və həcmi.
- Rəhbərliyin qiymətləndirməsində subyektivlik, mürəkkəblik və dəyərləndirmədə qeyri-müəyyənlik

səviyyəsi.

A86. Nəzərdə tutulan istifadəçilərin bütövlükdə maliyyə hesabatlarının auditi baxımından təsvirin əhəmiyyəti haqqında anlayış əldə etmələri üçün ehtiyatlı olmaq lazımdır ki, rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirməsinin auditor tərəfindən necə dəyərləndirilməsinin təsvirində istifadə olunan ifadələr:

- Ümumi və ya standart olmamaqla yanaşı, təsviri bilavasitə müəssisənin konkret şəraitləri ilə əlaqələndirsin.
- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin maliyyə hesabatlarındakı əlaqəli açıqlamalarda necə əks olunduğunu nəzərə alsın.
- Maliyyə hesabatlarının ayrı-ayrı komponentlərinə dair ayrıca rəy ehtiva etməsin və ya nəzərdə tutmasın.
- Müvafiq hallarda əhəmiyyətli qeyri-müəyyənliyin mövcudluğunu gizlətməsin.

A87. Auditor tərəfindən təqdim edilən məlumatların xüsusiyyəti və həcmi müvafiq tərəflərin məsuliyyətləri baxımından balanslaşdırılmalıdır (yəni, auditor faydalı məlumatları qısa və başa düşülən formada təqdim etməli, eyni zamanda müəssisə haqqında ilkin məlumatın qeyri-münasib mənbəyi olmamalıdır). İlkin məlumat müəssisə tərəfindən başqa qaydada ictimaiyyətə açıqlanmayan (məs., maliyyə hesabatlarına və ya auditor hesabatının tarixinə mövcud olan digər məlumatlara daxil edilməyəm, yaxud məs., maliyyə məlumatlarının qabaqcadan elan edilməsi və ya investorların brifinqləri kimi rəhbərliyin və ya idarəetməyə məsul şəxslərin digər şifahi və ya yazılı məlumatlarda əks etdirdiyi) müəssisə haqqında hər hansı məlumatdır. Həmin məlumata görə müəssisənin rəhbərliyi və idarəetməyə məsul şəxsləri cavabdehdir.

A88. Auditor çalışmalıdır ki, rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin auditor tərəfindən necə dəyərləndirilməsinin təsvirində müəssisə haqqında ilkin məlumatların qeyri-münasib şəkildə təqdim etməsin. Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin auditor tərəfindən necə dəyərləndirilməsinin təsviri, bir qayda olaraq, özü-özlüyündə müəssisə haqqında ilkin məlumat deyil, çünki o məsələni audit baxımından təsvir edir. Bununla belə, auditor istifadəçilərin anlayışını artırmaq məqsədilə müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən hadisələrin və ya şəraitlərin aspektlərini izah etmək üçün əlavə məlumatların daxil edilməsini zəruri hesab edə bilər. Auditor belə məlumatların zəruri olduğunu müəyyən etdikdə, ilkin məlumatların auditor tərəfindən auditor hesabatında təqdim edilməsi əvəzinə, auditor rəhbərliyə və ya idarəetməyə məsul şəxslərə əlavə məlumatları açıqlamağı təklif edə bilər. Auditorun həmin məsələlərin auditor hesabatında necə əks etdirildiyini açıqlayacağını nəzərə alaraq, rəhbərlik və ya idarəetməyə məsul şəxslər müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli maliyyə hesabatlarında və ya illik hesabatın başqa hissələrində yeni və ya genişləndirilmiş məlumatların açıqlanması haqqında qərar verə bilər.

A89. Bu BAS-ın əlavəsində verilən Nümunə 2 aşağıdakı hallarda listinq subyektinin auditor hesabatının nümunəsidir:

- Auditor rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinin məqsədəuyğunluğuna dair yetərli müvafiq audit sübutları əldə etmişdir;
- Auditor əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəlmişdir; habelə
- Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəlmək üçün yürütdüyü əhəmiyyətli mühakimələr maliyyə hesabatlarında yetərli şəkildə açıqlanmışdır.

*Mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsi məqsədəuyğundur - əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur* (İst: Paraq. 35–36)

A90. Əhəmiyyətli qeyri-müəyyənliyin aşkar edilməsi, nəzərdə tutulan istifadəçilərin maliyyə hesabatları haqqında anlayış əldə etməsi üçün vacib olan bir məsələdir. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olmasına istinad edilən başlıqlı ayrı bir bölmənin istifadə edilməsi, nəzərdə tutulan istifadəçiləri bu vəziyyət barədə xəbərdar edir.

Maliyyə hesabatlarında əhəmiyyətli qeyri-müəyyənliyin açıqlanması yetərlidir (İst: Paraq. 35)

A91. Bu BAS-ın əlavəsində verilən Nümunə 3 və 4 rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğuna dair auditor yetərli müvafiq audit sübutları əldə etdikdə, lakin əhəmiyyətli qeyri-müəyyənlik mövcud olduqda və maliyyə hesabatlarında yetərli açıqlama verildikdə, müvafiq olaraq listinq subyekti olmayan müəssisənin və listinq subyektinin auditor hesabatının nümunələrdir.

Maliyyə hesabatlarında əhəmiyyətli qeyri-müəyyənliyin açıqlanması yetərlidir (İst: Paraq. 36)

A92. Bu BAS-ın Əlavəsində verilən Nümunə 5 və 6 rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğuna dair auditor yetərli müvafiq audit sübutları əldə etdikdə, lakin maliyyə hesabatlarında əhəmiyyətli qeyri-müəyyənliyin yetərli açıqlanması verilmədikdə, müvafiq olaraq, listinq subyekti və listinq subyekti olmayan müəssisə üçün şərti müsbət və mənfi rəyləri özündə ehtiva edən auditor hesabatlarının nümunələridir.

*Auditor maliyyə hesabatlarına dair rəy verməkdən imtina etdikdə mülahizələr* (İst: Paraq. 37)

A93. Bütövlükdə maliyyə hesabatları üçün əhəmiyyətli olan qeyri-müəyyənliklərin sayı çox olduğu hallarda auditor son dərəcədə nadir hallarda rəy bildirməkdən imtina etməyi məqsədəuyğun hesab edə bilər. 705 saylı (düzəliş edilmiş) BAS-da bu məsələ ilə bağlı təlimat verilir.[40]

A94. 37-ci paraqrafa uyğun olaraq qanun və ya qaydalarla başqa hal nəzərdə tutulmadığı təqdirdə, auditor maliyyə hesabatları üzrə rəy verməkdən imtina etdikdə, auditor hesabatına ayrıca "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" və ya "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli qeyri-müəyyənlik" bölmələrinin daxil edilməsi qadağan edilir, çünki bu, bütövlükdə maliyyə hesabatlarına dair rəy verməkdən imtina ilə ziddiyyət təşkil edəcək və bütövlükdə maliyyə hesabatlarının həmin məsələlərlə bağlı daha etibarlı olduğunu nəzərdə tuta bilər. Auditor rəy verməkdən imtina etdikdə, 705 saylı (düzəliş edilmiş) BAS-a[41] uyğun olaraq auditor öz hesabatının "Rəy verməkdən imtina üçün əsaslar" bölməsində qeyd etməlidir ki, auditor maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğu və müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin mövcudluğu barədə nəticə çıxarmaq imkanı yoxdur. Auditor hesabatının "Rəy verməkdən imtina üçün əsaslar" bölməsində belə ifadənin verilməsi istifadəçiləri maliyyə hesabatlarına əsassız olaraq etibar etməkdən qorumaq üçün faydalı məlumatla təmin edir.

*Mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsi uyğun deyil*
(İst: Paraq. 38)

A95. Əgər maliyyə hesabatları mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipi əsasında

[40] 705 saylı (düzəliş edilmiş) BAS, 10-cu paraqraf
[41] 705 saylı (düzəliş edilmiş) BAS, 19-cu paraqraf

hazırlanmışdırsa, lakin auditorun peşəkar mühakiməsinə əsasən maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsi uyğun deyilsə, 38-ci paraqrafda auditorun mənfi rəy bildirməsi tələbi, maliyyə hesabatlarında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin uyğunsuzluğunun açıqlanıb-açıqlanmamasından asılı olmayaraq tətbiq olunur.

A96. Mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsi mövcud şəraitdə uyğun olmadıqda, rəhbərlikdən tələb oluna bilər ki, maliyyə hesabatlarını başqa prinsip (məs., ləğvetmə prinsipi) əsasında hazırlasın və ya rəhbərlik bunu etməyi özü seçə bilər. Auditor həmin maliyyə hesabatlarının auditini apara bilər, bu şərtlə ki, auditor mühasibat uçotunun həmin başqa prinsipinin mövcud şəraitdə məqbul olduğunu müəyyən etsin. Auditor, maliyyə hesabatlarının hazırlanmasında əsaslandığı mühasibat uçotunun prinsipi haqqında yetərli açıqlama olduğu təqdirdə, həmin maliyyə hesabatları barədə fərqli rəy bildirə bilər, lakin nəzərdə tutulan istifadəçinin diqqətini mühasibat uçotunun həmin alternativ prinsipinə və onun istifadə edilməsinin səbəblərinə cəlb etmək üçün auditor hesabatına 706 saylı (düzəliş edilmiş) BAS-a[42] uyğun olaraq "İzahedici paraqraf"ın daxil edilməsini məqsədəuyğun və ya zəruri hesab edə bilər.

**Yazılı təqdimatlar** (İst: Paraq. 39–40)

A97. Auditor 39 və 40-cı paraqraflarda tələb olunanlardan əlavə xüsusi yazılı təqdimatlar əldə etməyi məqsədəuyğun hesab edə bilər. Məsələn, əgər auditor A63-cü paraqrafda təsvir olunduğu kimi əlaqəli tərəfdən, o cümlədən müəssisənin sahibkar-rəhbərindən yazılı təsdiq alsa, auditor yenə də rəhbərlikdən yazılı təsdiqin etibarlılığı ilə bağlı yazılı təqdimatlar tələb edə bilər.

**İdarəetməyə məsul şəxslərlə ünsiyyət** (İst: Paraq. 41–42)

A98. 260 saylı (düzəliş edilmiş) BAS-da[43] izah edilir ki, auditin bütün mərhələlərində vaxtında məlumatvermə idarəetməyə məsul şəxslərlə auditor arasında güclü ikitərəfli dialoqun təmin edilməsinə kömək edir. Məlumatvermə üçün uyğun vaxt tapşırığın şəraitlərindən, o cümlədən məsələnin əhəmiyyətliliyindən və xüsusiyyətindən, eləcə də idarəetməyə məsul şəxslər tərəfindən görülməsi gözlənilən tədbirlərdən asılı olaraq dəyişir.

| Nümunə: |
| --- |
| Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər aşkar edildikdə, idarəetməyə məsul şəxslərə tez bir zamanda məlumatvermə onlara zəruri hallarda əlavə aydınlıq gətirmək imkanı verə bilər. Bu, həmçinin idarəetməyə məsul şəxslərə yeni və ya genişləndirilmiş açıqlamaların zəruri olub-olmadığını (məs., rəhbərliyin gələcək tədbirlər planlarında hadisələrin və ya şəraitlərin mənfi təsirinin aradan qaldırılması üçün əhəmiyyətli olan yüngülləşdirici amillərlə bağlı) nəzərdən keçirməyə imkan verir. |

A99. 12(f) paraqrafında tələb olunan rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsi üzərində idarəetməyə məsul şəxslər tərəfindən nəzarətin necə həyata keçirildiyi barədə auditorun anlayış əldə etməsi auditor ilə idarəetməyə məsul şəxslər arasında effektiv ikitərəfli məlumatvermə üçün faydalı zəmin təmin edə bilər.

A100. Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsinin auditor tərəfindən dəyərləndirilməsi barədə idarəetməyə məsul şəxslərə məlumatvermə, idarəetməyə məsul şəxslərə auditorun nəticələrinin zəminini təşkil edən auditor işi və müvafiq hallarda auditor hesabatına təsiri barədə anlayış əldə etmək imkanı yaradır. Auditorun idarəetməyə məsul şəxslərə

[42] 706 saylı (düzəliş edilmiş) "Müstəqil auditorun hesabatında izahedici paraqraf və digər məsələlər paraqrafı" BAS
[43] 260 saylı (düzəliş edilmiş) BAS, A49 paraqrafı

məlumat verə biləcəyi məsələlərin nümunələri aşağıdakılardır:

Nümunələr:

- Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tanınma, ölçülmə və təqdimedilmə tələbləri baxımından maliyyə hesabatlarında açıqlanan məlumatların uyğunluğu barədə auditorun fikirləri.
- Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsində müvafiq ixtisaslaşmış bacarıq və ya biliklərdən istifadə edib-etməməsi və ya müvafiq mütəxəssisləri cəlb edib-etməməsi.
- Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirmək üçün istifadə etdiyi metodun müəssisənin xüsusiyyəti, şərtləri və şəraitləri və ya tətbiq olunan maliyyə hesabatlarının çərçivələrinin tələbləri baxımından uyğun olub-olmaması.
- Rəhbərliyin qiymətləndirməsinin əsaslandığı ehtimalların ağlabatanlığı və ehtimalların hazırlanmasında tətbiq edilən subyektivlik dərəcəsi barədə auditorun fikirləri.
- Ehtimalların müəssisənin biznes fəaliyyətinin digər sahələri üçün istifadə edilən ehtimallarla uyğun olub-olmaması və rəhbərliyin alternativ ehtimalları nəzərdən keçirib-keçirməməsi.
- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsində rəhbərlik tərəfindən yürüdülən mühakimələrdə və istifadə edilən ehtimallarda rəhbərliyin mümkün qeyri-obyektivliyinin göstəriciləri.
- Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini qiymətləndirməsi ilə əlaqəli daxili nəzarətdə əhəmiyyətli çatışmazlıqlar (həmçinin bax: A30, A32 və A35 paraqrafları).

A101. Listinq subyekti olmayan müəssisələr üçün auditor hesabatında təqdim edilməsi tələb olunan ifadələrdən əlavə, müvafiq hallarda, auditor idarəetməyə məsul şəxslərə əlavə məsələlər barədə məlumat verə, məsələn, rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsinin auditor tərəfindən necə dəyərləndirilməsini təsvir edə bilər.

**Müəssisədənkənar müvafiq səlahiyyətli orqana məlumatvermə** (İst: Paraq. 43)

A102. Auditor öz hesabatına "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik" başlığı ilə ayrıca bir bölmə daxil etməyi və ya müəssisənin fəaliyyətinin fasiləsizliyinə aid olan məsələlərlə bağlı fərqi rəy verməyi nəzərdən keçirdikdə, qanun, qayda və ya müvafiq etik normalara əsasən auditordan bu məsələlər barədə məlumat vermək tələb oluna bilər. Hesabat tənzimləyici, icra, nəzarət və ya müəssisədənkənar digər müvafiq orqana təqdim edilə bilər. Bundan əlavə, qanun, qayda və ya müvafiq etik normalara əsasən auditordan auditor hesabatını təqdim etməzdən əvvəl bu cür hesabatvermənin müddətini nəzərdən keçirmək tələb oluna bilər.

Nümunə:

Bəzi yurisdiksiyalarda, əhəmiyyətli qeyri-müəyyənlik mövcud olduqda auditorun nəzarət orqanına hesabat verməsi üçün ilkin xəbərdarlıq prosedurlarını təmin edən qanunvericilik tələbləri mövcuddur ki, bu da müəssisədən kənar müvafiq səlahiyyətli orqanın məsələni araşdırması və tədbir görməsi üçün imkan yaradır. İlkin xəbərdarlıq prosedurlarına auditorun müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etdiyi anda nəzarət orqanına hesabat verməsi daxil ola bilər.

A103. Qanun, qayda və ya müvafiq etik normalar, A102 paraqrafında təsvir edildiyi kimi, auditorun müəssisədənkənar müvafiq səlahiyyətli orqana hesabat verməsi tələblərini ehtiva etməyə bilər. Buna baxmayaraq, qanun, qayda və ya müvafiq etik normalar üzrə auditorun məxfilik öhdəliyi ilə məlumatların açıqlanması qadağan edildiyi hallar istisna olmaqla, qanun, qayda və ya müvafiq etik

normalar[44] ilə auditora həmin məsələ barədə müəssisədənkənar müvafiq səlahiyyətli orqana hesabat vermək hüququ verilə bilər. Belə hallarda, auditor həmin məsələni idarəetməyə məsul şəxslərlə müzakirə etmək qərarını da verə bilər.

Nümunələr:

- Maliyyə qurumunun maliyyə hesabatlarının auditi zamanı əhəmiyyətli qeyri-müəyyənlik mövcud olduqda auditorun qanunvericiliyə və ya normativ tələblərə uyğun olaraq bu məsələni nəzarət orqanı ilə müzakirə etmək hüququ ola bilər.
- Müvafiq etika normaları auditorun ictimai maraqlar baxımından əlavə tədbirlərin görülməsinin zəruri olub-olmadığını nəzərdən keçirməsini tələb edə bilər. Bu cür tədbirlər, hətta qanun və ya qayda ilə tələb olunmadığı halda belə, bu məsələ barədə müəssisədənkənar müvafiq səlahiyyətli orqana hesabatverməni əhatə edə bilər.[45]

A104. Auditorun məsələ barədə müəssisədənkənar müvafiq səlahiyyətli orqana hesabat verməsinin məqsədəuyğun olub-olmadığını müəyyən edərkən nəzərə ala biləcəyi amillərə aşağıdakılar daxil ola bilər:

- Qanunverici, hüquq-mühafizə, nəzarət və ya müəssisədən kənar digər müvafiq səlahiyyətli orqan tərəfindən ifadə edilən hər hansı fikirlər.
- Məsələ barədə hesabatvermənin ictimai maraqlara uyğun olub-olmaması.
- Vəziyyəti aradan qaldırmaq və ya təsirini azaltmaq üçün rəhbərlik və müvafiq hallarda idarəetməyə məsul şəxslər tərəfindən görülən tədbirlərinin yetərliliyi və vaxtı-vaxtlılığı.

A105. Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli məsələlər barədə müəssisədənkənar müvafiq səlahiyyətli orqana məlumat verərkən mürəkkəb mülahizələr istifadə edilə və peşəkar mühakimələr yürüdülə bilər. Bu hallarda, auditor müəssisə daxilində (məs., şirkətdə və ya şəbəkə şirkətində) və ya tənzimləyici ya da peşəkar qurumla məxfi olaraq məsləhətləşməyi nəzərdən keçirə bilər (əgər bunu etmək qanun və ya qaydalarla qadağan edilmirsə və ya məxfilik öhdəliyini pozmursa). Auditor həmçinin öz seçimlərini və hər hansı konkret fəaliyyət planının seçilməsi ilə bağlı peşəkar və ya hüquqi nəticələr barədə anlayış əldə etmək üçün hüquqi məsləhət almağı da nəzərdən keçirə bilər.

---

[44] Məsələn, Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsinin (Beynəlxalq müstəqillik standartları ilə birlikdə) (IESBA Məcəlləsi) R114.3(a) paraqrafına uyğun olaraq, bunu etmək üçün qanuni və ya peşəkar öhdəlik və ya hüquq olduğu halda məxfi məlumatların açıqlanmasına icazə verilə bilər. IESBA Məcəlləsinin 114.3 A1(b)(iv) paraqrafında izah edilir ki, bu cür məlumatların açıqlanması texniki və peşə standartlarına uyğun olaraq peşəkar öhdəlik və ya hüquq təşkil edir.

[45] Məsələn, bax: IESBA Məcəlləsinin R360.19-R360.26 paraqrafları.

**Əlavə**

(İst: Paraq. A78, A81, A89, A91–A92)

## Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli müstəqil auditorun hesabatının nümunələri

- Nümunə 1: Auditorun əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olmadığı qənaətinə gəldikdə listinq subyekti olmayan müəssisənin fərqli rəyi ehtiva edən auditor hesabatı.
- Nümunə 2: Auditorun əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olmadığı qənaətinə gəldikdə və maliyyə hesabatlarında rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəlmək üçün yürütdüyü əhəmiyyətli mühakimələr barədə açıqladığı məlumatlar yetərli olduqda, listinq subyektinin şərtsiz müsbət rəyi ehtiva edən auditor hesabatı.
- Nümunə 3: Auditorun əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu və maliyyə hesabatlarında açıqlanan məlumatların yetərli olduğu qənaətinə gəldikdə, listinq subyekti olmayan müəssisənin şərtsiz müsbət rəyi ehtiva edən auditor hesabatı.
- Nümunə 4: Auditorun əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu və maliyyə hesabatlarında açıqlanan məlumatların yetərli olduğu qənaətinə gəldikdə, listinq subyektinin şərtsiz müsbət rəyi ehtiva edən auditor hesabatı.
- Nümunə 5: Auditorun əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu və açıqlanan məlumatların yetərli olmaması səbəbindən maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olduğu qənaətinə gəldikdə, listinq subyektinin şərti müsbət rəy ehtiva edən auditor hesabatı.
- Nümunə 6: Auditorun əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu və maliyyə hesabatlarında əhəmiyyətli qeyri-müəyyənliklə bağlı tələb olunan açıqlamalar buraxıldığı qənaətinə gəldikdə, listinq subyekti olmayan müəssisənin mənfi rəyi ehtiva edən auditor hesabatı.

**Nümunə 1 – Əhəmiyyətli qeyri-müəyyənlik mövcud olmadıqda listinq subyekti olmayan müəssisənin fərqli rəyi ehtiva edən auditor hesabatı**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şərtlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyekti olmayan müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditi. Bu audit qrup auditi deyil (yəni, 600 saylı (düzəliş edilmiş) BAS[46] tətbiq edilmir).**
- **Maliyyə hesabatları, Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (IASB) tərəfindən dərc edilmiş mühasibat uçotunun MHBS standartlarına (ümumi təyinatlı çərçivələrə) uyğun olaraq müəssisənin rəhbərliyi tərəfindən hazırlanmışdır.**
- **Audit tapşırığının şərtlərində 210 saylı BAS-da təsvir edilən maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti əks etdirilir.**
- **Əldə edilmiş audit sübutları əsasında auditor qənaətə gəlmişdir ki, şərtsiz müsbət (yəni "təmiz") rəy məqsədəuyğundur.**
- **Auditə dair tətbiq edilən müvafiq etik normalar yurisdiksiyadakı tələblərdir.**
- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.**
- **Auditordan 701 saylı BAS-a uyğun olaraq əsas audit məsələləri barədə məlumat vermək tələb olunmur və o, bunu etmək qərarına gəlməmişdir.**
- **Auditor bütün digər məlumatları auditor hesabatının tarixinədək əldə etmişdir və digər məlumatlarda hələ əhəmiyyətli təhriflər aşkar etməmişdir.**
- **Maliyyə hesabatlarına nəzarət üzrə məsul şəxslər ilə maliyyə hesabatlarının hazırlanması üzrə məsul şəxslər fərqlidir.**
- **Maliyyə hesabatlarının auditindən əlavə, auditorun yerli qanunvericiliklə tələb edilən digər hesabatvermə məsuliyyətləri də vardır.**

[46] 600 saylı (düzəliş edilmiş) "Xüsusi mülahizələr – qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)" BAS

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

### Maliyyə hesabatlarının auditi haqqında hesabat[47]

**Rəy**

Biz ABC şirkətinin (şirkət) 31 dekabr 20X1-ci il tarixinə olan maliyyə vəziyyətinə dair hesabat və həmin tarixdə başa çatan il üçün məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat, habelə maliyyə hesabatlarına dair qeydlər, o cümlədən mühasibat uçotunun əsas prinsiplərinə dair məlumatlardan ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, müşayiət edən maliyyə hesabatları şirkətin 31 dekabr 20X1-ci il tarixinə olan maliyyə vəziyyətini və (*və ya*) həmin tarixdə başa çatan il üçün maliyyə göstəricilərini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc edilmiş mühasibat uçotunun MHBS Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından ədalətli şəkildə əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yarardır*).

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq apardıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz hesabatımızın *“Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri”* bölməsində daha ətraflı təsvir edilmişdir. Biz [*yurisdiksiyadakı*] maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq şirkətdən asılı deyilik və biz etika ilə bağlı digər məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və müvafiqdir.

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi**

*Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil*[48]

Bütövlükdə maliyyə hesabatlarının auditi baxımından və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik. Əldə edilən audit sübutlarına əsasən, şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etmədik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

**Digər məlumatlar [və ya müvafiq hallarda digər başlıq, məsələn, “Maliyyə hesabatları və onlara dair auditor hesabatından fərqli məlumatlar”]**

*[720 saylı (düzəliş edilmiş) BAS-da əks etdirilən hesabatvermə tələblərinə uyğun hesabatvermə – bax: 720 saylı (düzəliş edilmiş) BAS-ın 2 saylı Əlavəsi, Nümunə 1.]*

**Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyətləri**[49]

[47] “Digər qanun və qaydaların tələbləri haqqında hesabat” adlı ikinci yarımbaşlıq tətbiq edilmədiyi hallarda “Maliyyə hesabatlarının auditi haqqında hesabat” yarımbaşlığı tələb olunmur.

[48] Bu əlavə yarımbaşlıq, auditor hesabatının “Müəssisənin fəaliyyətinin fasiləsizliyi” bölməsində əks olunan məsələlərin xüsusiyyəti barədə nəzərdə tutulan istifadəçilərin anlayışını artırmaq üçün faydalı ola bilər.

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1[50] ]*

**Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri**

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1 ]*

**Digər qanun və qaydaların tələbləri haqqında hesabat**

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1 ]*

*[Konkret yurisdiksiyadakı tələblərdən asılı olaraq, auditor təşkilatının adından, auditorun öz adından və ya hər ikisinin adından imza]*

*[Auditorun ünvanı]*

*[Tarix ]*

[49] Auditor hesabatlarının bu nümunələrində "rəhbərlik" və "idarəetməyə məsul şəxslər" terminlərin konkret yurisdiksiyadakı hüquqi çərçivənin kontekstinə uyğun olan başqa bir termin ilə əvəz edilməsi lazım ola bilər.

[50] 700 saylı (düzəliş edilmiş) BAS-ın 34 və 39-cu bəndlərinə uyğun olaraq bütün müəssisələr auditor hesabatına maliyyə hesabatları üzrə məsul şəxslərin və auditorun müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli müvafiq məsuliyyətlərini təsvir edən mətn daxil etməlidir.

**Nümunə 2 – Əhəmiyyətli qeyri-müəyyənlik mövcud olmadığı və maliyyə hesabatlarında rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəlmək üçün yürütdüyü əhəmiyyətli mühakimələr barədə açıqladığı məlumatlar yetərli olduqda, listinq subyektinin şərtsiz müsbət rəyi ehtiva edən auditor hesabatı**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şəraitlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək listinq subyektinin maliyyə hesabatlarının tam dəstinin auditi. Bu audit qrup auditi deyil (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilmir).**
- **Maliyyə hesabatları, Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (IASB) tərəfindən dərc edilmiş mühasibat uçotunun MHBS standartlarına (ümumi təyinatlı çərçivələrə) uyğun olaraq müəssisənin rəhbərliyi tərəfindən hazırlanmışdır**
- **Audit tapşırığının şərtlərində 210 saylı BAS-da təsvir edilən maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti əks etdirilir**
- **Əldə edilmiş audit sübutları əsasında auditor qənaətə gəlmişdir ki, müsbət rəy məqsədəuyğundur.**
- **Auditə dair tətbiq edilən müvafiq etik normalar yurisdiksiyadakı tələblərdir.**
- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.**
- **Rəhbərlik müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəlmək üçün yürütdüyü əhəmiyyətli mühakimələr barədə məlumatlar açıqlamış və açıqlanan bu məlumatlar yetərlidir.**
- **Auditor, rəhbərliyin və auditorun müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli müvafiq məsuliyyətlərini təsvir edən bölmələrə istinad etməklə, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq zəruri hesabatları əlavə etməyi seçmişdir.**
- **Əsas audit məsələləri barədə 701 saylı BAS-a uyğun məlumat verilmişdir.**
- **Auditor bütün digər məlumatları auditor hesabatının tarixinədək əldə etmiş və digər məlumatlarda hələ əhəmiyyətli təhriflər aşkar etməmişdir.**
- **Maliyyə hesabatlarına nəzarət üzrə məsul şəxslər ilə maliyyə hesabatlarının hazırlanması üzrə məsul şəxslər fərqlidir.**
- **Maliyyə hesabatlarının auditindən əlavə auditorun yerli qanunla tələb edilən digər hesabatvermə məsuliyyətləri var.**

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

### Maliyyə hesabatlarının auditi haqqında hesabat[51]

**Rəy**

Biz ABC şirkətinin (şirkətin) 31 dekabr 20X1-ci il tarixinə olan maliyyə vəziyyətinə dair hesabat və həmin tarixdə başa çatan il üçün məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat, habelə maliyyə hesabatlarına dair qeydlər, o cümlədən mühasibat uçotunun əsas prinsiplərinə dair məlumatlardan ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, müşayiət edən maliyyə hesabatları şirkətin 31 dekabr 20X1-ci il tarixinə olan maliyyə vəziyyətini və (*və ya*) həmin tarixdə başa çatan il üçün maliyyə göstəricilərini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc edilmiş mühasibat uçotunun MHBS Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından ədalətli şəkildə əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yarardır*)

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq apardıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz hesabatımızın "*Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri*" bölməsində daha ətraflı təsvir edilmişdir. Biz [*yurisdiksiyadakı*] maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq şirkətdən asılı deyilik və etika ilə bağlı digər məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və müvafiqdir.

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi**

*Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil*[52]

Bütövlükdə maliyyə hesabatlarının auditi baxımından və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik.

Biz diqqəti şirkətin üzləşdiyi qeyri-müəyyənliklərin, rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirərkən yürütdüyü əhəmiyyətli mühakimələrin və şirkətin biznes fəaliyyətinə təsirlər ilə bağlı görülən yüngülləşdirici tədbirlərin təsvir olunduğu maliyyə hesabatlarındakı X qeydinə yönəldirik.

*[Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsinin 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq auditor tərəfindən necə dəyərləndirildiyinin təsviri.]*

Əldə edilən audit sübutlarına əsasən, şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etmədik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir. Bizim məsuliyyətlərimiz və rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli məsuliyyətləri bu hesabatın müvafiq bölmələrində təsvir edilmişdir.

---

[51] "Digər qanun və qaydaların tələbləri haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədiyi hallarda "Maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur

[52] Bu əlavə yarımbaşlıq, auditor hesabatının "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölməsində əks olunan məsələlərin xüsusiyyəti barədə nəzərdə tutulan istifadəçilərin anlayışını artırmaq üçün faydalı ola bilər

**Əsas audit məsələləri**

Əsas audit məsələləri, bizim peşəkar mühakiməmizə əsasən, cari dövrün maliyyə hesabatlarının auditində ən çox əhəmiyyət kəsb edən məsələlərdir. Bu məsələlər bütövlükdə maliyyə hesabatlarının auditi baxımından və onlara dair rəyimizi formalaşdırdıqda əks etdirilmiş və biz bu məsələlərə dair ayrı rəy vermirik. Rəhbərliyin "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölməsində qeyd olunan müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəlməsində yürütdüyü əhəmiyyətli mühakimələrə əlavə olaraq, biz aşağıda təsvir edilən məsələləri hesabatımızda bildiriləcək əsas audit məsələləri kimi müəyyən etdik.

*[701 saylı BAS-a uyğun olaraq əsas audit məsələlərinin hər birinin təsviri]*

**Digər məlumatlar [və ya müvafiq hallarda digər başlıq, məsələn "Maliyyə hesabatları və onlara dair auditor hesabatından fərqli məlumatlar"]**

*[720 saylı (düzəliş edilmiş) BAS-da əks etdirilən hesabatvermə tələblərinə uyğun hesabatvermə - bax: 720 saylı (düzəliş edilmiş) BAS-ın 2 saylı Əlavəsi, Nümunə 1 ]*

**Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyətləri[53]**

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1[54]]*

**Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri**

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1]*

**Digər qanun və qaydaların tələbləri haqqında hesabat**

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1]*

Müstəqil auditorun bu hesabatı ilə nəticələnən auditdə tapşırıq üzrə tərəfdaş [*adı*].

*[Konkret yurisdiksiyadakı tələblərdən asılı olaraq, auditor təşkilatının adından, auditorun öz adından və ya hər ikisinin adından imza]*

*[Auditorun ünvanı]*

*[Tarix]*

[53] Və ya konkret yurisdiksiyadakı hüquqi çərçivənin kontekstinə uyğun olan başqa terminlər.

[54] 700 saylı (düzəliş edilmiş) BAS-ın 34 və 39-cu bəndlərinə uyğun olaraq bütün müəssisələr auditor hesabatına maliyyə hesabatları üzrə məsul şəxslərin və auditorun müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli müvafiq məsuliyyətlərini təsvir edən mətn daxil etməlidir.

**Nümunə 3 – Əhəmiyyətli qeyri-müəyyənlik mövcud olduqda və maliyyə hesabatlarında açıqlanan məlumatlar yetərli olduqda, listinq subyekti olmayan müəssisənin şərtsiz müsbət rəyi ehtiva edən auditor hesabatı**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şərtlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyekti olmayan müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditi. Bu audit qrup auditi deyil (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilmir).**
- **Maliyyə hesabatları, Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (IASB) tərəfindən dərc edilmiş mühasibat uçotunun MHBS standartlarına (ümumi təyinatlı çərçivələrə) uyğun olaraq müəssisənin rəhbərliyi tərəfindən hazırlanmışdır.**
- **Audit tapşırığının şərtlərində 210 saylı BAS-da təsvir edilən maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti əks etdirilir.**
- **Əldə edilmiş audit sübutları əsasında auditor qənaətə gəlmişdir ki, müsbət rəy məqsədəuyğundur.**
- **Auditə dair tətbiq edilən müvafiq etik normalar yurisdiksiyadakı tələblərdir.**
- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur. Maliyyə hesabatlarında əhəmiyyətli qeyri-müəyyənliyin açıqlanması yetərlidir.**
- **Auditordan 701 saylı BAS-a uyğun olaraq əsas audit məsələləri barədə məlumat vermək tələb olunmur və o, bunu etmək qərarına gəlməmişdir.**
- **Auditor bütün digər məlumatları auditor hesabatının tarixinədək əldə etmişdir və digər məlumatlarda hələ əhəmiyyətli təhriflər aşkar etməmişdir.**
- **Maliyyə hesabatlarına nəzarət üzrə məsul şəxslər ilə maliyyə hesabatlarının hazırlanması üzrə məsul şəxslər fərqlidir.**
- **Maliyyə hesabatlarının auditindən əlavə, auditorun yerli qanunvericiliklə tələb edilən digər hesabatvermə məsuliyyətləri də vardır.**

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

## Maliyyə hesabatlarının auditi haqqında hesabat[55]

**Rəy**

Biz ABC şirkətinin (şirkət) 31 dekabr 20X1-ci il tarixinə olan maliyyə vəziyyətinə dair hesabat və həmin tarixdə başa çatan il üçün məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat, habelə maliyyə hesabatlarına dair qeydlər, o cümlədən mühasibat uçotunun əsas prinsiplərinə dair məlumatlardan ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, müşayiət edən maliyyə hesabatları şirkətin 31 dekabr 20X1-ci il tarixinə olan maliyyə vəziyyətini və (*və ya*) həmin tarixdə başa çatan il üçün maliyyə göstəricilərini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc edilmiş mühasibat uçotunun MHBS Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından ədalətli şəkildə əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yarardır*).

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq apardıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz hesabatımızın *"Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri"* bölməsində daha ətraflı təsvir edilmişdir. Biz [*yurisdiksiyadakı*] maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq şirkətdən asılı deyilik və biz etika ilə bağlı digər məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və müvafiqdir.

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik**

Biz diqqəti 31 dekabr 20X1-ci il tarixində başa çatan il ərzində şirkətin ZZZ məbləğində xalis zərər çəkdiyi və həmin tarixə şirkətin cari öhdəliklərinin ümumi aktivlərdən YYY qədər artıq olduğunu əks etdirən maliyyə hesabatlarındakı X qeydinə yönəldirik. X Qeydində bildirildiyinə əsasən bu hadisələr və ya şəraitlər, X qeydində müəyyən edilən digər məsələlərlə yanaşı şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu göstərilir.

Bu məsələyə dair bizim rəyimiz fərqli deyil.

Bütövlükdə maliyyə hesabatlarının auditi baxımından və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

**Digər məlumatlar [və ya müvafiq hallarda digər başlıq, məsələn, "Maliyyə hesabatları və onlara dair auditor hesabatından fərqli məlumatlar"]**

*[720 saylı (düzəliş edilmiş) BAS-da əks etdirilən hesabatvermə tələblərinə uyğun hesabatvermə – bax: 720 saylı (düzəliş edilmiş) BAS-ın 2 saylı Əlavəsi, Nümunə 1]*

[55] "Digər qanun və qaydaların tələbləri haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədiyi hallarda "Maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur

**Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyətləri**[56]

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1*[57]*]*

**Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri**

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1]*

**Digər qanun və qaydaların tələbləri haqqında hesabat**

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1]*

*[Konkret yurisdiksiyadakı tələblərdən asılı olaraq, auditor təşkilatının adından, auditorun öz adından və ya hər ikisinin adından imza]*

*[Auditorun ünvanı]*

*[Tarix]*

[56] Və ya konkret yurisdiksiyadakı hüquqi çərçivənin kontekstinə uyğun olan başqa terminlər.

[57] 700 saylı (düzəliş edilmiş) BAS-ın 34 və 39-cu bəndlərinə uyğun olaraq bütün müəssisələr auditor hesabatına maliyyə hesabatları üzrə məsul şəxslərin və auditorun müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli müvafiq məsuliyyətlərini təsvir edən mətn daxil etməlidir.

**Nümunə 4 – Əhəmiyyətli qeyri-müəyyənlik mövcud olduqda və maliyyə hesabatlarında açıqlanan məlumat yetərli olduqda, listinq subyektinin şərtsiz müsbət rəy ehtiva edən auditor hesabatı**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şərtlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyektinin maliyyə hesabatlarının tam dəstinin auditi. Bu audit qrup auditi deyil (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilmir).**
- **Maliyyə hesabatları, Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (IASB) tərəfindən dərc edilmiş mühasibat uçotunun MHBS standartlarına (ümumi təyinatlı çərçivələrə) uyğun olaraq müəssisənin rəhbərliyi tərəfindən hazırlanmışdır.**
- **Audit tapşırığının şərtlərində 210 saylı BAS-da təsvir edilən maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti əks etdirilir.**
- **Əldə edilmiş audit sübutları əsasında auditor qənaətə gəlmişdir ki, müsbət rəy məqsədəuyğundur.**
- **Auditə dair tətbiq edilən müvafiq etik normalar yurisdiksiyadakı tələblərdir.**
- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur. Maliyyə hesabatlarında əhəmiyyətli qeyri-müəyyənliyin açıqlanması yetərlidir.**
- **Əsas audit məsələləri barədə 701 saylı BAS-a uyğun məlumat verilmişdir.**
- **Auditor bütün digər məlumatları auditor hesabatının tarixinədək əldə etmiş və digər məlumatlarda hələ əhəmiyyətli təhriflər aşkar etməmişdir.**
- **Maliyyə hesabatlarına nəzarət üzrə məsul şəxslər ilə maliyyə hesabatlarının hazırlanması üzrə məsul şəxslər fərqlidir.**
- **Maliyyə hesabatlarının auditindən əlavə, auditorun yerli qanunvericiliklə tələb edilən digər hesabatvermə məsuliyyətləri də vardır.**

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

### Maliyyə hesabatlarının auditi haqqında hesabat[58]

**Rəy**

Biz ABC şirkətinin (şirkət) 31 dekabr 20X1-ci il tarixinə olan maliyyə vəziyyətinə dair hesabat və həmin tarixdə başa çatan il üçün məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat, habelə maliyyə hesabatlarına dair qeydlər, o cümlədən mühasibat uçotunun əsas prinsiplərinə dair məlumatlardan ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, müşayiət edən maliyyə hesabatları şirkətin 31 dekabr 20X1-ci il tarixinə olan maliyyə vəziyyətini və (*və ya*) həmin tarixdə başa çatan il üçün maliyyə göstəricilərini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc edilmiş mühasibat uçotunun MHBS Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından ədalətli şəkildə əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yarardır*).

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq apardıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz hesabatımızın *"Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri"* bölməsində daha ətraflı təsvir edilmişdir. Biz [*yurisdiksiyadakı*] maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq şirkətdən asılı deyilik və biz etika ilə bağlı digər məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və müvafiqdir.

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik**

Biz diqqəti 31 dekabr 20X1-ci il tarixində başa çatan il ərzində şirkətin ZZZ məbləğində xalis zərər çəkdiyi və həmin tarixə şirkətin cari öhdəliklərinin ümumi aktivlərdən YYY qədər artıq olduğunu əks etdirən maliyyə hesabatlarındakı X Qeydinə yönəldirik.

*[Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsinin 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq auditor tərəfindən necə dəyərləndirildiyinin təsviri]*

X qeydində bildirildiyinə əsasən bu hadisələr və ya şəraitlər, X qeydində müəyyən edilən digər məsələlərlə yanaşı şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu göstərilir.

Bu məsələyə dair bizim rəyimiz fərqli deyil.

Bütövlükdə maliyyə hesabatlarının auditi baxımından və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

[58] "Digər qanun və qaydaların tələbləri haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədiyi hallarda "Maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri, bizim peşəkar mühakiməmizə əsasən, cari dövrün maliyyə hesabatlarının auditində ən çox əhəmiyyət kəsb edən məsələlərdir. Bu məsələlər bütövlükdə maliyyə hesabatlarının auditi baxımından və onlara dair rəyimizi formalaşdırdıqda əks etdirilmiş və biz bu məsələlərə dair ayrı rəy vermirik. “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik” bölməsində təsvir edilən məsələyə əlavə olaraq, biz aşağıda təsvir edilən məsələləri hesabatımızda bildiriləcək əsas audit məsələləri kimi müəyyən etdik.

*[701 saylı BAS-a uyğun olaraq əsas audit məsələlərinin hər birinin təsviri]*

**Digər məlumatlar [və ya müvafiq hallarda digər başlıq, məsələn “Maliyyə hesabatları və onlara dair auditor hesabatından fərqli məlumatlar”]**

*[720 saylı (düzəliş edilmiş) BAS-da əks etdirilən hesabatvermə tələblərinə uyğun hesabatvermə - bax: 720 saylı (düzəliş edilmiş) BAS-ın 2 saylı Əlavəsi, Nümunə 1 ]*

**Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyətləri**[59]

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1*[60]*]*

**Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri**

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1 ]*

**Digər qanun və qaydaların tələbləri haqqında hesabat**

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1]*

Müstəqil auditorun bu hesabatı ilə nəticələnən auditdə tapşırıq üzrə tərəfdaş [*adı*].

*[Konkret yurisdiksiyadakı tələblərdən asılı olaraq, auditor təşkilatının adından, auditorun öz adından və*

*ya hər ikisinin adından imza]*

*[Auditorun ünvanı]*

*[Tarix]*

[59] Və ya konkret yurisdiksiyadakı hüquqi çərçivənin kontekstinə uyğun olan başqa terminlər.

[60] 700 saylı (düzəliş edilmiş) BAS-ın 34 və 39-cu bəndlərinə uyğun olaraq bütün müəssisələr auditor hesabatına maliyyə hesabatları üzrə məsul şəxslərin və auditorun müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli müvafiq məsuliyyətlərini təsvir edən mətn daxil etməlidir.

**Nümunə 5 – Əhəmiyyətli qeyri-müəyyənlik mövcud olduqda və açıqlanan məlumatların yetərli olmaması səbəbindən maliyyə hesabatlarında əhəmiyyətli təhrif mövcud olduqda, listinq subyektinin şərti müsbət rəyi ehtiva edən auditor hesabatı**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şəraitlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək listinq subyektinin maliyyə hesabatlarının tam dəstinin auditi. Bu audit qrup auditi deyil (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilmir).**
- **Maliyyə hesabatları, Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (IASB) tərəfindən dərc edilmiş mühasibat uçotunun MHBS standartlarına (ümumi təyinatlı çərçivələrə) uyğun olaraq müəssisənin rəhbərliyi tərəfindən hazırlanmışdır**
- **Audit tapşırığının şərtlərində 210 saylı BAS-da təsvir edilən maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti əks etdirilir**
- **Auditə dair tətbiq edilən müvafiq etik normalar yurisdiksiyadakı tələblərdir.**
- **Əldə edilmiş audit sübutları əsasında auditor qənaətə gəlmişdir ki, əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur. Maliyyə hesabatlarına edilən Y qeydində maliyyələşdirmə sövdələşmələrinin əhəmiyyətliliyi, qüvvədən düşməsi və ümumi maliyyələşdirmə sövdələşmələri müzakirə olunur; lakin maliyyə hesabatlarında təkrar maliyyələşdirmənin təsiri və ya mövcudluğu ilə bağlı müzakirələr əhatə olunmur, nə də bu vəziyyət əhəmiyyətli qeyri-müəyyənlik kimi xarakterizə edilmir.**
- **Əhəmiyyətli qeyri-müəyyənliyin yetərli açıqlanmaması səbəbindən maliyyə hesabatlarında əhəmiyyətli təhriflər mövcuddur. Şərti müsbət rəy ifadə olunur, çünki auditor qənaətə gəlmişdir ki, yetərli olmayan belə açıqlamanın maliyyə hesabatlarına təsiri əhəmiyyətlidir, lakin maliyyə hesabatları üçün nüfuzedici deyil.**
- **Əsas audit məsələləri barədə 701 saylı BAS-a uyğun məlumat verilmişdir.**
- **Auditor bütün digər məlumatları auditor hesabatının tarixinədək əldə etmiş və maliyyə hesabatları üzrə şərti müsbət rəyə səbəb olan məsələ digər məlumatlara da təsir göstərir.**
- **Maliyyə hesabatlarına nəzarət üzrə məsul şəxslər ilə maliyyə hesabatlarının hazırlanması üzrə məsul şəxslər fərqlidir.**
- **Maliyyə hesabatlarının auditindən əlavə, auditorun yerli qanunvericiliklə tələb edilən digər hesabatvermə məsuliyyətləri də vardır.**

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

### Maliyyə hesabatlarının auditi haqqında hesabat[61]

**Şərti müsbət rəy**

Biz ABC şirkətinin (şirkət) 31 dekabr 20X1-ci il tarixinə olan maliyyə vəziyyətinə dair hesabat və həmin tarixdə başa çatan il üçün məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat, habelə maliyyə hesabatlarına dair qeydlər, o cümlədən mühasibat uçotunun əsas prinsiplərinə dair məlumatlardan ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, hesabatımızın "*Şərti müsbət rəy üçün əsaslar*" bölməsində göstərilən məlumatların natamam açıqlanması istisna olmaqla, müşayiət edən maliyyə hesabatları şirkətin 31 dekabr 20X1-ci il tarixinə olan maliyyə vəziyyətini və (*və ya*) həmin tarixdə başa çatan il üçün maliyyə göstəricilərini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc edilmiş mühasibat uçotunun MHBS Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından ədalətli şəkildə əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yaradır*).

**Şərti müsbət rəy üçün əsaslar**

Y qeydində müzakirə edildiyi kimi, şirkətin maliyyələşdirmə sövdələşmələrinin müddəti başa çatır və ödənilməmiş məbləğlər 19 mart 20X2-ci il tarixində ödənilməlidir. Şirkət müqavilənin yenidən bağlanmasına və ya yeni maliyyələşdirmənin əldə edilməsinə nail ola bilməmişdir. Bu vəziyyət göstərir ki, şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur. Maliyyə hesabatları bu məsələ yetərli şəkildə açıqlanmır.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq apardıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz hesabatımızın "Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri" bölməsində daha ətraflı əks etdirilir. Biz [*yurisdiksiyadakı*] maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq şirkətdən asılı deyilik və biz etika ilə bağlı digər məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları şərti müsbət rəyimizi əsaslandırmaq üçün yetərli və müvafiqdir.

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik**

Bizim hesabatın "Şərti müsbət rəy üçün əsaslar" bölməsində təsvir edildiyi kimi, maliyyə hesabatlarında yetərli şəkildə açıqlanmayan əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur.

Bütövlükdə maliyyə hesabatlarının auditi baxımından və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

**Digər məlumatlar [və ya müvafiq hallarda digər başlıq, məsələn, "Maliyyə hesabatları və onlara dair auditor hesabatından fərqli məlumatlar"]**

*[720 saylı (düzəliş edilmiş) BAS-da əks etdirilən hesabatvermə tələblərinə uyğun hesabatvermə – bax: 720 saylı*

[61] "Digər qanun və qaydaların tələbləri haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədiyi hallarda "Maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur

*(düzəliş edilmiş) BAS-ın 2 saylı Əlavəsi, Nümunə 6. Nümunə 6-daki "Digər məlumatlar" bölməsinin sonuncu paraqrafı elə uyğunlaşdırılmalıdır ki, şərti müsbət rəyin verilməsinə səbəb olan, digər məlumatlara da təsir edən xüsusi məsələ təsvir edilsin]*

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə əsasən cari dövrün maliyyə hesabatlarının auditində ən çox əhəmiyyət kəsb edən məsələlərdir. Bu məsələlər bütövlükdə maliyyə hesabatlarının apardığımız auditi kontekstində və onlara dair rəyimizin formalaşdırdıqda əks etdirilmiş və biz bu məsələlərə dair ayrıca rəy vermirik. "Şərti müsbət rəy üçün əsaslar" və "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik" bölmələrində təsvir edilən məsələdən əlavə biz hesabatımızda məlumat veriləcək əsas audit məsələləri kimi aşağıda təsvir edilən məsələləri müəyyən etdik.

*[701 saylı BAS-a uyğun olaraq əsas audit məsələlərinin hər birinin təsviri]*

**Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyətləri**[62]

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1*[63]*]*

**Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri**

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1]*

**Digər qanun və qaydaların tələbləri haqqında hesabat**

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1]*

Müstəqil auditorun bu hesabatı ilə nəticələnən auditdə tapşırıq üzrə tərəfdaş [*adı*].

*[Konkret yurisdiksiyadakı tələblərdən asılı olaraq, auditor təşkilatının adından, auditorun öz adından və ya hər ikisinin adından imza]*

*[Auditorun ünvanı]*

*[Tarix]*

[62] Və ya konkret yurisdiksiyadakı hüquqi çərçivənin kontekstinə uyğun olan başqa terminlər

[63] 700 saylı (düzəliş edilmiş) BAS-ın 34 və 39-cu bəndlərinə uyğun olaraq bütün müəssisələr auditor hesabatına maliyyə hesabatları üzrə məsul şəxslərin və auditorun müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli müvafiq məsuliyyətlərini təsvir edən mətn daxil etməlidir.

**Nümunə 6 – Əhəmiyyətli qeyri-müəyyənlik mövcud olduqda və maliyyə hesabatlarında açıqlanmadıqda, listinq subyekti olmayan müəssisənin mənfi rəyi ehtiva edən auditor hesabatı**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şərtlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyekti olmayan müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditi. Bu audit qrup auditi deyil (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilmir).**
- **Maliyyə hesabatları, Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (IASB) tərəfindən dərc edilmiş mühasibat uçotunun MHBS standartlarına (ümumi təyinatlı çərçivələrə) uyğun olaraq müəssisənin rəhbərliyi tərəfindən hazırlanmışdır.**
- **Audit tapşırığının şərtlərində 210 saylı BAS-da təsvir edilən maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti əks etdirilir.**
- **Auditə dair tətbiq edilən müvafiq etik normalar yurisdiksiyadakı tələblərdir.**
- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur. Maliyyə hesabatlarında əhəmiyyətli qeyri-müəyyənliklə bağlı zəruri açıqlamalar göstərilməmişdir. Mənfi rəy bildirilir, çünki açıqlamaların göstərilməməsinin maliyyə hesabatlarına təsiri əhəmiyyətli və nüfuzedicidir.**
- **Auditordan 701 saylı BAS-a uyğun olaraq əsas audit məsələləri barədə məlumat vermək tələb olunmur və o, bunu etmək qərarına gəlməmişdir.**
- **Auditor bütün digər məlumatları auditor hesabatının tarixinədək əldə etmiş və maliyyə hesabatlarına dair mənfi rəyin verilməsinə səbəb olan məsələ digər məlumatlara da təsir göstərir.**
- **Maliyyə hesabatlarına nəzarət üzrə məsul şəxslər ilə maliyyə hesabatlarının hazırlanması üzrə məsul şəxslər fərqlidir.**
- **Maliyyə hesabatlarının auditindən əlavə, auditorun yerli qanunvericiliklə tələb edilən digər hesabatvermə məsuliyyətləri də vardır.**

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

### Maliyyə hesabatlarının auditi haqqında hesabat[64]

**Mənfi rəy**

Biz ABC şirkətinin (şirkət) 31 dekabr 20X1-ci il tarixinə olan maliyyə vəziyyətinə dair hesabat və həmin tarixdə başa çatan il üçün məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat, habelə maliyyə hesabatlarına dair qeydlər, o cümlədən mühasibat uçotunun əsas prinsiplərinə dair məlumatlardan ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, hesabatımızın "Mənfi rəy üçün əsaslar" bölməsində qeyd olunan məlumatların göstərilməməsi səbəbindən, müşayiət edən maliyyə hesabatları, Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc edilmiş mühasibat uçotunun MHBS standartlarına əsasən, 31 dekabr 20X1-ci il tarixinə olan şirkətin maliyyə vəziyyətini, həmin tarixdə başa çatan il üçün maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini ədalətli şəkildə əks etdirmir (*və ya düzgün və ədalətli təsəvvür yaratmır*).

**Mənfi rəy üçün əsaslar**

Şirkətin maliyyələşdirmə sövdələşmələrinin müddəti başa çatmış və ödənilməmiş məbləğ 31 dekabr 20X1-ci il tarixində ödənilməli idi. Şirkət müqavilənin yenidən bağlanmasına və ya yeni maliyyələşdirmənin əldə edilməsinə nail ola bilməmişdir. Bu vəziyyət göstərir ki, şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur. Maliyyə hesabatlarında bu məsələ yetərli şəkildə açıqlanmır.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq apardıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz hesabatımızın "Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri" bölməsində daha ətraflı əks etdirilir. Biz [*yurisdiksiyadakı*] maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq şirkətin asılı deyilik və biz etika ilə bağlı digər məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları mənfi rəyimizi əsaslandırmaq üçün yetərli və müvafiqdir

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik**

Hesabatımızın "Mənfi rəy üçün əsaslar" bölməsində təsvir edildiyi kimi, maliyyə hesabatlarında açıqlanmayan əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur.

Bütövlükdə maliyyə hesabatlarının auditi baxımından və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

**Digər məlumatlar [və ya müvafiq hallarda digər başlıq, məsələn, "Maliyyə hesabatları və onlara dair auditor hesabatından fərqli məlumatlar"]**

*[720 saylı (düzəliş edilmiş) BAS-da əks etdirilən hesabatvermə tələblərinə uyğun hesabatvermə – bax: 720 saylı (düzəliş edilmiş) BAS-ın 2 saylı Əlavəsi, Nümunə 7. Nümunə 7-dəki "Digər məlumatlar" bölməsinin sonuncu paraqrafı elə uyğunlaşdırılmalıdır ki, mənfi rəyin verilməsinə səbəb olan, digər məlumatlara da təsir*

[64] "Digər qanun və qaydaların tələbləri haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədiyi hallarda "Maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur

*edən xüsusi məsələ də təsvir edilsin.]*

**Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyətləri** [65]

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1*[66]*]*

**Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri**

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1]*

**Digər qanun və qaydaların tələbləri haqqında hesabat**

*[700 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq hesabatvermə - bax: 700 saylı (düzəliş edilmiş) BAS, Nümunə 1]*

*[Konkret yurisdiksiyadakı tələblərdən asılı olaraq, auditor təşkilatının adından, auditorun öz adından və ya hər ikisinin adından imza]*

*[Auditorun ünvanı]*

*[Tarix]*

---

[65] Və ya konkret yurisdiksiyadakı hüquqi çərçivənin kontekstinə uyğun olan başqa terminlər

[66] 700 saylı (düzəliş edilmiş) BAS-ın 34 və 39-cu bəndlərinə uyğun olaraq bütün müəssisələr auditor hesabatına maliyyə hesabatları üzrə məsul şəxslərin və auditorun müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli müvafiq məsuliyyətlərini təsvir edən mətn daxil etməlidir

# 570 saylı (2024-CÜ İLDƏ DÜZƏLİŞ EDİLMİŞ) BAS-DAN İRƏLİ GƏLƏN DİGƏR STANDARTLARA EDİLƏN MÜVAFİQ VƏ MƏNTİQLİ DÜZƏLİŞLƏR

**Qeyd**: Aşağıda təqdim olunanlar 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-ın təsdiqlənməsi nəticəsində digər Beynəlxalq Audit Standartlarına (BAS) edilən müvafiq düzəlişlərdir. Bu düzəlişlər 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS ilə eyni vaxtda qüvvəyə minəcək və düzəliş edilmiş BAS-ların təsdiq edilmiş ən son versiyalarında qeyd edilən dəyişikliklər kimi göstərilmişdir. Bu düzəlişlərdəki son qeyd nömrələri düzəliş edilmiş BAS-lara uyğun gəlmir və həmin BAS-lara istinad edilməlidir.

## 200 saylı BAS
## "MÜSTƏQİL AUDİTORUN ÜMUMİ MƏQSƏDLƏRİ VƏ AUDİTİN BEYNƏLXALQ AUDİT STANDARTLARINA UYĞUN APARILMASI"

…

## Praktik tətbiq və digər izahedici materiallar

…

**Yetərli müvafiq audit sübutları və audit riski** (İst: Paraq. 5 və 17)

…

*Auditin tərkib məhdudiyyətləri*

…

Auditin tərkib məhdudiyyətlərinə təsir edən digər aspektlər

A56. Bir sıra təsdiqləmələr və predmet sahələri üçün tərkib məhdudiyyətlərinin auditorun əhəmiyyətli təhrifləri aşkar etmək bacarığına potensial təsiri xüsusilə vacib əhəmiyyət kəsb edir. Bu cür təsdiqləmələrə və predmet sahələrinə aşağıdakılar aiddir:

- Dələduzluq, xüsusilə yuxarı rəhbərliyin iştirakı ilə və ya gizli sövdələşmə olduqda. (Əlavə informasiya üçün bax: 240 saylı BAS).
- Əlaqəli tərəflərlə qarşılıqlı fəaliyyət və əməliyyatlar haqqında informasiyaların mövcudluğu və tamlığı. (Əlavə informasiya üçün bax: 550 saylı BAS).[1]
- Qanun və qaydalara riayətetməmə faktları. (Əlavə informasiya üçün bax: 250 saylı BAS).[2]
- Müəssisənin fəaliyyətinin dayandırmasına səbəb ola bilən gələcək hadisə və ya şəraitlər. (Əlavə informasiya üçün bax: 570 saylı (<u>2024-cü ildə</u> düzəliş edilmiş) BAS)[3].

Müvafiq BAS-lar tərkib məhdudiyyətlərinin təsirini aradan qaldırmağa yardım edəcək konkret audit prosedurlarını müəyyən edir.

…

[1] 550 saylı "Əlaqəli tərəflər" BAS.
[2] 250 saylı "Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması" BAS.
[3] 570 saylı (<u>2024-cü ildə</u> düzəliş edilmiş) "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" BAS.

## 210 saylı BAS
## "AUDİT TAPŞIRIĞI ŞƏRTLƏRİNİN RAZILAŞDIRILMASI"

…

## Praktik tətbiq və digər izahedici materiallar

…

**Audit tapşırığının yerinə yetirilməsi şərtlərinə dair razılaşma**

…

*Auditin keçirilməsinə dair məktub-saziş və yazılı razılaşmanın digər forması*[4] (İst: Paraq. 10–11)

…

Auditin keçirilməsinə dair məktub-sazişin forma və məzmunu

A24. Auditin keçirilməsinə dair məktub-sazişin forma və məzmunun müxtəlif müəssisələrdə müxtəlif cür ola bilər. Auditin keçirilməsinə dair məktub-sazişə auditorun məsuliyyəti barədə daxil edilmiş müddəalar 200 saylı BAS-la əsaslandırıla bilər.Bu BAS-ın 6(b) və 12-ci paraqraflarında rəhbərliyin məsuliyyəti təsvir edilir. 10-cu paraqrafın tələb etdiyi məsələlərdən əlavə, auditin keçirilməsinə dair məktub-sazişdə aşağıdakı müddəalara istinad edilə bilər, məsələn: tətbiq olunan qanun və qaydalara, BAS-lara, etik normalara və auditorun sadiq qaldığı peşəkar qurumların digər təlimatlarına istinadlar daxil olmaqla, auditin əhatə dairəsinin müəyyən edilməsi.

- Audit tapşırığının nəticələrinin yekunları barədə istənilən digər çatdırılma formasının müəyyən edilməsi.
- ~~Auditorun auditor hesabatında 701 saylı BAS-a[6] uyğun əsas audit məsələləri barədə məlumat vermək zərurəti.~~
- Audit düzgün planlaşdırılaraq BAS-lara uyğun şəkildə aparılmış olsa belə, audit üzrə tərkib məhdudiyyətləri və daxili nəzarət sistemi üzrə tərkib məhdudiyyətləri üzündən bəzi əhəmiyyətli təhriflərin aşkar edilməməsi ilə bağlı qaçılmaz riskin mövcud olması faktının təsvir edilməsi.
- Tapşırıq qrupunun tərkibi də daxil olmaqla, auditin planlaşdırılması və yerinə yetirilməsi üzrə əldə edilmiş razılaşmalar.
- Rəhbərliyin yazılı təsdiqləmələr verməsi ilə bağlı tələb (həmçinin, bax: A13 paraqrafı).
- Rəhbərliyin ona məlum olan maliyyə hesabatlarının hazırlanmasına aid bütün məlumatlardan istifadə etmək imkanını təmin etməsi, o cümlədən rəhbərliyin açıqlamalara

[4] Növbəti paraqraflarda auditin keçirilməsinə dair məktub-sazişə edilən istinad barədə istənilən xatırlatma auditin keçirilməsinə dair məktub-sazişə və ya müvafiq formalı digər yazılı razılaşmaya edilən istinad kimi götürülməlidir.

~~[6] 701 saylı BAS, "Sərbəst auditor hesabatında əsas audit məsələləri haqqında məlumatvermə".~~

aid məlumatlardan istifadə etmək imkanının təmin etməsi ilə bağlı tələb.

- Auditorun auditi təklif edilmiş vaxt qrafikinə uyğun tamamlaya bilməsinə imkan yaratmaq üçün maliyyə hesabatının layihəsini, o cümlədən onların hazırlanmasına aid olan, baş kitabdan və ya köməkçi mühasibat jurnallarından əldə edilmiş bütün məlumatları (o cümlədən açıqlamaların hazırlanmasına aid olan bütün münasib məlumatları)[7] və digər əlaqəli məlumatlar mövcud olduğu halda, onları auditora vaxtında təqdim etməyə rəhbərliyin razılıq verməsi.

- Auditoru maliyyə hesabatlarına təsir göstərə bilən və rəhbərliyin özünün auditorun hesabat təqdim etdiyi tarixdən başlayaraq maliyyə hesabatının dərc edildiyi tarixə qədərki dövr ərzində xəbər tuta bildiyi faktlar barədə məlumatlandırmağa rəhbərliyin razılıq verməsi.

- Qonorarların və istənilən ödəniş mexanizmlərinin hesablanmasının əsaslarının təsvir edilməsi.

- Rəhbərliyə auditin keçirilməsinə dair məktub-sazişin qəbul edilməsi barədə təsdiqləmə və onlarda göstərilmiş tapşırığın yerinə yetirilməsi şərtlərinə razılaşma tələbi.

- Rəhbərliyin maliyyə hesabatlarının təsdiq edildiyi tarixdən etibarən ən azı on iki aylıq dövrü əhatə edən müəssisənin fəaliyyətinin fasiləsizliyinin qiymətləndirməsini təqdim edəcəyi ehtimalı.[8]

- Auditorun öz hesabatında 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsinin auditor tərəfindən necə dəyərləndirildiyini təsvir etmək tələbləri.[9]

- Auditorun öz hesabatında 701 saylı BAS-a uyğun olaraq əsas audit məsələləri barədə məlumat verməsi tələbi.[10]

…

**Əlavə 1**

(İst: Paraq. A24–A26)

## Audit tapşırığı üzrə məktub-sazişin nümunəsi

…

*[Auditorun öhdəlikləri]*

Audit beynəlxalq audit standartlarına (BAS) uyğun aparılacaq. Göstərilən standartlara uyğun olaraq, biz etik normalara riayət etməliyik. Audit aparan zaman biz BAS-lara uyğun olaraq peşəkar mühakimə yürütməliyik və peşəkar inamsızlıq nümayiş etdirməliyik. Biz həmçinin:

…

- Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsiz aparılma prinsipinin istifadə edilməsinin məqsədəuyğunluğunun və əldə edilmiş audit sübutları əsasında şirkətin fəaliyyətinin fasiləsiz davam etdirmək imkanını əhəmiyyətli dərəcədə şübhə altına qoya bilən hadisələrlə və ya

[7] 720 saylı (düzəliş edilmiş) "Digər məlumatlar üzrə auditorun məsuliyyəti" BAS-da müəyyən edildiyi qaydada.
[8] Bax: 570 saylı (2024-cü ildə düzəliş edilmiş) "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" BAS, 21-ci paraqraf.
[9] 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS, 34(b)(ii) və 35(b) paraqrafları.
[10] 701 saylı "Müstəqil auditorun hesabatında əsas audit məsələləri haqqında məlumatvermə" BAS

şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarırıq və hesabat veririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması barədə nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqət cəlb etməliyik, bu cür açıqlamalar qeyri-dəqiq olduğu halda isə fərqli rəy verməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş sübutlara əsaslanır. Bununla belə, sonrakı hadisələr və ya şəraitlər şirkəti fasiləsiz fəaliyyətini dayandırmağa məcbur edə bilər.

…

Biz auditi [rəhbərlik və müvafiq hallarda idarəetməyə məsul şəxslərin][11] aşağıdakı öhdəlikləri qəbul və dərk etməsinə əsaslanaraq aparacağıq:

(a) …

(b) …

(c) Bizi aşağıdakılarla təmin etməyə görə:[12]

(i) Maliyyə hesabatlarının hazırlanmasına aidiyyəti olmasından [rəhbərliyin] xəbərdar olduğu bütün informasiyalara, məsələn, qeydlər, sənədlər və digər vasitələrdən istifadə etmək imkanı;

(ii) Bizim auditi aparmaq məqsədilə [rəhbərlikdən] tələb edə biləcəyimiz əlavə informasiya, məsələn, maliyyə hesabatlarının təsdiq edildiyi tarixdən etibarən ən azı on iki aylıq dövrü əhatə edən müəssisənin fəaliyyətinin fasiləsizliyinin qiymətləndirilməsi; habelə

(iii) Müəssisə daxilində audit sübutları əldə etmək üçün zəruri hesab etdiyimiz şəxslərlə məhdudiyyətsiz əlaqə.

Audit gedişində biz [rəhbərlikdən və müvafiq hallarda idarəetməyə məsul şəxslərdən] auditlə bağlı bizim ünvanımıza səsləndirilmiş mülahizələrə dair yazılı təsdiqləmə tələb edəcəyik.

…

## 220 saylı (DÜZƏLİŞ EDİLMİŞ) BAS

## "MALİYYƏ HESABATLARI AUDİTİNİN KEYFİYYƏTİNİN İDARƏ EDİLMƏSİ"

…

## Praktik tətbiq və digər izahedici materiallar

…

**Tapşırığın yerinə yetirilməsi**

…

Rəhbərlik, nəzarət və təhlil (İst: Paraq. 30)

…

Tapşırıq üzrə tərəfdaşın təhlili (İst: Paraq. 30-34)

…

A92. Tapşırıq üzrə tərəfdaş tapşırıq qrupu tərəfindən əhəmiyyətli mühakimələr yürüdülən sahələrin müəyyən edilməsi üçün peşəkar mühakimə yürüdür. Şirkətin siyasət və ya prosedurları adətən əhəmiyyətli mühakimələrin olması gözlənilən müvafiq məsələləri müəyyən edə bilər. Audit tapşırığı ilə

[11] Terminlərdən vəziyyətə uyğun istifadə edilməlidir.
[12] Rəhbərliyin əhatə edilə bilən öhdəliklərinə aid digər məsələlərin nümunələrinə paraqraf A24-də baxın

əlaqəli əhəmiyyətli mühakimələrə tapşırığın başlanması və icrası üçün ümumi audit strategiyası və planı, habelə tapşırıq qrupunun əldə etdiyi ümumi nəticələr ilə bağlı məsələlər daxil ola bilər, məsələn:

- Tapşırığın planlaşdırılması ilə bağlı məsələlər, məsələn, əhəmiyyətliliyin müəyyən edilməsi ilə bağlı məsələlər.
- Tapşırıq qrupunun tərkibi, o cümlədən:
    - İxtisaslaşdırılmış mühasibat uçotu və ya audit sahəsində təcrübəsi olan heyət;
    - Xidmətlər mərkəzlərinin heyətinin istifadə edilməsi.
- Auditorun ekspertinin cəlb edilməsi barədə qərar, o cümlədən kənar ekspertin cəlb edilməsi haqqında qərar.
- Qəbul və davamlılıq zamanı əldə edilən məlumatların və bu məlumatlara təklif edilən cavab tədbirlərinin tapşırıq qrupu tərəfindən yoxlanılması.
- Tapşırıq qrupu tərəfindən risklərin qiymətləndirilməsi, o cümlədən tərkib riskləri amillərinin nəzərdən keçirilməsi və tərkib riskinin qiymətləndirilməsi üçün tapşırıq qrupu tərəfindən əhəmiyyətli mühakimənin yürüdülməsi tələb edilən vəziyyətlər.
- Tapşırıq qrupu tərəfindən əlaqəli tərəflərlə əlaqələr, əməliyyatlar və açıqlamaların nəzərdən keçirilməsi.
- Tapşırıq qrupu tərəfindən tapşırığın əhəmiyyətli sahələri üzrə həyata keçirilən prosedurların nəticələri, məsələn, müəyyən uçot qiymətləndirmələri, uçot siyasətləri və ya fəaliyyətin fasiləsizliyi ehtimalları ilə bağlı nəticələr.
- Tapşırıq qrupu tərəfindən ekspertlərin yerinə yetirdikləri işin və ondan əldə edilən nəticələrin qiymətləndirilməsi.
- Qrup auditlərində:
    - Təklif olunan qrup auditinin ümumi strategiyası və qrup auditinin plan;
    - Bölmə auditorlarının cəlb edilməsinə dair, o cümlədən onlara necə rəhbərlik və nəzarət edilməsi, habelə onların işinin necə təhlil edilməsi ilə bağlı qərar; habelə
    - Bölmə auditorları tərəfindən yerinə yetirilən işin və ondan əldə edilən nəticələrin qiymətləndirilməsi.
- Ümumi audit strategiyasına və audit planına təsir edən məsələlər necə həll edilmişdir.
- Tapşırıq zamanı müəyyən edilən təshih edilmiş və təshih edilməmiş təhriflərin əhəmiyyəti və xüsusiyyəti.
- Təklif olunan auditor rəyi və auditor hesabatında bildiriləcək məsələlər, məsələn, əsas audit məsələləri və ya <u>müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli məsələlər</u>. ~~“Fəaliyyətin fasiləsizliyi ehtimalı ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik” paraqrafı.~~

…

## 230 saylı BAS

## “AUDITİN SƏNƏDLƏŞDİRİLMƏSİ”

…

## Praktik tətbiq və digər izahedici materiallar

…

**Yerinə yetirilmiş audit prosedurlarının və əldə edilmiş audit sübutlarının sənədləşdirilməsi**

…

Mühüm məsələlərin və əlaqədar əhəmiyyətli peşəkar mühakimələrin sənədləşdirilməsi (İst: Paraq. 8(c))

…

A10. 8-ci paraqrafa uyğun olaraq, peşəkar mühakimədən istifadə ilə əlaqədar auditin sənədləşdirməsinin hazırlanması üçün məqsədəuyğun sayılan hallarla bağlı bəzi misallara, məsələ və mühakimələrin əhəmiyyətli olduğu təqdirdə, aşağıdakılar daxildir:

- Hər hansı bir tələb auditorun müəyyən informasiya və ya amilləri "nəzərə almalı" olmasını və konkret audit tapşırığı kontekstində bunun əhəmiyyətli olmasını təmin etdiyi zaman auditorun qənaəti üçün məntiqi əsas.
- Rəhbərlik tərəfindən yürüdülən subyektiv mühakimələrin, məsələn mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipi ilə əlaqəli rəhbərliyin yürütdüyü mühakimələrin əsaslılığına (məsələn, əhəmiyyətli uçot qiymətləndirmələrinin əsaslılığına) dair auditorun gəldiyi qənaətin məntiqi əsası.[13]
- Auditorun uçot qiymətləndirməsinin və əlaqəli açıqlamaların maliyyə hesabatlarının tətbiq olunan çərçivələri baxımından uyğun olub-olmamasını və ya təhrif olunub-olunmamasının dəyərləndirməsinin əsası.
- Auditin aparılması gedişində müəyyən olunmuş və auditorun bu sənədin həqiqiliyinə inanmamasına səbəb olmuş şərtlərə cavab olaraq əlavə araşdırmanın həyata keçirilməsi (məsələn, ekspertdən və ya təsdiqetmə prosedurlarından məqsədəuyğun istifadə edilməsi) zamanı auditorun sənədin əsilliyi barədə çıxardığı nəticələrin məntiqi əsası.
- 710 saylı BAS[14] tətbiq edildikdə auditorun əsas audit məsələləri barədə rəyi və ya əsas audit məsələlərinin olmaması barədə rəyi haqqında məlumat verilməlidir.

…

## Əlavə

(İst: Paraq. 1)

## Digər BAS-larda auditin sənədləşdirilməsinə dair xüsusi tələblər

Bu Əlavədə digər BAS-ların sənədləşdirilməyə dair xüsusi tələbləri əks etdirən Paraqrafları müəyyən edilir. Bu siyahı BAS-lardakı tələbləri, müvafiq Praktik tövsiyələri və digər izahedici materialların öyrənilməsi zərurətini əvəz etmir.

- 210 saylı "Audit tapşırığı şərtlərinin razılaşdırılması" BAS, 10-12-ci paraqraflar
- 220 saylı (düzəliş edilmiş) "Maliyyə hesabatları auditinin keyfiyyətinin idarə edilməsi" BAS, 41-ci paraqraf
- 240 saylı "Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti" BAS, 45-48-ci paraqraflar
- 250 saylı (düzəliş edilmiş) "Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması" BAS, 30-cu paraqraf
- 260 saylı (düzəliş edilmiş) "İdarəetməyə məsul şəxslərlə əlaqə" BAS, 24-cü paraqraf
- 300 saylı "Maliyyə hesabatlarının auditinin planlaşdırılması" BAS, 12-ci paraqraf
- 315 saylı (2019-cu ildə düzəliş edilmiş) "Əhəmiyyətli təhriflər riskinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi" BAS, 38-ci paraqraf
- 320 saylı "Auditin planlaşdırılmasında və həyata keçirilməsində əhəmiyyətlilik" BAS, 14-cü paraqraf
- 330 saylı "Qiymətləndirilmiş risklərə qarşı auditorların cavab tədbirləri" BAS, 28-30-cu paraqraflar

[13] 570 saylı (2024-cü ildə düzəliş edilmiş) "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" BAS
[14] 701 saylı "Müstəqil auditorun hesabatında əsas audit məsələləri haqqında məlumatvermə" BAS.

- 450 saylı "Audit zamanı müəyyən edilmiş təhriflərin dəyərləndirilməsi" BAS, 15-ci paraqraf
- 540 saylı (düzəliş edilmiş) "Uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi" BAS, 39-cu paraqraf
- 550 saylı "Əlaqəli tərəflər" BAS, 28-ci paraqraf
- 570 saylı (2024-cü ildə düzəliş edilmiş) "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" BAS, 44-cü paraqraf
- 600 saylı "Xüsusi mülahizələr – qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)" BAS, 59-cu paraqraf
- 610 saylı (2013-cü ildə düzəliş edilmiş) "Daxili auditorların işindən istifadə edilməsi" BAS, 36-37-ci paraqraflar
- 720 saylı (düzəliş edilmiş) "Digər məlumatlar üzrə auditorun məsuliyyəti" BAS, 25-ci paraqraf

## 250 saylı (DÜZƏLİŞ EDİLMİŞ) BAS

## "MALİYYƏ HESABATLARININ AUDİTİ ZAMANI

## QANUN VƏ QAYDALARIN NƏZƏRƏ ALINMASI"

…

### Tələblər

…

**Qanun və qaydaların tələblərinə aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə barədə məlumatvermə və məruzetmə**

…

*Qanun və qaydaların tələblərinə aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə barədə müəssisədən kənar müvafiq səlahiyyətli orqana məruzəetmə*

29. Əgər auditor qanun və qaydalara riayətetməmə halını aşkar etmişdirsə və ya bundan şübhələnərsə, o, aşağıdakıları müəyyən etməlidir: (İst: Paraq. A28-A34)

    (a) qanun, qayda və ya müvafiq etik normalar üzrə auditordan müəssisədənkənar müvafiq səlahiyyətli orqana hesabat vermək tələb olunurmu.

    (b) qanun, qayda və ya müvafiq etik normalar yaranmış vəziyyətdə müəssisədənkənar müvafiq səlahiyyətli orqana məruzəetmə üzrə məsuliyyətləri və ya hüquqları müəyyən edirmi.

…

### Praktik tətbiq və digər izahedici materiallar

…

**Qanun və qaydaların tələblərinə riayətetmənin auditor tərəfindən nəzərə alınması**

…

*Tələblərə riayətetməmə faktlarını müəyyən etmək üçün prosedurlar: digər qanun və qaydalar* (İst: Paraq. 6

və 15)

A13. Bəzi digər qanun və qaydalar müəssisənin fəaliyyətinə əhəmiyyətli təsir göstərdiyinə görə, auditor tərəfindən onlara xüsusi diqqət yetirilməsi tələb oluna bilər (6(b) paraqrafında təsvir olunduğu kimi). Müəssisənin fəaliyyətinə əhəmiyyətli təsirə malik olan qanun və qaydalara riayətetməmə müəssisənin fəaliyyətini dayandırmasına səbəb ola bilər və ya fəaliyyətin fasiləsizliyini davam etdirmək qabiliyyətini sual altına ala bilər.[15] Məsələn, müəssisənin lisenziyasına və ya hər hansı fəaliyyəti yerinə yetirmək üçün digər rəsmi icazənin tələblərinə riayətetməmə (məs., bank üçün kapitalın yetərliliyi və ya investisiya normativlərinə riayətetməmə) bu cür təsir göstərə bilər. Həmçinin, müəssisənin başlıca olaraq əməliyyat fəaliyyətinə aidiyyəti olan çoxlu qanun və qaydalar da mövcuddur ki, bunlar da səciyyəvi olaraq, maliyyə hesabatlarına təsir göstərmir və müəssisənin maliyyə hesabatlılığına aid informasiya sistemləri tərəfindən nəzərə alınmır.

…

**Aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə barədə məlumatvermə və məruzetmə**

…

*Aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə barədə müəssisədənkənar müvafiq səlahiyyətli orqana* **məruzetmə** *(İst: Paraq*. 29)

A28. Qanun və ya qaydaların tələblərinə aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə barədə müəssisədənkənar müvafiq səlahiyyətli orqana məruzəetmə aşağıdakı səbəblərdən yaranmış vəziyyətdə tələb oluna və ya məqsədəuyğun ola bilər:

(a) Qanun, qaydalar və ya müvafiq etik normalar ilə auditordan hesabat verməк tələb olunur (bax: A29 paraqrafı);

(b) Auditor müəyyən etmişdir ki, məruzəetmə müvafiq etik normalara uyğun olaraq aşkar olunmuş və ya ehtimal edilən riayətetməməyə müvafiq cavab tədbiridir (bax: A30 paraqrafı); yaxud

(c) Qanun, qaydalar və ya müvafiq etik normalar ilə auditora bunu etmək hüququ verilir (bax: A31 paraqrafı).

…

A31. Hətta qanun, qaydalar və ya müvafiq etik normalara aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə barədə məruzəetməni əks etdirən tələblər daxil edilmədikdə, onlar auditora aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə barədə müəssisədənkənar müvafiq səlahiyyətli orqana məruzə etmək hüququnu verə bilər. Məsələn, maliyyə qurumlarının maliyyə hesabatlarının auditini apararkən qanun və ya qaydalar üzrə auditorun qanun və qaydaların tələblərinə aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə kimi məsələləri səlahiyyətli nəzarət orqanı ilə müzakirə etmək hüququ ola bilər.

…

## 260 saylı (DÜZƏLİŞ EDİLMİŞ) BAS

## "İDARƏETMƏYƏ MƏSUL ŞƏXSLƏRLƏ ƏLAQƏ"

…

## Praktik tətbiq və digər izahedici materiallar

…

[15] Bax: 570 saylı (2024-cü ildə düzəliş edilmiş) "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" BAS

**Nəzərə çatdırılmalı məsələlər**

…

*Auditin mühüm nəticələri (İst: Paraq. 16)*

…

Audit zamanı təsadüf edilmiş əhəmiyyətli çətinliklər (İst: Paraq. 16(b))

A21. Audit zamanı təsadüf edilmiş mühüm çətinliklər aşağıdakı məsələləri əhatə edə bilər:

- Auditora audit prosedurlarını yerinə yetirmək üçün tələb olunan məlumatın təqdim edilməsində rəhbərliyin əhəmiyyətli ləngimələri, müəssisənin heyəti ilə əlaqə saxlamaq imkanının olmaması və ya rəhbərliyin bu cür məlumatı təqdim etməyə həvəs göstərməməsi.
- Auditi aparmaq üçün əsassız olaraq ayrılmış qısa müddət.
- Yetərli münasib audit sübutları əldə etmək üçün tələb olunan gözlənilməz böyük cəhdlər.
- Gözlənilən məlumatın əlçatan olmaması.
- Rəhbərliyin auditora qoyduğu məhdudiyyətlər.
- Auditorun tələb etdiyi zaman müəssisənin fəaliyyətdə olan müəssisə kimi davam etmək bacarığını qiymətləndirməyə və bu prosesi genişləndirməyə rəhbərliyin həvəs göstərməməsi.[16]

Bəzi şəraitlərdə bu cür çətinliklərə auditor rəyinin dəyişməsinə aparıb çıxaran audit həcminin məhdudiyyəti daxil ola bilər.[17]

…

Auditor hesabatının forma və məzmununa təsir edən şəraitlər (İst: Paraq. 16(d))

…

A24. BAS-ların tələblərinə uyğun olaraq əlavə məlumatların auditor hesabatına daxil olunması auditordan tələb olunduğu və ya auditorun başqa cür zəruri hesab etdiyi, habelə idarəetməyə məsul şəxslərə bu barədə xəbər vermək tələb olunduğu şəraitlərə, məsələn, aşağıdakılar daxildir:

- Auditor hesabatındakı rəydə 705 saylı (düzəliş edilmiş) BAS-ın tələblərinə uyğun dəyişiklik etməyi nəzərdə tutur.[18]
- 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-ın[19] tələblərinə uyğun müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli təhrifin olması barədə xəbər verilmişdir.
- Əsas audit məsələləri haqqında 701 saylı BAS-ın[20] tələblərinə uyğun məlumat verilmişdir.
- Auditor hesab edir ki, 706 (düzəliş edilmiş) BAS-ın[21] tələblərinə uyğun izahedici paraqraf və ya digər məsələlər paraqrafını daxil etmək lazımdır yaxud bu, digər BAS-ların tələblərinə əsasən tələb olunur.
- Auditor 720 saylı (düzəliş edilmiş) BAS-ın[22] tələblərinə uyğun sair məlumatlarda düzəliş edilməmiş təhriflərin olması barədə qənaətə gəlmişdir

Belə şəraitlərdə auditor hesab edə bilər ki, bu cür məsələlərin auditor hesabatında necə əks olunması ilə bağlı müzakirələri asanlaşdırmaq üçün idarəetməyə məsul şəxslərə auditor hesabatının layihəsini təqdim etmək lazımdır.

---

[16] Bax: 570 saylı (2024-cü ildə düzəliş edilmiş) "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" BAS, 42(e) paraqrafı
[17] 705 saylı (düzəliş edilmiş) "Müstəqil auditorun hesabatında fərqli rəylər" BAS
[18] 705 saylı (düzəliş edilmiş) BAS, 30-cu paraqraf
[19] 570 saylı (2024-cü ildə düzəliş edilmiş) ~~"Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı"~~ BAS, 42(f) ~~25(d)~~ paraqrafı
[20] 701 saylı BAS, 17-ci paraqraf
[21] 706 saylı (düzəliş edilmiş) "Müstəqil auditorun hesabatında izahedici paraqraf və digər məsələlər paraqrafı" BAS, 12-ci paraqraf
[22] 720 saylı (düzəliş edilmiş) "Digər məlumatlar üzrə auditorun məsuliyyəti" BAS, 18(a) paraqrafı

…

**Əlavə 1**

(İst: Paraq. 3)

## 1 saylı BKNS-də və digər BAS-larda idarəetməyə məsul şəxslərlə əlaqə barədə istinad edilən xüsusi tələblər

Bu əlavə 1 saylı BKNS-in[23] və digər BAS-ların xüsusi məsələlərin idarəetməyə məsul şəxslərə xəbər verilməsini tələb edən paraqrafları müəyyən edir. Bu siyahı BAS-lardakı tələbləri, müvafiq tətbiqi və izahedici materialları öyrənmək zərurətini aradan qaldırmır.

- 1 saylı “Maliyyə hesabatlarının auditini və təhlilini, habelə digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlərdə keyfiyyətə nəzarət” BKNS, 34(e) paraqrafı.
- 240 saylı “Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti” BAS, 22-ci, 39(c)(i) və 41-43-cü paraqraflar.
- 250 saylı “Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması” BAS, 15-ci, 20-ci və 23-25-ci paraqraflar.
- 265 saylı “Daxili nəzarətlə bağlı çatışmazlıqların idarəetməyə məsul şəxslərə və rəhbərliyə bildirilməsi” BAS, 9-cu paraqraf.
- 450 saylı “Audit zamanı müəyyən edilmiş təhriflərin dəyərləndirilməsi” BAS, 12-13-cü paraqraflar.
- 505 saylı “Kənar mənbədən təsdiqləmələr” BAS, 9-cu paraqraf.
- 510 saylı “İlk audit tapşırıqları - ilkin qalıqlar” BAS, 7-ci paraqraf.
- 540 saylı (düzəliş edilmiş) “Uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi” BAS, 38-ci paraqraf
- 550 saylı “Əlaqəli tərəflər” BAS, 27-ci paraqraf.
- 560 saylı “Sonrakı hadisələr” BAS, 7(b)-(c), 10(a), 13(b), 14(a) və 17-ci paraqraflar.
- 570 saylı (2024-cü ildə düzəliş edilmiş) “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı” BAS, 41–42-ci~~25~~ paraqraflar.
- 600 saylı (düzəliş edilmiş) “Xüsusi mülahizələr - qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)” BAS, 57-ci paraqraf.
- 610 saylı (2013-cü ildə düzəliş edilmiş) “Daxili auditorların işindən istifadə edilməsi”, 20-ci və 31-ci paraqraflar.
- 700 saylı (düzəliş edilmiş) “Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi”, 46-cı paraqraf.
- 701 saylı “Müstəqil auditorun hesabatında əsas audit məsələləri haqqında məlumatvermə” BAS, 17-ci paraqraf.
- 705 saylı (düzəliş edilmiş) “Müstəqil auditorun hesabatında fərqli rəylər” BAS, 12-ci, 14-cü, 23-cü və 30-cu paraqraflar.
- 706 saylı (düzəliş edilmiş) “Müstəqil auditorun hesabatında izahedici paraqraf və digər məsələlər paraqrafı” BAS, 12-ci paraqraf.
- 710 saylı “Müqayisəli məlumatlar: müqayisəli göstəricilər və müqayisəli maliyyə hesabatları” BAS, 18-ci paraqraf.
- 720 saylı (düzəliş edilmiş) “Digər məlumatlar üzrə auditorun məsuliyyəti” BAS, 17-19-cu paraqraflar.

…

[23] 1 saylı “Maliyyə hesabatlarının auditini və təhlilini, habelə digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlərdə keyfiyyətə nəzarət” BKNS

**315 saylı (2019-CU İLDƏ DÜZƏLİŞ EDİLMİŞ) BAS**

**"ƏHƏMİYYƏTLİ TƏHRİFLƏR RİSKİNİN**

**MÜƏYYƏNLƏŞDİRILMƏSİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ"**

…

## Praktik tətbiq və digər izahedici materiallar

…

**Riski qiymətləndirmə prosedurları və əlaqəli fəaliyyətlər** (İst: Paraq. 13-18)

A11. Müəyyən edilməli və qiymətləndirilməli olan əhəmiyyətli təhrif risklərinə həm dələduzluq, həm də səhv nəticəsində baş vermir. risklər daxildir və hər ikisi bu BAS-da əhatə olunur. Bununla belə, dələduzluq o dərəcədə əhəmiyyətlidir ki, dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhrif risklərini müəyyən etmək və qiymətləndirmək məqsədilə istifadə olunan məlumatları əldə etmək üçün riski qiymətləndirmə prosedurlarına və əlaqəli fəaliyyətlərə aid olan 240 saylı BAS-a əlavə tələblər və təlimat daxil edilmişdir.[24] Bundan əlavə, aşağıdakı BAS-larda müəyyən məsələlər və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsinə aid olan əlavə tələblər və təlimat təqdim edilir:

- uçot qiymətləndirmələrinə aid olan 540 saylı (düzəliş edilmiş) BAS[25];
- əlaqəli tərəflərlə münasibətlər və əməliyyatlara aid olan 550 saylı BAS;
- müəssisənin fəaliyyətinin fasiləsizlik ehtimalına aid olan 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS[26]; habelə
- qrup maliyyə hesabatlarına aid olan 600 saylı (düzəliş edilmiş) BAS[27].

…

Nəzarət mühitinin dəyərləndirilməsi (İst: Paraq 21(b))

…

Baş kitabdan və köməkçi mühasibat jurnallarından kənar əldə edilən məlumatlar

A138. Maliyyə hesabatlarında baş kitabdan və köməkçi mühasibat jurnallarından kənar əldə edilmiş məlumatlar ola bilər. Auditorun nəzərə ala biləcəyi bu cür məlumatların nümunələrinə aşağıdakıları aid etmək olar:

- Maliyyə hesabatlarındakı açıqlamalarla əlaqəli icarə müqavilələrindən əldə edilən məlumatlar.
- Maliyyə hesabatlarında açıqlanan, müəssisənin riski idarəetmə sistemi tərəfindən yaradılan məlumatlar.
- Maliyyə hesabatlarında açıqlanan, rəhbərliyin ekspertləri tərəfindən yaradılan ədalətli dəyər haqqında məlumatlar.
- Maliyyə hesabatlarında açıqlanan, modellərdən və ya maliyyə hesabatlarında tanınan və ya açıqlanan uçot qiymətləlndirmələrini hazırlamaq üçün istifadə edilən digər hesablamalardan əldə edilmiş məlumatlar, o cümlədən belə modellərdə istifadə edilən əsaslandırıcı məlumat və ehtimallara aid olan məlumatlar, məsələn:
    - o Aktivlərin etibarlılıq müddətinə təsir edən, müəssisə daxilində irəli sürülmüş ehtimallar; yaxud

[24] 240 saylı BAS, 12-27-ci paraqraflar
[25] 540 saylı (düzəliş edilmiş) "Uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi" BAS
[26] 570 saylı (2024-cü ildə düzəliş edilmiş) "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" BAS

- Müəssisənin nəzarətindən kənar amillərin təsir etdiyi məlumatlar, məsələn, faiz dərəcələri.

- Rəhbərlik tərəfindən alternativ fərziyyələrin nəzərə alınmasını əks etdirən, maliyyə modellərindən əldə edilmiş həssaslığın təhlili barədə maliyyə hesabatlarında açıqlanan məlumatlar. Müəssisənin vergi hesabatlarından və sənədlərindən əldə edilmiş, maliyyə hesabatlarında tanınan və ya açıqlanan məlumatlar.
  Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsini əsaslandırmaq üçün hazırlanan təhlillərdən əldə edilmiş, maliyyə hesabatlarında açıqlanan məlumatlar, məsələn, əgər mövcuddursa, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilməsi müəyyən edilmiş hadisələr və ya şəraitlər ilə əlaqəli açıqlamalar.[28]

…

Maliyyə hesabatı səviyyəsində əhəmiyyətli təhriflər riskinin müəyyən edilməsi və qiymətləndirilməsi

A195. Maliyyə hesabatı səviyyəsində əhəmiyyətli təhriflər riski birbaşa olaraq bütövlükdə maliyyə hesabatları ilə əlaqəli və potensial olaraq bir çox təsdiqləmələrə təsir edən risklərə aiddir. Bu cür risklər hökmən əməliyyatların kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar səviyyəsində xüsusi təsdiqləmələrlə müəyyən edilə bilən risklərə (məs., rəhbərliyin nəzarət vasitələrinə məhəl verməməsi riski) aid deyildir. Əksinə, onlar təsdiqləmə səviyyəsində, əhəmiyyətli təhriflər riskini artıra bilən şəraitləri əks etdirir. Müəyyən edilmiş risklərin maliyyə hesabatları ilə geniş şəkildə əlaqəli olub-olmadığının auditor tərəfindən dəyərləndirilməsi, auditorun maliyyə hesabatı səviyyəsində əhəmiyyətli təhrif risklərini qiymətləndirməsini əsaslandırır. Digər hallarda, bir sıra təsdiqləmələr də riskə həssas kimi müəyyən edilə bilər və buna görə də auditorun təsdiqləmə səviyyəsində əhəmiyyətli təhrif risklərini müəyyən etməsinə və qiymətləndirməsinə təsir göstərə bilər.

**Nümunə**:

Müəssisə əməliyyat itkiləri və likvidlik problemləri ilə üzləşir və hələ təmin edilməmiş maliyyələşdirmədən asılıdır. Belə vəziyyətdə, auditor rəhbərliyin mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin maliyyə hesabatı səviyyəsində əhəmiyyətli təhriflər riskini yaratdığı qənaətinə gələ bilər. Bu vəziyyətdə, mühasibat uçotu çərçivələrinin ləğvetmə prinsipi ilə tətbiq edilməsi lazım gələ bilər ki, bu da bütün təsdiqləmələrə geniş təsir göstərə bilər.

…

## Əlavə 1

(İst: Paraq. A61-A67)

## Müəssisə və onun biznes modeli barəsində anlayış əldə etmək üçün mülahizələr

…

**Müəssisənin biznes modelinin məqsədləri və əhatə dairəsi**

…

4. Biznes riski əməliyyatların kateqoriyaları, hesab qalıqları və açıqlamalar üçün təsdiqləmələr səviyyəsində və ya maliyyə hesabatları səviyyəsində bilavasitə əhəmiyyətli təhrif riski ilə nəticələnə bilər. Məsələn, daşınmaz əmlak bazarında qiymətlərin əhəmiyyətli dərəcədə aşağı düşməsindən irəli gələn biznes riski, orta müddətli

[28] 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS, A25

daşınmaz əmlakla təmin edilmiş kreditlər verən şəxs üçün qiymətləndirmə təsdiqləməsi ilə əlaqəli əhəmiyyətli təhrif riskini artıra bilər. Bununla belə, eyni risk, xüsusən də kreditləri üzrə xidmət müddəti ərzində kredit itkilərinin əsas riskini artıran ağır iqtisadi böhranla birlikdə, daha uzunmüddətli nəticələrə də səbəb ola bilər. Nəticədə yaranan kredit itkilərinə xalis məruzqalma, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisə və ya şəraitin mövcud olmasına dəlalət edə bilər. Belə olduğu halda, bu, mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğuna dair rəhbərliyin və auditorun nəticəsinə və əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair qənaətinə təsir göstərə bilər. Buna görə də, biznes riskinin əhəmiyyətli təhrif riskinə səbəb olub-olmaması müəssisənin şəraiti nəzərə alınmaqla nəzərdən keçirilir. Əhəmiyyətli təhrif risklərinin mövcudluğuna səbəb ola bilən hadisə və şəraitlərə dair nümunələr **Əlavə 2-də** verilmişdir.

…

## Praktik tətbiq və digər izahedici materiallar

…

**Düzəliş edilməmiş təhriflərin təsirinin dəyərləndirilməsi** (İst: Paraq. 10–11)

…

A17. Əlavə olaraq, keyfiyyətlə bağlı açıqlamadakı hər bir təhrif müvafiq açıqlamaya (açıqlamalara) təsirini, eləcə də bütövlükdə maliyyə hesabatlarına ümumi təsirini dəyərləndirmək üçün nəzərdən keçirilir. Keyfiyyətlə bağlı açıqlamadakı təhrifin (təhriflərin) maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və müəssisənin konkret şəraiti kontekstində əhəmiyyətli olub-olmadığının müəyyən etmək üçün peşəkar mühakimə yürüdülməlidir. Bu cür təhriflərin əhəmiyyətli ola biləcəyi nümunələrə aşağıdakılar daxildir:

- Sığorta və bank fəaliyyəti ilə məşğul olan müəssisələrdə kapitalın idarəedilməsi üzrə məqsədlər, prosedurlar və proseslər haqqında məlumatların yanlış və ya natamam olması.
- Dağ-mədən işləri ilə məşğul olan müəssisədə qiymətdən düşmə zərəri ilə nəticələnən hadisələr və ya şəraitlər (məs., metala və ya mala olan tələbatın uzun müddət ərzində əhəmiyyətli dərəcədə azalması) haqqında məlumatın olmaması.
- Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyəti barədə açıqlamaların yetərli olmaması.[29]
- Maliyyə vəziyyəti haqqında hesabatda, məcmu gəlir haqqında hesabatda, kapitalda dəyişikliklər haqqında hesabatda və ya pul vəsaitlərinin hərəkəti haqqında hesabatda əhəmiyyətli maddəyə aid uçot siyasətinin yanlış əks etdirilməsi.
- Beynəlxalq ticarət fəaliyyəti ilə məşğul olan müəssisədə mübadilə məzənnəsinin həssaslığının qeyri-dəqiq təsviri.

…

# 500 saylı BAS

# “AUDİT SÜBUTLARI”

## Giriş

### Bu BAS-ın əhatə dairəsi

1. Bu beynəlxalq audit standartı (BAS) maliyyə hesabatlarının auditində audit sübutlarının nədən ibarət olduğunu izah edir və auditor rəyini əsaslandırmaq üçün kafi nəticələr çıxara bilmək məqsədilə yetərli münasib audit sübutları əldə etmək üçün audit prosedurlarını planlaşdırıb yerinə yetirməklə bağlı

[29] 570 saylı (2024-cü ildə düzəliş edilmiş) “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı” BAS, 32-33-cü paraqraf

auditorun məsuliyyətindən bəhs edir.

2. Bu BAS audit zamanı əldə edilmiş bütün audit sübutlarına şamil edilir. Digər BAS-lar auditin xüsusi aspektlərindən (məsələn, 315 saylı (2019-cu ildə düzəliş edilmiş) BAS[30]), xüsusi bir mövzu ilə əlaqədar olaraq əldə edilməli audit sübutlarından (məsələn, 570 saylı (2014-cü ildə düzəliş edilmiş) BAS[31]), audit sübutlarının əldə edilməsi üçün xüsusi prosedurlardan (məsələn, 520 saylı BAS[32]) və yetərli müvafiq audit sübutlarının əldə edilib-edilməməsinin qiymətləndirilməsindən (200 saylı BAS[33] və 330 saylı BAS[34]) bəhs edir.

…

## 510 saylı BAS

## "İLK AUDİT TAPŞIRIQLARI – İLKİN QALIQLAR"

…

### Praktik tətbiq və digər izahedici materiallar

…

**ƏLAVƏ**

(İst: Paraq A8)

### Auditorun hesabatında fərqli rəyi əks etdirən nümunələr

**Nümunə 1:**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şəraitlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyekti olmayan müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditi. Bu audit qrup auditi deyil (yəni, 600 saylı (düzəliş edilmiş) BAS[35] tətbiq edilmir.**

…

- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a[36] uyğun olaraq əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.[36]**

…

### MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

[30] 315 saylı (2019-cu ildə düzəliş edilmiş) "Əhəmiyyətli təhriflər riskinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi" BAS
[31] 570 saylı (2014-cü ildə düzəliş edilmiş) " Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" BAS
[32] 520 saylı "Analitik porsedurlar" BAS
[33] 200 saylı "Müstəqil auditorun ümumi məqsədləri və auditin beynəlxalq audit standartlarına uyğun aparılması" BAS
[34] 330 saylı "Qiymətləndirilmiş risklərə qarşı auditorların cavab tədbirləri" BAS
[35] 600 saylı (düzəliş edilmiş) "Xüsusi mülahizələr – qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)" BAS
[36] 570 saylı (2024-cü ildə düzəliş edilmiş) "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" BAS

## Maliyyə hesabatlarının auditi haqqında hesabat[37]

**Şərti müsbət rəy**

…

**Şərti müsbət rəy üçün əsaslar**

…

**Fəaliyyətin fasiləsizliyi ehtimalı**

*Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil*[38]

Bütövlükdə maliyyə hesabatlarının auditi baxımından və onunla bağlı rəyimizi formalaşdırdıqda, qənaətə gəldik ki, maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsi məqsədəuyğundur. Əldə edilmiş audit sübutlarına əsasən, şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlərlə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etmədik.

Nəticələrimiz auditor hesabatımızın tarixinə qədər əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

**Digər məsələ**

…

**Nümunə 2:**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şəraitlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyekti olmayan müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditi. Bu audit qrup auditi deyil (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilmir.**

…

- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq ~~müəssisənin fəaliyyətinin fasiləsizliyini fasiləsizliyinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli~~ əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

## Maliyyə hesabatlarının auditi haqqında hesabat[39]

[37] "Digər qanun və qaydaların tələbləri haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədiyi hallarda "Maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur.

[38] Bu əlavə yarımbaşlıq, auditor hesabatının "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölməsində əks olunan məsələlərin xüsusiyyəti barədə nəzərdə tutulan istifadəçilərin anlayışını artırmaq üçün faydalı ola bilər

[39] Digər qanun və qaydaların tələbləri haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədiyi hallarda "Maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur.

**Rəylər**

…

**Rəylər üçün əsaslar, o cümlədən maliyyə nəticələri və pul vəsaitlərinin hərəkəti haqqında şərti müsbət rəy üçün əsaslar**

…

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi**

*Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli heç bir qeyri-müəyyənlik mövcud deyil*[40]

Bütövlükdə maliyyə hesabatlarının auditi kontekstində və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik. Əldə edilən audit sübutlarına əsasən, şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etmədik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

…

**Digər məsələ**

…

## 540 saylı (DÜZƏLİŞ EDİLMİŞ) BAS
## “UÇOT QİYMƏTLƏNDİRMƏLƏRİNİN
## VƏ ƏLAQƏLİ AÇIQLAMALARIN AUDİTİ”

…

## Praktik tətbiq və digər izahedici materiallar

…

**Əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi** (İst: Paraq. 4, 16)

…

*Qiymətlədnirmədə qeyri-müəyyənlik (İst: Paraq*. 16(a))

…

A75. Bəzi hallarda uçot qiymətləndirməsi ilə bağlı qiymətləndirmədə qeyri-müəyyənlik müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilərn hadisələr və ya şəraitlərlə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin mövcudluğu ilə bağlı auditorun yürütdüyü peşəkar mühakiməsinə təsir göstərə bilər. 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-da[41] tələblər müəyyən edilir və belə vəziyyətlər üçün tövsiyələr verilir.

…

[40] Bu əlavə yarımbaşlıq, auditor hesabatının “Müəssisənin fəaliyyətinin fasiləsizliyi” bölməsində əks olunan məsələlərin xüsusiyyəti barədə nəzərdə tutulan istifadəçilərin anlayışını artırmaq üçün faydalı ola bilər.

[41] 570 saylı, (2024-cü ildə düzəliş edilmiş) “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı” BAS

**Rəhbərliyin mümkün qeyri-obyektivliyinin əlamətləri** (İst: Paraq. 32)

…

A135. Rəhbərliyin mümkün qeyri-obyektivliyinin əlamətləri auditorun riski qiymətləndirməsinin və müvafiq cavab tədbirlərinin uyğun olaraq qalması ilə bağlı gəldiyi qənaətə təsir göstərə bilər. Auditor həmçinin uçot qiymətləndirmələrinin hazırlanmasında rəhbərliyin yürütdüyü mühakimələrin məqsədəuyğunluğunu şübhə altına qoymaq zərurəti də daxil olmaqla, auditin digər aspektləri üçün nəticələri də nəzərdən keçirməli ola bilər[42]. Bundan əlavə, rəhbərliyin mümkün qeyri-obyektivliyinin əlamətləri 700 saylı (düzəliş edilmiş) BAS-da[43] müzakirə edildiyi kimi, bütövlükdə maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin olub-olmaması ilə bağlı auditorun qənaətinə təsir göstərə bilər.

…

## 560 saylı BAS

## “SONRAKI HADİSƏLƏR”

…

## Praktik tətbiq və digər izahedici materiallar

…

**Maliyyə hesabatlarının tarixi ilə auditor hesabatının tarixi arasında baş verən hadisələr**
(İst: Paraq. 6–9)

…

*Sorğu* (İst: Paraq. 7(b))

A9. Rəhbərliyə və müvafiq hallarda, idarəetməyə məsul şəxslərə ünvanlanmış maliyyə hesabatlarına təsir göstərən hər hansı sonrakı hadisələrin baş verib-verməməsi ilə əlaqədar sorğularda auditor ilkin və ya natamam məlumatlar əsasında uçotda əks etdirilmiş maddələrin cari vəziyyəti barədə məlumat tələb edə bilər, habelə aşağıdakı məsələlər haqqında ayrıca sorğular göndərə bilər:

- Yeni öhdəliklər, borclar və ya zəmanətlər rəsmiləşdirilibmi.
- Aktivlərin satılması və ya alınması həyata keçirilibmi, yaxud planlaşdırılıbmı.
- Kapitalın artırılması və ya, məsələn, yeni səhmlərin və ya istiqrazların emissiyası kimi borc alətlərinin buraxılışı həyata keçirilibmi, birləşmə, yaxud ləğvetmə prosedurları keçirilibmi (planlaşdırılıbmı).
- Hökumət tərəfindən hər hansı aktiv mənimsənilibmi və ya məsələn, yanğın, yaxud daşqın nəticəsində məhv edilibmi.

- Şərti öhdəliklərlə əlaqədar hər hansı hadisə baş veribmi.
- Hər hansı bir qeyri-adi mühasibat düzəlişləri edilibmi (nəzərdə tutulubmu).
- Maliyyə hesabatlarında tətbiq olunan uçot siyasətinin məqsədəuyğunluğuna şübhə altına ala bilən hər hansı hadisə baş veribmi (baş verməsi ehtimalı varmı), məsələn, vəziyyətdən asılı olaraq, belə hadisələr maliyyə hesabatlarının hazırlanmasında rəhbərliyin mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğu ~~ehtimalının əsaslılığını~~ sual altında qoyurmu.
- Uçot qiymətləndirmələrinin və ya maliyyə hesabatlarında əks etdirilmiş ehtiyatların ölçülməsi ilə bağlı hər hansı hadisə baş veribmi.
- Aktivlərin dəyərinin əvəzləşdirilməsi baxımından hər hansı bir mühüm hadisə baş veribmi.

---

[42] 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS, A68-A71 paraqrafları
[43] 700 saylı (düzəliş edilmiş) BAS, 11-ci paraqraf

…

**580 saylı BAS**

**"YAZILI TƏQDİMATLAR"**

…

**Əlavə 1**

(İst: Paraq. 2)

## Yazılı təqdimatlara dair tələbləri əks etdirən BAS-ların siyahısı

Bu Əlavədə digər BAS-ların auditin predmetinə dair yazılı təqdimatlar tələb olunan paraqraflar müəyyən edilir. Bu siyahı BAS-lardakı tələbləri, əlaqədar tövsiyələri və digər izahedici materialların öyrənilməsi zərurətini aradan qaldırmır.

- 240 saylı "Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti" BAS, 40-cı paraqraf
- 250 saylı (düzəliş edilmiş) "Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması" BAS, 17-ci paraqraf
- 450 saylı "Audit zamanı müəyyən edilmiş təhriflərin qiymətləndirilməsi" BAS, 14-cü paraqraf
- 501 saylı "Audit sübutu - seçilmiş maddələr üzrə xüsusi mülahizələr" BAS, 12-ci paraqraf
- 540 saylı "Uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi" BAS, 37-ci paraqraf
- 550 saylı "Əlaqəli tərəflər" BAS, 26-cı paraqraf
- 560 saylı "Sonrakı hadisələr" BAS, 9-cu paraqraf
- 570 saylı (2024-cü ildə düzəliş edilmiş) "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" BAS, 39-40 ~~16(e)~~ paraqrafları
- 710 saylı "Müqayisəli məlumatlar: müqayisəli göstəricilər və müqayisəli maliyyə hesabatları" BAS, 9-cu paraqraf
- 720 saylı (düzəliş edilmiş) "Digər məlumatlar üzrə auditorun məsuliyyəti" BAS, paraqraf 13(c)

…

**Əlavə 2**

(İst: Paraq. A21)

## Yazılı təqdimatın nümunəsi

Aşağıdakı məktub nümunəsində bu və digər BAS-ların tələb etdiyi yazılı təqdimatlar verilir. Ehtimal edilir ki, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri qismində Maliyyə Hesabatlarının Beynəlxalq Standartları tətbiq edilir; 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-ın[44] yazılı təqdimat əldə etmək tələbi müvafiq deyil; tələb olunan yazılı təqdimatlara dair istisnalar yoxdur. Əgər istisnalar olarsa, yazılı təqdimatlarda müvafiq dəyişikliklər etmək lazımdır.

…

**600 saylı (DÜZƏLİŞ EDİLMİŞ) BAS**

**"XÜSUSİ MÜLAHİZƏLƏR - QRUP MALİYYƏ HESABATLARININ AUDİTİ**

**(O CÜMLƏDƏN BÖLMƏ AUDİTORLARININ İŞİ)"**

[44] 570 saylı (2024-cü ildə düzəliş edilmiş) "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" BAS

…

## Tələblər

…

**Qrupun, onun mühitinin, maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin və qrupun daxili nəzarət sisteminin öyrənilməsi**

…

*Bölmə auditorları işə cəlb olunduqda nəzərə alınacaq mülahizələr*

31. Qrup auditoru bölmə auditorlarına aşağıdakılar haqqında vaxtında məlumat verməlidir: (İst: Paraq.. A106)

(a) qrup auditorunun qrup auditi məqsədləri üçün bölmə auditoru tərəfindən işlənib hazırlanması və ya risklərin qiymətləndirilməsi prosedurlarının yerinə yetirilməsinə aid olduğunu müəyyən etdiyi məsələlər;

(b) 550 saylı BAS-a[45] uyğun olaraq, qrup rəhbərliyi tərəfindən müəyyən edilmiş və bölmə auditorunun işinə aid olan əlaqəli tərəflərin münasibətləri və ya əməliyyatları, habelə qrup auditoruna məlum olan hər hansı digər əlaqəli tərəflər; habelə (İst: Paraq. A107)

(c) 570 saylı (<u>2024-cü ildə</u> düzəliş edilmiş) BAS-a[46] uyğun olaraq, qrup rəhbərliyi və ya qrup auditoru tərəfindən müəyyən edilmiş və bölmə auditorunun işinə aidiyyəti olan, qrupun fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər.

…

## Əlavə 1

(İst: Paraq. A45)

## Qrup auditoru qrup üzrə auditor rəyini əsaslandırmaq üçün yetərli müvafiq audit sübutları əldə edə bilmədiyi halda müstəqil auditor hesabatının nümunəsi

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şərtlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyekti olmayan müəssisənin konsolidə edilmiş maliyyə hesabatlarının tam dəstinin auditi. Audit filialları olan müəssisənin qrup auditidir (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilir).**

…

- **Əldə edilmiş audit sübutlarına əsasən, auditor belə qənaətə gəlmişdir ki, 570 saylı (<u>2024-cü ildə</u> düzəliş edilmiş) BAS-a uyğun olaraq ~~müəssisənin fəaliyyətinin fasiləsizliyinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqədar~~ əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.**
- **Əsas audit məsələləri barədə 701 saylı BAS-a[47] uyğun məlumat vermək auditordan tələb olunmur nə də ki, o bunu etmək qərarına gəlməmişdir.**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

[45] 550 saylı "Əlaqəli tərəflər" BAS, 17-ci paraqraf
[46] 570 saylı (<u>2024-cü ildə</u> düzəliş edilmiş) "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" BAS
[47] 701 saylı "Müstəqil auditor hesabatında əsas audit məsələləri haqqında məlumatvermə" BAS

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

## Konsolidə edilmiş maliyyə hesabatlarının auditi haqqında hesabat[48]

**Şərti müsbət rəy**

…

**Şərti müsbət rəy üçün əsaslar**

…

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi**

*Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil*[49]

Bütövlükdə maliyyə hesabatlarının auditi kontekstində və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik. Əldə edilən audit sübutlarına əsasən, qrupun fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etmədik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

…

**Digər məlumatlar [və ya müvafiq hallarda digər başlıq, məsələn “Maliyyə hesabatları və onlara dair auditor hesabatından fərqli məlumatlar”]**

…

## 610 saylı (2013-cü İLDƏ DÜZƏLİŞ EDİLMİŞ) BAS

## “DAXİLİ AUDİTORLARIN İŞİNDƏN

## İSTİFADƏ EDİLMƏSİ”

…

## Praktik tətbiq və digər izahedici materiallar

…

*Daxili audit xidmətinin istifadə edilə bilən işinin xüsusiyyətinin və həcminin müəyyən olunması*

[48] “Digər qanun və qaydaların tələbləri haqqında hesabat” adlı ikinci yarımbaşlıq tətbiq edilmədikdə, “Konsolidə edilmiş maliyyə hesabatlarının auditi haqqında hesabat” yarımbaşlığı tələb olunmur

[49] Bu əlavə yarımbaşlıq, auditor hesabatının “Müəssisənin fəaliyyətinin fasiləsizliyi” bölməsində əks olunan məsələlərin xüsusiyyəti barədə nəzərdə tutulan istifadəçilərin anlayışını artırmaq üçün faydalı ola bilər.

Daxili audit xidmətinin istifadə edilə bilən işinin xüsusiyyətinin və həcminin müəyyən olunmasına təsir göstərən amillər (İst: Paraq. 17–19)

…

Audit prosedurlarının planlaşdırılması, həyata keçirilməsi və nəticələrinin qiymətləndirilməsi ilə bağlı peşəkar mühakimələr (İst: Paraq. 18(a), 30(a))

…

A19. Kənar auditor bildirilən rəy üzrə təkbaşına məsuliyyət daşıdığı üçün audit tapşırığı yerinə yetirilən zaman 18-ci paraqrafa uyğun olaraq, məhz o, əhəmiyyətli peşəkar mühakimələr yürütməlidir. Əhəmiyyətli mühakimələrə aşağıdakılar aiddir:

- Əhəmiyyətli təhriflər risklərinin qiymətləndirilməsi;
- Yerinə yetirilmiş testlərin yetərliliyinin müəyyən edilməsi;
- Rəhbərlik tərəfindən mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadənin müvafiqliyinin qiymətləndirilməsi;
- Əhəmiyyətli uçot qiymətləndirmələrinin dəyərləndirilməsi; habelə
- Maliyyə hesabatlarındakı açıqlamaların və auditor rəyinə təsir göstərən digər məsələlərin yetərliliyinin müəyyənləşdirilməsi.

…

## 700 saylı (DÜZƏLİŞ EDİLMİŞ) BAS

## “MALİYYƏ HESABATLARI HAQQINDA RƏYİN FORMALAŞDIRILMASI VƏ HESABAT VERİLMƏSİ”

…

### Tələblər

…

**Auditor hesabatı**

…

*Beynəlxalq audit standartlarına uyğun aparılan auditor yoxlamalarına dair auditor hesabatı*

…

Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı

29. ~~Müvafiq~~ hallarda auditor 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a[50] uyğun olaraq hesabat verməlidir.

…

[50] 570 saylı (2024-cü ildə düzəliş edilmiş) “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı” BAS, 34-38-ci ~~21-23-cü~~ paraqraflar

Maliyyə hesabatları üzrə məsuliyyətlər

…

34. Auditor hesabatının bu bölməsində maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin aşağıdakılar üzrə məsuliyyəti təsvir edilməlidir: (İst: Paraq. A46–A49)

(a) Maliyyə hesabatlarının maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun hazırlanması və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərdən azad olan maliyyə hesabatlarının hazırlanması üçün zəruri olan daxili nəzarət; habelə

(b) Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək imkanının[51] və mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə olunmasının məqsədəuyğunluğunun qiymətləndirilməsi, habelə müvafiq olduqda, müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli məsələlərin açıqlanması. Belə qiymətləndirmə üzrə rəhbərliyin məsuliyyətinin izahı mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi əsasının istifadə edilməsi məqsədəuyğun olduğu halların təsvirini əhatə etməlidir. (İst: Paraq. A49)

…

*Qanun və ya qaydalarda nəzərdə tutulmuş auditor hesabatı*

50. Auditor hər hansı bir yurisdiksiyanın qanun və ya qaydalarına uyğun olaraq, auditor hesabatının konkret bir formatından və ya konkret ifadə formasından istifadə etməli olduqda, beynəlxalq audit standartlarına o halda istinad edə bilər ki, auditor hesabatı ən azı aşağıdakı elementləri əhatə etsin: (İst: Paraq. A71–A72)

(a) Adı.

(b) Tapşırıq şərlərinə uyğun olaraq, hesabatın ünvanlandırılacağı şəxs.

(c) Maliyyə hesabatlarına dair rəyin ifadəsinin və maliyyə hesabatlarının hazırlanması zamanı istifadə edilmiş maliyyə hesabatlarının tətbiq olunan çərçivələri göstərilməklə (o cümlədən Mühasibat uçotunun beynəlxalq standartları və ya İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarından fərqli maliyyə hesabatları çərçivələrinin mənşə yurisdiksiyası, bax: 27-ci paraqraf) daxil olan "Rəy" bölməsi.

(d) Müəssisənin auditi aparılmış maliyyə hesabatlarının müəyyənləşdirilməsi.

(e) Auditorun auditə aid müvafiq etik normalara uyğun olaraq müəssisədən asılı olmamasının və auditorun digər etik məsuliyyətlərini həmin məsuliyyətlərə uyğun olaraq yerinə yetirdiyinin bəyan edilməsi.

(i) Bu bəyanatda müvafiq etik normaların mənşə yurisdiksiyası müəyyən edilməli və ya IESBA Məcəlləsinə istinad edilməlidir.

(ii) Əgər müvafiq etik normalara uyğun olaraq auditorun müəyyən müəssisələrin maliyyə hesabatlarının auditinə xas olan müstəqillik tələblərini tətbiq etdiyi zaman ictimaiyyətə açıqlaması tələb edilərsə, bəyanatda auditorun həmin qurumların auditlərinə tətbiq olunan müstəqillik tələblərinə uyğun olaraq qurumdan müstəqil olduğu göstərilməlidir.

(f) ~~Müvafiq hallarda~~ 570 saylı (<u>2024-cü ildə</u> düzəliş edilmiş) BAS-ın 34–35 və 36(c)~~22-ci~~ paraqrafları əks etdirilən və bu paraqrafa zidd olmayan bölmə.

(g) Müvafiq hallarda, 570 saylı (<u>2024-cü ildə</u> düzəliş edilmiş) BAS-ın <u>35(b)</u> ~~23-cü~~ paraqrafı əks etdirilən və bu paraqrafa zidd olmayan "Şərti müsbət (və ya mənfi) rəy üçün əsaslar" bölməsi.

(h) Müvafiq hallarda, 701 saylı BAS-a uyğun olaraq tələb edilən məlumatlar, yaxud qanun və ya

---

[51] 570 saylı (<u>2024-cü ildə</u> düzəliş edilmiş) BAS, 2-ci paraqraf

qaydalarla tələb edilən və həmin BAS-dakı hesabatvermə tələblərini əks etdirən və onlara zidd olmayan əlavə məlumatlar daxil edilən bölmə.[52] (İst: Paraq. A73–A76)

(i) Müvafiq hallarda, 720 saylı (düzəliş edilmiş) BAS-ın 24-cü paraqrafındakı hesabatvermə tələblərini əks etdirən bölmə.

(j) Rəhbərliyin maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyətlərinin təsviri və 33-36-cı paraqraflardakı tələbləri əks etdirən və həmin tələblərə zidd olmayan maliyyə hesabatlarının təqdimatı prosesinə nəzarət üzrə məsul şəxslərin müəyyən edilməsi.

(k) Mühasibat uçotunun beynəlxalq standartlarına və qanun və ya qaydalara istinad, habelə 37-40-cı paraqraflardakı tələbləri əks etdirən və bu tələblərə zidd olmayan maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətlərinin təsviri. (İst: Paraq: Para. A51–A54)

(l) Listinq subyekti olan müəssisələrin ümumi təyinatlı maliyyə hesabatlarının tam dəstinin auditi üçün həmin məlumatın açıqlanmasının əhəmiyyətli şəxsi təhlükəsizlik riski ilə nəticələnmə ehtimalı əsaslı olduğu nadir hallar istisna olmaqla, tapşırıq üzrə tərəfdaşın adı.

(m) Auditorun imzası.

(n) Auditorun ünvanı.

(o) Auditor hesabatının tarixi.

…

## Əlavə

(İst: Paraq. A19)

## Maliyyə hesabatlarına dair müstəqil auditor hesabatının nümunələri

…

**Nümunə 1 – Ədalətli təqdimat çərçivəsinə uyğun olaraq hazırlanmış listinq subyekti olan müəssisənin maliyyə hesabatlarına dair auditor hesabatı**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şərtlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyekti olan müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditi. Audit qrup auditi deyil (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilmir).**

…

- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq, ~~müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli~~ əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.**
- **Əsas audit məsələləri barədə 701 saylı BAS-a uyğun məlumat verilmişdir.**

…

[52] 701 saylı BAS, 11-16-cı paraqraflar

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

### Maliyyə hesabatlarının auditi haqqında hesabat[53]

**Rəy**

…

**Rəy üçün əsaslar**

…

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi**

*Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil*[54]

Bütövlükdə maliyyə hesabatlarının auditi kontekstində və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik. Əldə edilən audit sübutlarına əsasən, şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etmədik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

…

**Əsas audit məsələləri**

…

**Nümunə 2 – Ədalətli təqdimat çərçivəsinə uyğun olaraq hazırlanmış listinq subyekti olan müəssisənin konsolidə edilmiş maliyyə hesabatlarına dair auditor hesabatı**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şərtlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyekti olan müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditi. Audit filialları olan müəssisənin qrup auditidir (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilir).**

…

- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq~~, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli~~ əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil**
- **Əsas audit məsələləri barədə 701 saylı BAS-a uyğun məlumat verilmişdir.**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

[53] "Digər qanun və qaydaların tələbləri haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədikdə, "Maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur

## Konsolidə edilmiş maliyyə hesabatlarının auditi haqqında hesabat[55]

**Rəy**

…

**Rəy üçün əsaslar**

…

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi**

*Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil*[56]

Bütövlükdə maliyyə hesabatlarının auditi kontekstində və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik. Əldə edilən audit sübutlarına əsasən, Qrupun fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etmədik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

…

**Əsas audit məsələləri**

…

**Nümunə 3 – Ədalətli təqdimat çərçivəsinə uyğun olaraq hazırlanmış listinq subyekti olmayan müəssisənin maliyyə hesabatlarına dair auditor hesabatı**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şərtlərin mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyekti olmayan müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditi. Audit qrup auditi deyil (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilmir).**

…

- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq~~,~~ ~~müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək~~ qabiliyyətinə ~~ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli~~ əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.**
- **Əsas audit məsələləri barədə 701 saylı BAS-a uyğun məlumat vermək auditordan tələb olunmur, nə də ki, o bunu etmək qərarına gəlməmişdir.**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

[55] "Digər qanun və qaydaların tələbləri haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədikdə, "Maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur.

[56] Bu əlavə yarımbaşlıq, auditor hesabatının "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölməsində əks olunan məsələlərin xüsusiyyəti barədə nəzərdə tutulan istifadəçilərin anlayışını artırmaq üçün faydalı ola bilər.

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

**Rəy**

…

**Rəy üçün əsaslar**

…

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi**

*Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil*[57]

Bütövlükdə maliyyə hesabatlarının auditi kontekstində və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik. Əldə edilən audit sübutlarına əsasən, Qrupun fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etmədik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanətvermir.

…

**Digər məlumatlar [və ya müvafiq hallarda digər başlıq, məsələn "Maliyyə hesabatları və onlara dair auditor hesabatından fərqli məlumatlar"]**

…

**Nümunə 4 – Ümumi təyinatlı çərçivəyə uyğun olaraq hazırlanmış listinq subyekti olmayan müəssisənin maliyyə hesabatlarına dair auditor hesabatı**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı şərtlərin mövcud olması ehtimal edilir:**

- **Listinq subyekti olmayan müəssisənin maliyyə hesabatlarının tam dəstinin qanun və ya qaydalarla tələb edilən auditi. Audit qrup auditi deyil (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilmir).**

…

- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq, ~~müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli~~ əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.**
- **Əsas audit məsələləri barədə 701 saylı BAS-a uyğun məlumat vermək auditordan tələb olunmur nə də ki, o bunu etmək qərarına gəlməmişdir.**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

[Müvafiq ünvan sahibi]

[57] Bu əlavə yarımbaşlıq, auditor hesabatının "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölməsində əks olunan məsələlərin xüsusiyyəti barədə nəzərdə tutulan istifadəçilərin anlayışını artırmaq üçün faydalı ola bilər.

**Rəy**

…

**Rəy üçün əsaslar**

…

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi**

*Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil*[58]

Bütövlükdə maliyyə hesabatlarının auditi kontekstində və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik. Əldə edilən audit sübutlarına əsasən, şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etmədik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

…

**Digər məlumatlar [və ya müvafiq hallarda digər başlıq, məsələn "Maliyyə hesabatları və onlara dair auditor hesabatından fərqli məlumatlar"]**

…

## 701 saylı BAS
## "MÜSTƏQİL AUDİTORUN HESABATINDA ƏSAS AUDİT MƏSƏLƏLƏRİ HAQQINDA MƏLUMATVERMƏ"

## Giriş

**Bu BAS-ın əhatə dairəsi**

…

4. Auditor hesabatında əsas audit məsələləri haqqında məlumatvermə ümumilikdə maliyyə hesabatlarına dair formalaşdırılmış auditor rəyi kontekstində həyata keçirilir. Auditor hesabatında əsas audit məsələləri haqqında məlumatvermə:

   (a) Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə əsasən rəhbərlikdən tələb edilən və ya ədalətli təqdimatı təmin etmək üçün digər hallarda tələb edilən maliyyə hesabatlarında açıqlanan məlumatları əvəz etmir;

[58] Bu əlavə yarımbaşlıq, auditor hesabatının "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölməsində əks olunan məsələlərin xüsusiyyəti barədə nəzərdə tutulan istifadəçilərin anlayışını artırmaq üçün faydalı ola bilər.

(b) 705 saylı (düzəliş edilmiş) BAS-ın tələblərinə uyğun olaraq konkret audit tapşırığının şərtlərinə görə tələb olunduqda, auditorun verdiyi fərqli rəyi əvəz etmir;[59]

(c) ~~Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına alan hadisələrlə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənlik mövcud olduqda,~~ 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-ın[60] tələblərinə uyğun hesabatverməni əvəz etmir;

(d) Xüsusi məsələlərə dair ayrı rəy bildirmir. (İst: Paraq. A5-A8)

…

## Tələblər

…

**Əsas audit məsələləri haqqında məlumatvermə**

…

*Əsas audit məsələləri ilə auditor hesabatına daxil ediləcək digər komponentlərin təsvirləri arasında əlaqə*

15. Aşağıdakılar xüsusiyyətinə görə əsas audit məsələləridir: 705 saylı (düzəliş edilmiş) BAS-ın tələblərinə əsasən fərqli rəyin verilməsinə səbəb olan məsələ, yaxud 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-ın tələblərinə əsasən müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik yaxud ~~570 saylı (düzəliş edilmiş) BAS-ın tələblərinə əsasən xüsusiyyətinə görə əsas audit məsələləridir~~. Bununla yanaşı, belə şəraitlərdə bu məsələlər auditor hesabatının "Əsas audit məsələləri" bölməsində təsvir olunmamalı və 13-14-cü paraqrafların tələbləri tətbiq edilməməlidir. Əvəzində auditor aşağıdakıları etməlidir:

(a) Bu məsələlər haqqında tətbiq edilən BAS-ların tələblərinə uyğun olaraq məlumat verməlidir; habelə

(b) "Əsas audit məsələləri" bölməsində "Şərti müsbət (Mənfi) rəy" və ya "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik" və ya "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölmələrinə istinad daxil etməlidir. (İst: Paraq. A6–A7)

…

## Praktik tətbiq və digər izahedici materiallar

**Bu BAS-ın əhatə dairəsi** (İst: Paraq. 2)

…

A6. Auditor 705 saylı (düzəliş edilmiş) BAS-a əsasən şərti müsbət və ya mənfi rəy verdiyi zaman, fərqli rəyin verilmə səbəbi olan məsələnin təsvirinin "Şərti müsbət (Mənfi) rəy üçün əsas" bölməsinə daxil edilməsi nəzərdə tutulmuş istifadəçilərin anlayışını genişləndirməyə və belə şərtlər yarandığı zaman onları müəyyən etməyə kömək edir. Bu səbəbdən bu məsələ haqqında "Əsas audit məsələləri" bölməsində təsvir edilən digər məsələlərdən ayrı məlumatvermə onu auditor hesabatında müəyyən dərəcədə fərqləndirir (bax: 15-ci paraqraf). 705 saylı (düzəliş edilmiş) BAS-ın əlavəsinə auditor şərti müsbət və ya mənfi rəy verdiyi və auditor hesabatında digər əsas audit məsələləri haqqında məlumat verilən zaman "Əsas audit məsələləri" bölməsində ifadələrə təsirin nümunələri daxil edilmişdir. Bu BAS-ın A58 paraqrafında auditor hesabatının "Şərti müsbət (Mənfi) rəy üçün əsaslar" bölməsində və ya "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik" bölməsində qeyd

---

[59] Bu əlavə yarımbaşlıq, auditor hesabatının "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölməsində əks olunan məsələlərin xüsusiyyəti barədə nəzərdə tutulan istifadəçilərin anlayışını artırmaq üçün faydalı ola bilər.

[60] 570 saylı (2024-cü ildə düzəliş edilmiş) "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" BAS, 34-38-ci ~~22–23-cü~~ paraqraflar.

edilən məsələlərdən başqa auditor hesabatında məlumat veriləcək əsas audit məsələlərinin olmadığını auditor müəyyən etdikdə "Əsas audit məsələləri" bölməsinin təqdim edilməsinin nümunələri əks olunur.

…

**Əsas audit məsələləri haqqında məlumatvermə**

…

Məsələnin maliyyə hesabatlarında açıqlanmasına edilən istinad (İst: Paraq. 13)

…

A41. Açıqlanmış əlaqəli məlumat(lar)dan əlavə, auditor diqqətini onların əsas aspektlərinə yönəldə bilər. Konkret məsələnin cari dövr üzrə maliyyə hesabatlarına necə təsir etməsinə dair konkret aspektlərin və ya amillərin rəhbərlik tərəfindən açıqlanma səviyyəsi nəzərdə tutulmuş istifadəçilərin məsələnin əsas audit məsələsi olmasının səbəbini başa düşmələri üçün auditora audit çərçivəsində məsələnin öyrənilmə qaydasının konkret aspektlərini dəqiq müəyyən etməyə kömək edə bilər. Məsələn: ~~M~~müəssisə uçot qiymətləndirmələri haqqında mükəmməl açıqlama daxil etdiyi zaman, məsələnin audit zamanı ən çox əhəmiyyət kəsb edən məsələlərdən biri olmasının səbəbinin və məsələnin audit zamanı öyrənilmə qaydasının izah edilməsi çərçivəsində, auditor diqqətini əsas ehtimalların açıqlanmasına, mümkün olan nəticələrin diapazonunun açıqlanmasına və qiymətləndirmənin qeyri-müəyyənliyinin və ya ən vacib qiymətləndirmə dəyərlərinin əsas mənbələrinə aid olan keyfiyyət və kəmiyyətə dair açıqlanan digər məlumatlara yönəldə bilər.

- ~~Auditor 570 saylı (düzəliş edilmiş) BAS-a əsasən müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrlə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin olmadığına dair nəticəyə gəldiyi zaman, buna baxmayaraq, auditor müəyyən edə bilər ki, 570 saylı (düzəliş edilmiş) BAS üzrə auditorun yerinə yetirdiyi işdən irəli gələn nəticəyə aid olan bir və ya bir neçə məsələ əsas audit məsələsidir. Belə hallarda, həmin əsas audit məsələlərinin auditor hesabatında auditor tərəfindən təsvir edilməsi maliyyə hesabatlarında açıqlanan, müəyyən edilmiş hadisələrin və ya şərtlərin aspektlərini (məsələn, əhəmiyyətli əməliyyat itkiləri, mövcud olan borcalma imkanları və borcu təkrar maliyyələşdirmək imkanı və ya kredit öhdəliklərinin yerinə yetirilməməsi və müvafiq yüngülləşdirici amillər) əhatə edə bilər.[61]~~

…

Məsələ audit zamanı necə öyrənilmişdir (İst: Paraq. 13(b))

…

*Digər şəraitlərdə "Əsas audit məsələləri" bölməsinin forması və məzmunu* (İst: Paraq. 16)

…

A58. Auditor məlumat verilısi əsas audit məsələlərinin mövcud olmadığını müəyyən etdiyi halda, auditor hesabatında təqdim edilən məlumatların nümunəsi aşağıda verilir:

**Əsas audit məsələləri**

["Şərti müsbət rəy üçün əsaslar" bölməsində və ya "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli

---

~~[61] Bax: 570 saylı (düzəliş edilmiş) BAS, A3 paraqrafı.~~

əhəmiyyətli qeyri-müəyyənlik” bölməsində təsvir edilən məsələ istisna olmaqla,] biz müəyyən etdik ki, hesabatımızda məlumat veriləcək digər audit məsələləri mövcud deyil.

…

## 705 saylı (DÜZƏLİŞ EDİLMİŞ) BAS

## “MÜSTƏQİL AUDİTORUN HESABATINDAKI

## RƏYƏ EDİLƏN DƏYİŞİKLİKLƏR”

…

### Tələblər

…

**Rəy dəyişdirilərkən auditor hesabatının forma və məzmunu**

*Auditor rəyi*

…

Rəy verməkdən imtina

19. Auditor yetərli münasib audit sübutları əldə etməyin mümkün olmaması səbəbindən rəy verməkdən imtina edərsə, o, “Rəy” bölməsində göstərməlidir ki:

(a) Auditor əlavə edilən maliyyə hesabatlarına dair rəy verməkdən imtina edir;

(b) “Rəy verməkdən imtina üçün əsaslar” bölməsində təsvir olunmuş məsələnin (məsələlərin) vacibliyi ilə əlaqədar auditor rəyini əsaslandırmaq üçün auditor yetərli münasib audit sübutları əldə edə bilməmişdir; habelə

(c) 700 saylı (düzəliş edilmiş) BAS-ın 24(b) paraqrafına əsasən maliyyə hesabatlarının audit olunması ifadəsi əvəzinə maliyyə hesabatlarının auditinin aparılması üçün auditorun cəlb edilməsini göstərmək.

(d) “Rəy bildirməkdən imtina üçün əsaslar” bölməsində auditorun maliyyə hesabatlarının hazırlanmasında rəhbərliyin mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğunluğu və müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığı barədə nəticə çıxara bilmədiyini qeyd etmək.

…

*Auditor maliyyə hesabatlarına dair rəy verməkdən imtina etdikdə mülahizələr*

29. Qanun və ya qaydalarla tələb olunduğu hallar istisna olmaqla auditor maliyyə hesabatlarına dair rəy verməkdən imtina etdikdə auditor hesabatında aşağıdakılar haqqında bölmə daxil edilməməlidir:

(a) 701 saylı BAS-a uyğun olaraq “Əsas audit məsələləri” ~~bölməsi~~ ;[62]

(b) 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq müəssisənin fəaliyyətinin fasiləsizliyi;[63]

(c) 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik;[64] habelə

[62] 701 saylı “Müstəqil auditorun hesabatında əsas audit məsələləri haqqında məlumatvermə” BAS, 11-13-cü paraqraflar
[63] 570 saylı (2024-cü ildə düzəliş edilmiş) “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı” BAS, 34-cü paraqraf
[64] 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS, 35-36-cı paraqraflar

(d) 720 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq “Digər məlumatlar” ~~bölməsi~~ daxil edilməməlidir. [65][66] (İst: Paraq. A26)

…

## Praktik tətbiq və digər izahedici materiallar

…

**Rəy dəyişdirilərkən auditor hesabatının forma və məzmunu**

*Auditor hesabatlarının nümunələri* (İst: Paraq. 16)

A17. Əlavədəki 1 və 2-ci nümunələrdə maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcudluğu ilə əlaqədar, müvafiq olaraq, şərti müsbət rəy və mənfi rəy təqdim edilmişdir.

A18. Əlavədəki 3-cü nümunədə auditorun yetərli münasib audit sübutları əldə edə bilməməsi ilə şərtlənən şərti müsbət rəy təqdim edilmişdir. 4-cü nümunə auditorun maliyyə hesabatının ayrıca bir elementinə dair yetərli münasib audit sübutları əldə edə bilməməsi ilə əlaqədar rəy verməkdən imtinasını əhatə edir. 5-ci nümunədə maliyyə hesabatlarının bir neçə elementinə dair auditorun yetərli münasib audit sübutları əldə edə bilməməsi ilə əlaqədar rəy verməkdən imtinası əhatə edilmişdir. Sonuncu iki halın hər birində maliyyə hesabatları üçün yetərli münasib audit sübutları əldə edə bilməməsinin mümkün nəticələri əhəmiyyətli və nüfuzedicidir. Hesabatvermə üzrə tələbləri əks etdirən digər BAS-ların, o cümlədən 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-ın[67] əlavələrində də fərqli rəy ifadə edilmiş auditor hesabatlarının nümunələri əks etdirilir.

…

*Auditor maliyyə hesabatlarına dair rəy verməkdən imtina etdikdə mülahizələr* (İst: Paraq. 29)

A26. Auditorun yetərli münasib audit sübutlarını əldə edə bilməməsinin səbəblərini auditor hesabatının “Rəydən imtina üçün əsaslar” bölməsində verilməsi istifadəçiləri auditorun maliyyə hesabatlarında dair rəy verməkdən imtina etməsini başa düşmək üçün faydalı məlumatla təmin edir və bundan əlavə, həmin hesabatlara əsassız olaraq etibar etməkdən qoruya bilər. Bununla yanaşı, rəydən imtina üçün səbəb olmuş məsələ (məsələlər) istisna olmaqla, istənilən əsas audit məsələsi barədə məlumatvermə maliyyə hesabatlarının bütövlükdə həmin məsələlərlə əlaqədar yaranmış vəziyyətdə müvafiq olduğundan daha etibarlı olmasını və bütövlükdə maliyyə hesabatlarına dair rəydən imtinaya zidd olmasını nəzərdə tuta bilər. Eyni qaydada digər məlumatların maliyyə hesabatlarına uyğun olmasının auditor tərəfindən nəzərə alınmasından bəhs edən 720 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq “Digər məlumatlar” bölməsini daxil etmək məqsədəuyğun deyil. Müvafiq olaraq, auditordan qanun və ya qaydalarla əsas audit məsələləri və ya digər məlumatlar barədə başqa qaydada məlumat verməsi tələb olunmadığı hallarda auditor maliyyə hesabatlarına dair rəy verməkdən imtina etdikdə bu BAS-ın 29-cu paraqrafında ~~“Əsas audit məsələləri” və “Digər məlumatlar” bölməsini~~ auditor hesabatına daxil etməyə icazə verilmir.

…

**ƏLAVƏ**

(İst: Paraq A17-A18, A25)

[66] 720 saylı (düzəliş edilmiş) “Digər məlumatlar üzrə auditorun məsuliyyəti” BAS, A54 paraqrafı
~~[67] 570 saylı (düzəliş edilmiş) “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı” BAS~~

## Fərqli auditor rəyi olan auditor hesabatına dair nümunələr

…

**Nümunə 1 – Maliyyə hesabatlarında əhəmiyyətli təhrifin mövcud olması səbəbindən şərti müsbət rəy**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı halların mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyektinin maliyyə hesabatlarının tam dəstinin auditi. Audit qrup auditi deyil (yəni, 600 saylı (düzəliş edilmiş) BAS[68] tətbiq edilmir).**

…

- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq ~~müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisə və ya hallar ilə əlaqəli~~ əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil. Maliyyə hesabatlarında əhəmiyyətli qeyri-müəyyənliyin açıqlanması yetərlidir.**
- **Əsas audit məsələləri barədə 701 saylı BAS-a uyğun məlumat verilmişdir.**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

### Maliyyə hesabatlarının auditi haqqında hesabat[69]

**Şərti müsbət rəy**

…

**Şərti müsbət rəy üçün əsaslar**

…

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi**

*Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil[70]*

Bütövlükdə maliyyə hesabatlarının auditi kontekstində və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik. Əldə edilən audit sübutlarına əsasən, şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etmədik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

…

[68] 600 saylı (düzəliş edilmiş) "Xüsusi mülahizələr – qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)" BAS

[69] "Digər qanun və qaydaların tələbləri haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədikdə, "Maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur

[70] Bu əlavə yarımbaşlıq, auditor hesabatının "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölməsində əks olunan məsələlərin xüsusiyyəti barədə nəzərdə tutulan istifadəçilərin anlayışını artırmaq üçün faydalı ola bilər

**Digər məlumatlar [və ya müvafiq hallarda digər başlıq, məsələn "Maliyyə hesabatları və onlara dair auditorun hesabatından fərqli məlumatlar"]**

…

**Əsas audit məsələləri**

…

**Nümunə 2 – Konsolidə edilmiş maliyyə hesabatlarında əhəmiyyətli təhrifin mövcud olması səbəbindən mənfi rəy**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı halların mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyektinin konsolidə edilmiş maliyyə hesabatlarının tam dəstinin auditi. Audit filialları olan müəssisənin qrup auditidir (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilir).**

…

- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq ~~müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrlə və ya hallarla əlaqədar~~ əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.**
- **701 saylı BAS tətbiq edilir, lakin auditor müəyyən etmişdir ki, "Mənfi rəy üçün əsaslar" bölməsində təsvir edilən məsələdən başqa əsas audit məsələləri mövcud deyil.**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

## Konsolidə edilmiş maliyyə hesabatlarının auditi haqqında hesabat [71]

**Mənfi rəy**

…

**Mənfi rəy üçün əsaslar**

…

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi**

*Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil*[72]

Bütövlükdə maliyyə hesabatlarının auditi kontekstində və onlara dair rəyimizi formalaşdırarkən, rəhbərliyin konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik. Əldə edilən audit sübutlarına əsasən, Qrupun fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etmədik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

[72] Bu əlavə yarımbaşlıq, auditor hesabatının "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölməsində əks olunan məsələlərin xüsusiyyəti barədə nəzərdə tutulan istifadəçilərin anlayışını artırmaq üçün faydalı ola bilər

…

**Digər məlumatlar [və ya müvafiq hallarda digər başlıq, məsələn "Maliyyə hesabatları və onlara dair auditorun hesabatından fərqli məlumatlar"]**

…

**Əsas audit məsələləri**

…

**Nümunə 3 – Xarici ortaq barədə yetərli münasib audit sübutları əldə edilməsinin mümkün olmaması ilə əlaqədar şərti müsbət auditor rəyi**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı halların mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyektinin konsolidə edilmiş maliyyə hesabatlarının tam dəstinin auditi. Audit filialları olan müəssisənin qrup auditidir (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilir).**

…

- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq ~~müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisə və ya hallar ilə əlaqəli~~ əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.**
- **Əsas audit məsələləri barədə 701 saylı BAS-a uyğun məlumat verilmişdir.**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

## Konsolidə edilmiş maliyyə hesabatlarının auditi haqqında hesabat[73]

**Şərti müsbət rəy**

…

**Şərti müsbət rəy üçün əsaslar**

…

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi**

*Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil*[74]

Bütövlükdə maliyyə hesabatlarının auditi kontekstində və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik. Əldə edilən audit sübutlarına əsasən, Qrupun fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etmədik.

[73] "Digər qanun və qaydaların tələbləri haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədikdə, "Maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur

[74] Bu əlavə yarımbaşlıq, auditor hesabatının "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölməsində əks olunan məsələlərin xüsusiyyəti barədə nəzərdə tutulan istifadəçilərin anlayışını artırmaq üçün faydalı ola bilər

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

…

**Digər məlumatlar [və ya müvafiq hallarda digər başlıq, məsələn "Maliyyə hesabatları və onlara dair auditorun hesabatından fərqli məlumatlar"]**

…

**Əsas audit məsələləri**

…

**Nümunə 4 – Konsolidə edilmiş maliyyə hesabatlarının ayrıca bir elementi haqqında yetərli münasib audit sübutlarının əldə edilə bilməməsi ilə əlaqədar auditorun rəy verməkdən imtina etməsi**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı halların mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyekti olmayan müəssisənin konsolidə edilmiş maliyyə hesabatlarının tam dəstinin auditi. Audit filialları olan müəssisənin qrup auditidir (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilir).**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

### Konsolidə edilmiş maliyyə hesabatlarının auditi haqqında hesabat[75]

**Rəy verməkdən imtina**

…

**Rəy verməkdən imtina üçün əsaslar**

Qrupun konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatında birgə müəssisəsi olan XYZ Şirkətinə qrupun investisiyaları xxx həcmində əks etdirilmişdir və 31 dekabr 20X1-ci il tarixinə qrupun xalis aktivlərinin 90%-dən çoxunu təşkil edir. Bizə XYZ şirkətinin rəhbərliyi və auditorları ilə əlaqə saxlamağa, o cümlədən XYZ şirkətinin auditorlarının audit sənədlərini əldə etməyə icazə verilməmişdir. Nəticədə bizim XYZ şirkətinin birgə nəzarət etdiyi aktivlərində Qrupun mütənasib payı ilə bağlı, yerinə yetirilməsi üzrə birgə məsuliyyət daşıdığı XYZ şirkətinin öhdəliklərindəki mütənasib payı, XYZ-in il ərzindəki gəlir və xərclərindəki mütənasib payı ilə bağlı, habelə kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabatının və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatının komponentlərində hər hansı bir düzəliş etmək zərurətinin olub-olmamasını müəyyən etməyə imkanımız olmamışdır.

Konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında rəhbərliyin mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğunluğu və Qrupun fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olub-olmaması barədə nəticə verə bilmirik.

…

[75] "Digər qanun və qaydaların tələbləri haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədikdə, "Konsolidə edilmiş maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur

**Nümunə 5 – Maliyyə hesabatlarının bir neçə elementi haqqında yetərli münasib audit sübutlarının əldə edilməsinin mümkün olmaması ilə əlaqədar auditorun rəy verməkdən imtina etməsi**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı halların mövcud olması ehtimal edilir:**

- **Ədalətli təqdimat çərçivəsindən istifadə edərək, listinq subyekti olmayan müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditi. Audit qrup auditi deyil (yəni, 600 saylı (düzəliş edilmiş) BAS tətbiq edilmir).**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

### Maliyyə hesabatlarının auditi haqqında hesabat[76]

**Rəy verməkdən imtina**

…

**Rəy verməkdən imtina üçün əsaslar**

Biz 31 dekabr 20X1-ci il tarixindən sonra şirkətin auditorları olaraq təyin edilmişik və beləliklə, ilin əvvəlində və sonunda mal-material ehtiyatlarının fiziki inventarizasiyasını müşahidə etməmişik. Biz maliyyə vəziyyəti haqqında hesabatda, müvafiq olaraq, xxx və xxx həcmində göstərilən ehtiyatların 31 dekabr 20X0-cı və 20X1-ci il tarixlərinə olan sayı haqqında alternativ prosedurların köməyi ilə bizi qane edə bilən məlumatları əldə edə bilmədik. Bundan əlavə, 20X1-ci ilin sentyabr ayında yeni kompüterləşdirilmiş debitor borcları sisteminin tətbiqi debitor borclarında çoxsaylı səhvlərə gətirib çıxarmışdır. Bizim auditor hesabatının tarixinədək rəhbərlik sistemdə çatışmazlığın aradan qaldırılmasını və səhvlərin düzəldilməsini başa çatdırmamışdır. Biz 31 dekabr 20X1-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmiş xxx məbləğində debitor borcunu alternativ prosedurların köməyi ilə təsdiqləyə və ya yoxlaya bilmədik. Nəticədə uçota alınmış və ya uçota alınmamış ehtiyatlar və debitor borcları, habelə məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat ilə əlaqədar hansısa düzəlişlərin tələb olunub-olunmadığını müəyyən etməyə imkanımız olmamışdır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərliyin mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğunluğu və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olub-olmaması barədə nəticə verə bilmirik.

…

## 706 saylı (DÜZƏLİŞ EDİLMİŞ) BAS

[76] "Digər qanun və qaydaların tələbləri haqqında hesabat" adlı ikinci yarımbaşlıq tətbiq edilmədikdə, "Maliyyə hesabatlarının auditi haqqında hesabat" yarımbaşlığı tələb olunmur

# “MÜSTƏQİL AUDİTORUN HESABATINDA İZAHEDİCİ PARAQRAFLAR VƏ DİGƏR MƏSƏLƏLƏR PARAQRAFLARI”

## Giriş

**Bu BAS-ın əhatə dairəsi**

…

- **Ortaqlığın rəhbərliyi tərəfindən, tərəfdaşlara fərdi vergi bəyannamələrini hazırlamaqda kömək məqsədilə, X yurisdiksiyasının vergi uçotu prinsiplərinə (yəni xüsusi təyinatlı çərçivələrə) uyğun olaraq hazırlanmış maliyyə hesabatlarının tam dəstinin auditi. Rəhbərliyin maliyyə hesabatları çərçivələrini seçmək imkanı yoxdur.**

…

- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, 570 saylı (<u>2024-cü ildə düzəliş edilmiş</u>) BAS-a uyğun olaraq ~~müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisə və ya hallar ilə əlaqəli~~ əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.**

…

- **Auditordan əsas audit məsələləri barədə 701 saylı BAS-a uyğun məlumat vermək tələb olunmur, nə də ki, o bunu etmək qərarına gəlməmişdir.**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

[Müvafiq ünvan sahibinə]

**Rəy**

…

**Rəy üçün əsaslar**

…

<u>**Müəssisənin fəaliyyətinin fasiləsizliyi**</u>

<u>*Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil*[125]</u>

<u>Bütövlükdə maliyyə hesabatlarının auditi kontekstində və onlara dair rəyimizi formalaşdırdıqda,</u>

[124] Auditor hesabatlarının nümunələrində "rəhbərlik" və "idarəetməyə məsul şəxslər" terminləri müəyyən yurisdiksiyada hüquqi çərçivənin kontekstinə uyğun olan başqa bir termin ilə əvəz edilə bilər.

[125] <u>Bu əlavə yarımbaşlıq, auditor hesabatının "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölməsində əks olunan məsələlərin xüsusiyyəti barədə nəzərdə tutulan istifadəçilərin anlayışını artırmaq üçün faydalı ola bilər.</u>

rəhbərliyin konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik. Əldə edilən audit sübutlarına əsasən, şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik aşkar etmədik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

**İzahedici paraqraf – mühasibat uçotunun əsasları və yayılmaya və istifadəyə qoyulan məhdudiyyət**

Biz diqqəti mühasibat uçotunun əsasları təsvir edilən maliyyə hesabatına X qeydinə yönəldirik. Maliyyə hesabatları ortaqlığın tərəfdaşlarına fərdi vergi bəyannamələrini hazırlamaqda kömək etmək üçün hazırlanmışdır. Buna görə də həmin maliyyə hesabatları istənilən başqa bir məqsəd üçün yararlı olmaya bilər. Bizim hesabatımız istisnasız olaraq ortaqlıq və onun tərəfdaşları üçün nəzərdə tutulmuş və onlardan başqa şəxslərə paylana bilməz. Bu məsələyə dair bizim rəyimiz fərqli deyil.

**Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyətləri**[126]

…

**Nümunə 3: Tənzimləyici orqanın tələblərinə (hazırkı nümunənin məqsədləri üçün - ədalətli təqdimat çərçivəsinə) uyğun olaraq hazırlanmış listinq subyekti olan müəssisənin maliyyə hesabatlarının tam dəstinə dair auditor hesabatı.**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı halların mövcud olması ehtimal edilir:**

- **Müəssisənin rəhbərliyi tərəfindən tənzimləyici orqanın tələblərinə cavab vermək üçün həmin tənzimləyici orqanın maliyyə hesabatlarının təqdim edilmə müddəalarına (yəni xüsusi təyinatlı çərçivəyə) uyğun olaraq hazırlanmış listinq subyekti olan müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditi. Rəhbərliyin maliyyə hesabatları çərçivələrini seçmək imkanı yoxdur.**

…

- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq ~~müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına~~ ala bilən əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur. Qeyri-müəyyənliyin maliyyə hesabatlarında açıqlanması yetərlidir.**

…

- **Tənzimləyici orqan auditordan əsas audit məsələləri barədə 701 saylı BAS-a uyğun məlumat verməsini tələb edir.**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

**Rəy**

…

**Rəy üçün əsaslar**

[126] Və ya konkret yurisdiksiyadakı normativ hüquqi mühitdə müvafiq olan digər bir termin.

…

**İzahedici paraqraf – mühasibat uçotunun əsasları**

Biz diqqəti mühasibat uçotunun əsasları təsvir edilən maliyyə hesabatına Y~~X~~ qeydinə yönəldirik. Maliyyə hesabatları Şirkətin DEF tənzimləyici orqanın tələblərinə riayət etməsinə kömək məqsədilə hazırlanmışdır. Buna görə də həmin maliyyə hesabatları istənilən başqa bir məqsəd üçün yararlı olmaya bilər. Bu məsələyə dair bizim rəyimiz fərqli deyil.

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik**

Biz diqqəti 31 dekabr 20X1-ci il tarixində başa çatan il ərzində şirkətin ZZZ məbləğində xalis zərər çəkdiyini və həmin tarixə şirkətin cari öhdəliklərinin ümumi aktivlərdən YYY qədər artıq olduğunu əks etdirən maliyyə ~~hesabatlarındakı 6 saylıX qeydinə yönəldirik. 6 saylı qeyddə bildirildiyinə əsasən bu hadisələr və ya şərtlər, 6 saylı qeyddə göstərilən digər məsələlərlə yanaşı şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına alan əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması göstərilir. Bu məsələyə dair bizim rəyimiz fərqli deyil.~~

*[Rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətlndirməsinin auditor tərəfindən 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a  uyğun olaraq necə dəyərləndirdiyinin təsviri.]*

~~6 saylı~~X qeydində bildirildiyinə əsasən bu hadisələr və ya şərtlər, ~~6 saylı~~X qeydində göstərilən digər məsələlərlə yanaşı şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına alan əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması göstərilir.

Bu məsələyə dair bizim rəyimiz fərqli deyil.

Bütövlükdə maliyyə hesabatlarının auditi kontekstində və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik.

Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri peşəkar mühakiməmizə əsasən cari dövrün maliyyə hesabatlarının apardığımız auditində ən əhəmiyyətli olan məsələlərdir. Həmin məsələlər bütövlükdə maliyyə hesabatlarının auditi kontekstində və onlara dair rəyimizi formalaşdırdıqda əks etdirilmiş və bu məsələlərə dair ayrı rəy bildirmirik. Yuxarıda “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik” bölməsində təsvir edilmiş məsələdən əlavə biz aşağıda təsvir edilən məsələlərin öz hesabatımızda məlumat veriləcək əsas audit məsələləri olmasını müəyyən etdik.

*[701 saylı BAS-a uyğun olaraq bu auditə aid olan əsas audit məsələlərinin hər birinin təsviri.]*

**Digər məsələ**

…

## 805 saylı (DÜZƏLİŞ EDİLMİŞ) BAS

## “XÜSUSİ MÜLAHİZƏLƏR – AYRICA MALİYYƏ HESABATLARININ VƏ MALİYYƏ HESABATININ XÜSUSİ ELEMENTLƏRİNİN, HESABLARININ VƏ YA

## MADDƏLƏRİNİN AUDİTİ”

…

## Tələblər

…

**Rəy formalaşdırılması və hesabat verilməsi üzrə mülahizələr**

…

*Maliyyə hesabatlarının tam dəsti və ayrıca maliyyə hesabatları və ya belə maliyyə hesabatlarının xüsusi elementi haqqında hesabat verilməsi*

…

14. Müəssisənin maliyyə hesabatlarının tam dəsti üzrə auditor hesabatı aşağıdakıları daxil etdikdə:

    (a) 705 saylı (düzəliş edilmiş) BAS-a[127] uyğun olaraq fərqli rəy;

    (b) 706 saylı (düzəliş edilmiş) BAS-a[128] uyğun olaraq “İzahedici paraqraf” və ya “Digər məsələlər” paraqrafı;

    (c) 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a[129] uyğun olaraq müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə bağlı əhəmiyyətli qeyri-müəyyənlik; [129]

    (d) 701 saylı BAS-a[130] uyğun olaraq əsas audit məsələləri haqqında məlumatvermə; yaxud

    (e) 720 saylı (düzəliş edilmiş) BAS-a[131] uyğun olaraq digər məlumatlarda düzəliş edilməyən əhəmiyyətli təhrifi təsvir edən ifadə;

    Auditor, mövcud olduğu halda, həmin məsələlərin ayrıca maliyyə hesabatının və ya maliyyə hesabatının xüsusi elementinin auditinə və onlara dair auditorun hesabatına aidiyyatını nəzərə almalıdır. (İst: Paraq. A23-A27. A23–A27)

…

## Praktik tətbiq və digər izahedici materiallar

…

**Tapşırığın qəbul edilməsi üzrə mülahizələr**

*BAS-ların tətbiqi* (İst: Paraq. 7)

…

A6. Auditor eyni vaxtda müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditini keçirmədikdə ayrıca maliyyə hesabatlarının və ya maliyyə hesabatının xüsusi elementinin auditinə tətbiq olunan BAS-ların tələblərinə riayət etmək praktik baxımdan mümkün olmaya bilər. Belə hallarda auditor, bir qayda olaraq, müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditini həyata keçirmək üçün cəlb edilmiş auditor qədər müəssisə və onun mühiti, o cümlədən daxili nəzarəti haqqında anlayışa malik olmur. Bundan əlavə, auditor, adətən müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditi zamanı əldə edilən uçot məlumatlarının və ya digər mühasibat uçotu məlumatlarının ümumi keyfiyyəti haqqında audit sübutlarına malik olmur. Buna müvafiq olaraq, mühasibat uçotu məlumatları əsasında əldə etdiyi audit sübutlarının təsdiqlənməsi üçün auditorun əlavə məlumatlara ehtiyacı ola bilər. Maliyyə

[127] 705 saylı (düzəliş edilmiş) “Müstəqil auditorun hesabatında fərqli rəylər” BAS.
[128] 706 saylı (düzəliş edilmiş) “Müstəqil auditorun hesabatında izahedici paraqraf və digər məsələlər paraqrafı” BAS.
[129] 570 saylı (2024-cü ildə düzəliş edilmiş) “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı” BAS, 35-36-cı ~~22-ci~~ paraqraflar.
[130] 701 saylı “Əsas audit məsələləri haqqında məlumatvermə” BAS, 13-cü paraqraf.
[131] 720 saylı (düzəliş edilmiş) “Digər məlumatlar üzrə auditorun məsuliyyətləri”, paraqraf 22(e)(ii).

hesabatının xüsusi elementinin auditi zamanı müəyyən BAS-lar auditi keçirilən elementə qeyri-mütənasib olan audit işini nəzərdə tuta bilər. Məsələn, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-ın tələblərinin debitor borcları reyestrinin auditi zamanı münasib olsa da, onlara əməl edilməsi praktiki olaraq mümkün olmaya bilər, çünki auditordan həddən artıq böyük əmək sərf etmək tələb olunur. Əgər auditor ayrıca maliyyə hesabatlarının və ya maliyyə hesabatının xüsusi elementinin BAS-lara uyğun auditinin praktik cəhətdən məqsədəuyğun olmaması barədə nəticəyə gələrsə, bu zaman o, rəhbərliklə digər tipli tapşırıqların yerinə yetirilməsinin mümkünlüyünü müzakirə edə bilər.

…

**Auditin planlaşdırılması və həyata keçirilməsi üzrə mülahizələr** (İst: Paraq. 10)

A10. Hər bir BAS-ın münasibliyi dəqiq təhlil tələb edir. Hətta maliyyə hesabatının yalnız xüsusi elementinin auditi keçirildikdə, 240 saylı BAS[132], 550 saylı BAS[133] və 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS kimi BAS-lar prinsip etibarilə münasibdir, çünki bu element dələduzluq nəticəsində, əlaqəli tərəflərlə əməliyyatların və ya maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq mühasibat uçotunun fəaliyyətin fasiləsizliyi prinsipinin düzgün tətbiq olunmamasının təsiri ilə müəyyən dərəcədə təhrifə məruz qala bilər.

**Rəyin formalaşdırılması və hesabat verilməsi üzrə mülahizələr** (İst: Paraq. 11)

…

A17. 2 saylı əlavədə ayrıca maliyyə hesabatı və maliyyə hesabatının xüsusi elementi üzrə müstəqil auditorun hesabatının nümunələri verilmişdir. Auditor hesabatlarının digər nümunələri ayrıca maliyyə hesabatı və ya maliyyə hesabatının xüsusi elementi üzrə hesabatvermə üçün uyğun ola bilər (məsələn, bax: 700 saylı (düzəliş edilmiş) BAS-ın əlavələri, 705 saylı (düzəliş edilmiş) BAS, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS, 720 saylı (düzəliş edilmiş) BAS və 706 saylı (düzəliş edilmiş) BAS).

*Ayrıca maliyyə hesabatına dair və ya maliyyə hesabatının xüsusi elementinə dair hesabat verdikdə 700 saylı (düzəliş edilmiş) BAS-ın tətbiq edilməsi*

…

Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı

A19. Ayrıca maliyyə hesabatının və ya maliyyə hesabatının xüsusi elementinin hazırlanmasında istifadə edilən maliyyə hesabatlarının tətbiq olunan çərçivələrindən asılı olaraq fəaliyyətin fasiləsizliyi ehtimalı ilə bağlı rəhbərliyin məsuliyyətlərinin[134] auditor hesabatındakı təsvirinin zəruri hallarda uyğunlaşdırılması tələb edilə bilər. Tapşırığın şərtlərinə 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-ın necə tətbiq edilməsindən asılı olaraq, auditor hesabatında auditorun məsuliyyətlərinin[135] təsvirinin də zəruri hallarda uyğunlaşdırılması tələb edilə bilər.

…

## Əlavə 2

(İst: Paraq. A17)

## Ayrıca maliyyə hesabatları və maliyyə hesabatının xüsusi elementləri üzrə müstəqil

[132] 240 saylı "Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti" BAS
[133] 550 saylı "Əlaqəli tərəflər" BAS
[134] Bax: 700 saylı (düzəliş edilmiş) BAS, 34(b) və A48 paraqraflar
[135] Bax: 700 saylı (düzəliş edilmiş) BAS, 39 (b)(iv) paraqraflar

**auditorun hesabatının nümunələri**

…

**<u>Nümunə 1: Ümumi təyinatlı çərçivəyə (bu nümunənin məqsədləri üçün ədalətli təqdimat çərçivəsinə) uyğun olaraq hazırlanmış listinq subyekti olmayan müəssisənin ayrıca maliyyə hesabatı üzrə auditor hesabatı.</u>**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı halların mövcud olması ehtimal edilir:**

- **Listinq subyekti olmayan müəssisənin mühasibat balansının (yəni, ayrıca maliyyə hesabatının) auditi.**

…

- **Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri istifadəçilərin geniş dairəsinin maliyyə məlumatlarına olan ümumi tələbatının ödənilməsi üçün nəzərdə tutulmuş ədalətli təqdimat çərçivələridir.**

…

- **Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, 570 saylı (<u>2024-cü ildə düzəliş edilmiş</u>) BAS-a uyğun olaraq ~~müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisə və ya hallar ilə əlaqəli~~ əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur.**
- **Auditordan mühasibat balansının auditi kontekstində əsas audit məsələləri barədə 701 saylı BAS-a uyğun məlumat vermək tələb olunmur, nə də ki, o bunu etmək qərarına gəlməmişdir.**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

[Müvafiq ünvan sahibinə]

**Rəy**

…

**Rəy üçün əsaslar**

…

**Müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik**

Biz diqqəti 31 dekabr 20X1-ci il tarixində başa çatan il ərzində <u>şirkətin</u> ZZZ məbləğində xalis zərər çəkdiyini və həmin tarixə <u>şirkətin</u> cari öhdəliklərinin ümumi aktivlərdən YYY qədər artıq olduğunu əks etdirən maliyyə hesabatlarındakı ~~6 saylı~~<u>X</u> qeydinə yönəldirik. ~~6 saylı~~<u>X</u> qeyddə bildirildiyinə əsasən bu hadisələr və ya şərtlər, 6 saylı qeyddə göstərilən digər məsələlərlə yanaşı <u>şirkətin</u> fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması göstərilir.

Bu məsələyə dair bizim rəyimiz fərqli deyil.

<u>Bütövlükdə maliyyə hesabatlarının auditi kontekstində və onlara dair rəyimizi formalaşdırdıqda, rəhbərliyin konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olduğu qənaətinə gəldik.</u>

<u>Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır və şirkətin</u>

fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə zəmanət vermir.

**Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyətləri**[136]

…

**Nümunə 2 - Xüsusi təyinatlı çərçivəyə uyğun olaraq hazırlanmış listinq subyekti olmayan müəssisənin ayrıca maliyyə hesabatları üzrə auditor hesabatı.**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı halların mövcud olması ehtimal edilir:**

- **Listinq subyekti olmayan müəssisənin pul gəlirləri və xərcləri haqqında hesabatın (yəni ayrıca maliyyə hesabatının) auditi.**

…

- **Maliyyə hesabatlarının tətbiq olunan çərçivəsi xüsusi istifadəçilərin maliyyə məlumatlarına olan tələbatını ödəmək üçün nəzərdə tutulmuş ədalətli təqdimat çərçivəsidir.**[137]

…

- **Mühasibat uçotunda müəssisənin fəaliyyətin fasiləsizliyi prinsipi pul vəsaitlərinin kassaya mədaxil və məxarici haqqında hesabatın hazırlanmasında əhəmiyyət kəsb etmir. ~~Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, 570 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisə və ya hallar ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil. Ayrıca maliyyə hesabatında qeyri-müəyyənliyin açıqlanması yetərlidir.~~**

- **Auditordan pul gəlirləri və xərcləri haqqında hesabat kontekstində əsas audit məsələləri barədə 701 saylı BAS-a uyğun məlumat vermək tələb olunmur, nə də ki, o bunu etmək qərarına gəlməmişdir.**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

[Müvafiq ünvan sahibinə]

**Rəy**

…

**Rəy üçün əsaslar**

…

**İzahedici paraqraf – mühasibat uçotunun əsasları**

Biz diqqəti mühasibat uçotunun əsasları təsvir edilən maliyyə hesabatının X qeydinə yönəldirik. Maliyyə hesabatı XYZ kreditoruna məlumat vermək üçün hazırlanmışdır. Buna görə də həmin maliyyə hesabatı

[136] Auditor hesabatlarının nümunələrində "rəhbərlik" və idarəetməyə məsul şəxslər" termini müəyyən yurisdiksiyada hüquqi çərçivənin kontekstinə uyğun olan başqa bir termin ilə əvəz edilə bilər.

[137] Xüsusi təyinatlı çərçivəyə uyğun olaraq hazırlanmış maliyyə hesabatlarının forma və məzmununa dair tələb və tövsiyələr 800 saylı (düzəliş edilmiş) BAS-da verilir

istənilən başqa bir məqsəd üçün yararlı olmaya bilər. Bu məsələ ilə bağlı rəyimiz fərqli deyil.

**Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyətləri**[138]

Rəhbərlik bu maliyyə hesabatının X qeydində təsvir olunmuş pul gəlirləri və xərclərinin uçotu metodu üzrə, o cümlədən həmin şəraitlərdə maliyyə hesabatlarının hazırlanması üçün pul gəlirləri və xərclərinin uçotu metodu üzrə hazırlanması və ədalətli təqdimatı və daxili nəzarətin elə bir sisteminin təşkilinə görə məsuliyyət daşıyır ki, bu sistem, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərdən azad olan maliyyə hesabatının hazırlanması üçün zəruridir.

~~Rəhbərlik şirkəti ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq niyyətində olmadıqda, yaxud bunu etmək üçün real alternativi olmadıqda maliyyə hesabatlarının hazırlanmasında rəhbərliyin vəzifəsi şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirmək, müvafiq hallarda müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli məsələlər barədə məlumatları açıqlamaq və fəaliyyətin fasiləsizliyi prinsipindən mühasibat uçotunun əsası kimi istifadə etməkdir.~~

**Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri**

Bizim məqsədlərimiz maliyyə hesabatlarının bütövlükdə istər dələduzluq, istərsə də səhv nəticəsində əhəmiyyətli təhriflərdən azad olub-olmadığına dair ağlabatan əminlik əldə etmək, habelə rəyimiz daxil edilən auditor hesabatını təqdim etməkdən ibarətdir. Ağlabatan əminlik əminliyin yüksək səviyyəsidir, lakin BAS-lara uyğun aparılmış audit nəticəsində mövcud olan əhəmiyyətli təhriflərin aşkarlanmasına həmişə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhv nəticəsində yarana bilər və istər ayrılıqda, istərsə də məcmu halında istifadəçilərin bu maliyyə hesabatı əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etməsi əsaslı olaraq ehtimal edildiyi halda əhəmiyyətli hesab edilir.

700 saylı (düzəliş edilmiş) BAS-ın 41(b) paraqrafında izah edilir ki, aşağıda boz rənglə işarələnmiş material auditor hesabatının əlavəsinə daxil edilə bilər. 700 saylı (düzəliş edilmiş) BAS-ın 41(c) paraqrafında izah edilir ki, qanun, qaydalar və ya milli audit standartları ilə açıq şəkildə icazə verildiyi halda materialı auditor hesabatına daxil etmək əvəzinə müvafiq səlahiyyətli orqanın auditorun məsuliyyətlərinin təsviri verilən internet səhifəsinə istinad daxil edilə bilər, o şərtlə ki, internet səhifədə verilən təsvir auditorun aşağıdakı məsuliyyətlərini əks etdirsin və onlara zidd olmasın.

BAS-lara uyğun olaraq auditin tərkib hissəsi kimi biz audit zamanı peşəkar mühakimə yürüdürük və peşəkar inamsızlıq tətbiq edirik. Biz həmçinin:

- Dələduzluq və ya səhv nəticəsində maliyyə hesabatının əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk; həmin risklərə cavab verən audit prosedurlarını hazırlayıb yerinə yetiririk; habelə auditor rəyini əsaslandırmaq üçün yetərli və müvafiq audit sübutları əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski səhv nəticəsində əhəmiyyətli təhrifi aşkaretməmə riskindən daha yüksəkdir, çünki dələduzluq gizli sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, yanlış təqdimatlar, yaxud daxili nəzarətə diqqət yetirməməni ehtiva edə bilər.

- Ortaqlığın daxili nəzarətinin səmərəliliyinə dair rəy bildirmək məqsədilə deyil, konkret tapşırığın şərtlərinə uyğun olan audit prosedurlarını işləyib hazırlamaq məqsədilə audit ilə əlaqədar daxili nəzarət haqqında təsəvvür əldə etmək.[139]

- ~~Mühasibat uçotunun fəaliyyətin fasiləsizliyi ehtimalı əsasının rəhbərlik tərəfindən istifadə edilməsinin məqsədəuyğunluğuna və əldə edilmiş audit sübutlarına əsasən şirkətin fəaliyyətinin~~

[138] Və ya konkret yurisdiksiyadakı normativ hüquqi mühitdə müvafiq olan digər bir termin.
[139] Auditorun məsuliyyətinə maliyyə hesabatlarının auditi ilə birlikdə daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək də daxil olduğu hallarda bu cümlə müvafiq olaraq dəyişdirilməlidir

~~fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrlə və ya şərtlərlə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarmaq. Əgər biz əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması haqqında qənaətə gələriksə, maliyyə hesabatlarında açıqlanmış əlaqəli məlumatlara auditor hesabatımızda diqqəti cəlb etməliyik və ya, belə açıqlamalar yetərli olmadıqda rəyimizi dəyişməliyik. Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Bununla yanaşı sonrakı hadisələr və ya şərtlər~~ <u>şirkətin</u> ~~fəaliyyətinin fasiləsizliyini davam etdirməməsinin səbəbi ola bilər.~~

- İstifadə edilmiş uçot siyasətinin məqsədəuyğunluğunu, rəhbərliyin yerinə yetirdiyi uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndirmək.

- Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları, habelə maliyyə hesabatlarında əsas əməliyyatların və hadisələrin ədalətli təqdimatını təmin edəcək şəkildə əks etdirib-etdirməməsini qiymətləndirmək.

Biz, digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə aşkarladığımız əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetməyə məsul şəxslərə məlumat veririk.

…

**<u>Nümunə 3: Xüsusi təyinatlı çərçivəyə uyğun olaraq hazırlanmış maliyyə hesabatının xüsusi elementi üzrə auditor hesabatı.</u>**

**Auditor hesabatının bu nümunəsinin məqsədləri üçün aşağıdakı halların mövcud olması ehtimal edilir:**

- **Debitor borcları reyestrinin (yəni, maliyyə hesabatının elementinin, hesabının və ya maddəsinin) auditi.**

…

- **Maliyyə hesabatlarının tətbiq olunan çərçivəsi xüsusi istifadəçilərin maliyyə məlumatlarına olan tələbatını ödəmək üçün nəzərdə tutulmuş uyğunluq çərçivəsidir.** [140]

  …

- **<u>Mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipi debitor borcları cədvəlinin hazırlanmasında əhəmiyyət kəsb etmir.</u> ~~Əldə edilmiş audit sübutlarına əsasən auditor qənaətə gəlmişdir ki, 570 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisə və ya hallar ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.~~**

- **Auditordan pul gəlirləri və xərcləri haqqında hesabat kontekstində əsas audit məsələləri barədə 701 saylı BAS-a uyğun məlumat verməy tələb olunmur, nə də ki, o bunu etmək qərarına gəlməmişdir.**

…

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin səhmdarlarına [və ya digər müvafiq ünvan sahibinə]

**Rəy**

…

**Rəy üçün əsaslar**

…

**İzahedici paraqraf – mühasibat uçotunun əsasları və yayılmaya və istifadəyə qoyulan məhdudiyyət**

Biz diqqəti mühasibat uçotunun əsasları təsvir edilən maliyyə hesabatına X qeydinə yönəldirik. Reyestr DEF tənzimləyici orqanının nəzərdə tutulmuş tələblərinin şirkət tərəfindən yerinə yetirilməsinə kömək etmək məqsədilə hazırlanmışdır. Buna görə də həmin maliyyə hesabatları istənilən başqa bir məqsəd üçün yararlı olmaya bilər. Bizim hesabatımız istisnasız olaraq şirkət və DEF tənzimləyici orqan üçün nəzərdə tutulmuş və onlardan başqa şəxslərə paylana bilməz. Bu məsələ ilə bağlı rəyimiz fərqli deyil.

**Reyestr üzrə rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyətləri[141]**

Rəhbərlik reyestrin tənzimləyici orqan tərəfindən maliyyə hesabatlarının hazırlanması üzrə müəyyənləşdirilmiş müddəalarına uyğun olaraq hazırlanması və daxili nəzarətin elə bir sisteminin təşkilinə görə məsuliyyət daşıyır ki, bu sistem, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərdən azad olan maliyyə hesabatının hazırlanması üçün zəruridir.

~~Rəhbərlik şirkəti ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq niyyətində olmadıqda, yaxud bunu etmək üçün real alternativi olmadıqda reyestrin hazırlanmasında rəhbərliyin vəzifəsi şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirmək, müvafiq hallarda müəssisənin fəaliyyətinin fasiləsizliyi ilə əlaqəli məsələlər barədə məlumatları açıqlamaq və fəaliyyətin fasiləsizliyi ehtimalından mühasibat uçotunun əsası kimi istifadə etməkdir.~~

İdarəetməyə məsul şəxslər şirkətin maliyyə hesabatlarının təqdimetmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Reyestr auditi üzrə auditorun məsuliyyətləri**

Bizim məqsədlərimiz reyestrin bütövlükdə istər dələduzluq, istərsə də səhv nəticəsində əhəmiyyətli təhriflərdən azad olub-olmadığına dair ağlabatan əminlik əldə etmək, habelə rəyimiz auditor hesabatını təqdim etməkdən ibarətdir. Ağlabatan əminlik əminliyin yüksək səviyyəsidir, lakin BAS-lara uyğun aparılmış audit nəticəsində mövcud olan əhəmiyyətli təhriflərin aşkarlanmasına həmişə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhv nəticəsində yarana bilər və istər ayrılıqda, istərsə də məcmu halında istifadəçilərin bu reyestr əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etməsi əsaslı olaraq ehtimal edildiyi halda əhəmiyyətli hesab edilir.

700 saylı (düzəliş edilmiş) BAS-ın 41(b) paraqrafında izah edilir ki, aşağıda boz rənglə işarələnmiş material auditor hesabatının əlavəsinə daxil edilə bilər. 700 saylı (düzəliş edilmiş) BAS-ın 41(c) paraqrafında izah edilir ki, qanun, qaydalar və ya milli audit standartları ilə açıq şəkildə icazə verildiyi halda materialı auditor hesabatına daxil etmək əvəzinə müvafiq səlahiyyətli orqanın auditorun məsuliyyətlərinin təsviri verilən internet səhifəsinə istinad daxil edilə bilər, o şərtlə ki, internet səhifəsində verilən təsvir auditorun aşağıdakı məsuliyyətlərini əks etdirsin və onlara zidd olmasın.

BAS-lara uyğun olaraq auditin tərkib hissəsi kimi biz audit zamanı peşəkar mühakimə yürüdürük və peşəkar inamsızlıq tətbiq edirik. Biz həmçinin:

- Dələduzluq və ya səhv nəticəsində reyestrin əhəmiyyətli təhriflər risklərini müəyyən edib

[141] Və ya konkret yurisdiksiyadakı normativ hüquqi mühitdə müvafiq olan digər bir termin

qiymətləndiririk; həmin risklərə cavab verən audit prosedurlarını hazırlayıb yerinə yetiririk; habelə auditor rəyini əsaslandırmaq üçün yetərli və müvafiq audit sübutları əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski səhv nəticəsində əhəmiyyətli təhrifi aşkaretməmə riskindən daha yüksəkdir, çünki dələduzluq gizli sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, yanlış təqdimatlar, yaxud daxili nəzarətə diqqət yetirməməni ehtiva edə bilər.

- Ortaqlığın daxili nəzarətinin səmərəliliyinə dair rəy bildirmək məqsədilə deyil, konkret tapşırığın şərtlərinə uyğun olan audit prosedurlarını işləyib hazırlamaq məqsədilə audit ilə əlaqədar daxili nəzarət haqqında təsəvvür əldə etmək.[142]

- ~~Mühasibat uçotunun fəaliyyətin fasiləsizliyi ehtimalı əsasının rəhbərlik tərəfindən istifadə edilməsinin məqsədəuyğunluğuna və əldə edilmiş audit sübutlarına əsasən şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələrlə və ya şərtlərlə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarmaq. Əgər biz əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması haqqında qənaətə gələrsə, maliyyə hesabatlarında açıqlanmış əlaqəli məlumatlara auditor hesabatımızda diqqəti cəlb etməliyik və ya, belə açıqlamalar yetərli olmadıqda rəyimizi dəyişməliyik. Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Bununla yanaşı sonrakı hadisələr və ya şərtlər şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirməməsinin səbəbi ola bilər.~~

- İstifadə edilmiş uçot siyasətinin məqsədəuyğunluğunu, rəhbərliyin yerinə yetirdiyi uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndirmək.

Biz, digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə aşkarladığımız əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetməyə məsul şəxslərə məlumat veririk.

Biz, həmçinin idarəetməyə məsul şəxslərə müstəqillik ilə bağlı müvafiq etik normalara və bütün münasibətlər və müstəqilliyimizə təsiretmə ehtimalı ağlabatan ola bilən digər məsələlər, müvafiq hallarda isə əlaqəli təhlükəsizlik tədbirləri haqqında onlara məlumat vermək tələblərinə riayət etdiyimizi bəyan edirik.

…

## 10 saylı (DÜZƏLİŞ EDİLMİŞ) BAS

## "İCMAL MALİYYƏ HESABATLARINA DAİR

## HESABATVERMƏ TAPŞIRIĞI"

…

### Tələblər

…

**İcmal maliyyə hesabatlarına dair auditor hesabatı**

…

[142] Auditorun məsuliyyətinə maliyyə hesabatlarının auditi ilə birlikdə daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək də daxil olduğu hallarda bu cümlə müvafiq olaraq dəyişdirilməlidir

1. *Auditi aparılmış maliyyə hesabatlarına dair auditor hesabatına istinad* (İst: Paraq. A23) 19. Auditi aparılmış maliyyə hesabatlarına dair auditor hesabatında aşağıdakılar daxil edilmişdirsə:

(a) 705 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq şərti müsbət rəy;[143]

(b) 706 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq izahedici paraqraf və ya digər məsələlər paraqrafı;[144]

(c) 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq "Fəaliyyətin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik" bölməsi;[145]

(d) Rəhbərlik müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəldikdə, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-a uyğun olaraq "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölməsi;[146]

(e) 701 saylı BAS-a uyğun olaraq əsas audit məsələləri barədə məlumatvermə;[147] yaxud

(f) 720 saylı (düzəliş edilmiş) BAS-a uyğun olaraq digər məlumatlarda düzəliş edilməmiş təhrifləri təsvir edən bəyanat;[148]

və auditorun fikrincə, icmal maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından auditi aparılmış maliyyə hesabatlarına uyğundursa və ya tətbiq olunan meyarlara əsasən onun ümumiləşdirilmiş ədalətli təqdimatıdırsa, bu halda icmal maliyyə hesabatlarına dair auditor hesabatı, 16-cı paraqrafda göstərilmiş elementlərdən əlavə, aşağıdakıları əhatə etməlidir:

(i) Auditi aparılmış maliyyə hesabatlarına dair auditor hesabatının şərti müsbət rəy, izahedici paraqraf, digər məsələlər paraqrafı, "Fəaliyyətin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik" bölməsi və ya rəhbərliyin əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəlmək üçün yürütdüyü əhəmiyyətli mühakimələrə aid olan "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölməsi, əsas audit məsələləri barədə məlumatvermə, yaxud digər məlumatlardakı düzəliş edilməmiş əhəmiyyətli təhrifləri təsvir edən ifadələrdən ibarət olmasını bildirməlidir; habelə (İst: Paraq. A21)

(ii) Aşağıdakıları təsvir etməlidir: (İst: Paraq. A22)

a. Auditi aparılmış maliyyə hesabatlarına dair şərti müsbət rəy üçün əsasları və əgər varsa, onun icmal maliyyə hesabatlarına təsirini;

b. Auditi aparılmış maliyyə hesabatlarına dair auditor hesabatının izahedici paraqrafında, digər məsələlər paraqrafında və ya rəhbərliyin əhəmiyyətli qeyri-müəyyənliyin olmadığı qənaətinə gəlmək üçün yürütdüyü əhəmiyyətli mühakimələrə aid olan "Müəssisənin fəaliyyətinin fasiləsizliyi" bölməsində göstərilən məsələni və əgər varsa, onun icmal maliyyə hesabatlarına təsirini; yaxud

c. Digər məlumatlarda düzəliş edilməmiş əhəmiyyətli təhrifləri və əgər varsa, onların icmal maliyyə hesabatları və onlara dair auditor hesabatından ibarət olan sənədə daxil edilmiş məlumatlara təsirini. (İst: Paraq. A15)

…

143 705 saylı (düzəliş edilmiş) "Müstəqil auditorun hesabatında fərqli rəylər" BAS

144 706 saylı (düzəliş edilmiş) "Müstəqil auditorun hesabatında izahedici paraqraf və digər məsələlər paraqrafı" BAS

145 570 saylı (2024-cü ildə düzəliş edilmiş) ~~"Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı"~~ BAS, 35-36-cı ~~22-ci~~ paraqraflar

146 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS, 34(b) paraqrafı

147 701 saylı "Müstəqil auditorun hesabatında əsas audit məsələləri haqqında məlumatvermə" BAS

148 720 saylı (düzəliş edilmiş) "Digər məlumatlar üzrə auditorun məsuliyyətləri" BAS

**ƏLAVƏ**

(İst: Paraq. A23)

## İcmal maliyyə hesabatlarına dair müstəqil auditorun hesabatının nümunələri

- Nümunə 1. Müəyyən olunmuş meyarlara əsasən hazırlanan icmal maliyyə hesabatlarına dair auditor hesabatı. Auditi aparılmış maliyyə hesabatlarına dair müsbət rəy ifadə edilmişdir. İcmal maliyyə hesabatlarına dair auditor hesabatının tarixi icmal maliyyə hesabatlarının əmələ gəldiyi maliyyə hesabatlarına dair auditor hesabatının tarixindən sonrakı tarixə müəyyən edilmişdir. Auditi aparılmış maliyyə hesabatlarına dair auditor hesabatına "Fəaliyyətin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik" bölməsi və əsas audit məsələləri barədə məlumatvermə daxil edilmişdir.

…

**Nümunə 1:**

**Tapşırığın yerinə yetirilməsinin şərtləri:**

- **Listinq subyekti olan müəssisənin auditi aparılmış maliyyə hesabatları üzrə müsbət rəy ifadə edilmişdir.**

…

- **Auditi aparılmış maliyyə hesabatlarına dair auditor hesabatına "Fəaliyyətin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik" bölməsi daxil edilmişdir.**

- **Auditi aparılmış maliyyə hesabatlarına dair auditor hesabatına əsas audit məsələləri barədə məlumatvermə daxil edilmişdir.**[149]

## İCMAL MALİYYƏ HESABATLARI ÜZRƏ MÜSTƏQİL AUDİTORUN HESABATI

[Müvafiq ünvan sahibinə]

**Rəy**

…

**İcmal maliyyə hesabatları**

…

**Auditi aparılmış maliyyə hesabatları və onlara dair hesabatımız**

Biz 15 fevral 20X2-ci il tarixli hesabatımızda auditi aparılmış maliyyə hesabatlarına dair müsbət rəy ifadə etdik. Həmin hesabata aşağıdakılar da daxil edilmişdir:

- "Fəaliyyətin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənlik" bölməsi. Bu bölmə diqqəti auditi aparılmış maliyyə hesabatlarına daxil edilmiş ~~6 saylı~~X qeydinə yönəldir. Auditi aparılmış maliyyə hesabatlarının ~~6 saylı~~X qeydində göstərilir ki, 31 dekabr 20X1-ci il tarixində başa çatan il ərzində ABC Şirkəti ZZZ məbləğində xalis zərər çəkmiş və həmin tarixə ABC Şirkətinin cari öhdəlikləri ümumi aktivlərdən YYY qədər artıq olmuşdur. Bu şəraitlər və ya hadisələr, ~~6 saylı~~X qeydində

[149] 701 saylı BAS-ın 15-ci paraqrafında izah olunduğuna əsasən fəaliyyətin fasiləsizliyi ilə əlaqəli qeyri-müəyyənlik xüsusiyyətinə görə əsas audit məsələsidir, lakin 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-ın 35-36-cı ~~22-ci~~ paraqraflarına uyğun olaraq onun haqqında auditor hesabatının ayrıca bölməsində məlumat verilməlidir

göstərilən digər məsələlərlə yanaşı ABC şirkətinin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə ciddi şübhə altına ala bilən əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olmasını bildirir. Bu məsələlər icmal maliyyə hesabatlarının 5 saylıY qeydində əks etdirilir.[150]

- Digər əsas audit məsələləri barədə məlumatvermə.[151] [Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə əsasən cari dövrün maliyyə hesabatlarının auditində ən çox əhəmiyyət kəsb etmiş məsələlərdir.][152]

…

## 1000 saylı IAPN (BEYNƏLXALQ AUDİT PRAKTİKASI QEYDLƏRİ)

## "MALİYYƏ ALƏTLƏRİNİN AUDİTİ ÜZRƏ

## XÜSUSİ MÜLAHİZƏLƏR"

…

## ƏLAVƏ

(İst: Paraq. A14)

### Maliyyə alətləri ilə bağlı nəzarət vasitələrinə dair nümunələr

…

17. Maliyyə alətləri itkinin məbləğinin (belə məbləğ olarsa) mühasibat balansında tanınmış maliyyə alətinin dəyərindən çox olması riski ilə əlaqədar ola bilər. Məsələn, əmtəənin bazar qiymətinin gözlənilmədən aşağı düşməsi nəticəsində müəssisə girov və ya marjanın tələbləri ilə əlaqədar bu mal üzrə forvard mövqeyini bağlamaq üçün itkiləri reallaşdırmağa məcbur ola bilər. Müəyyən hallarda potensial itkilərin məbləği müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına alan hadisənin və ya şəraitin mövcud olmasının əlaməti ola bilər üçün kifayətdir. Bazar riskləri ilə əlaqədar maliyyə alətləri üzrə ehtimal olunan gələcək təsirləri qiymətləndirmək üçün müəssisə həssaslıq təhlilini və ya dəyər riskinin təhlilini həyata keçirə bilər. Lakin dəyər riskinin təhlili müəssisənin məruz qala biləcəyi riskləri tam həcmdə əks etdirmir; həssaslıq və ssenari təhlillərinin də müəyyən məhdudiyyətləri ola bilər

…

[150] Auditor, 570 saylı (2024-cü ildə düzəliş edilmiş) BAS-ın 35(b) bəndinə uyğun olaraq, auditor tərəfindən rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin necə dəyərləndirilmişdiryinə dair əlavə təsvir daxil edə bilər.

[151] Fəaliyyətin fasiləsizliyi ilə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olmadığı hallarda əsas audit məsələləri barədə məlumat vermək üçün ifadəyə "digər" sözünü daxil etmək zəruri deyil.

[152] Auditor, icmal maliyyə hesabatlarına dair auditor hesabatının istifadəçiləri üçün faydalı hesab edilən əsas audit məsələləri barədə əlavə izahat daxil edə bilər

Beynəlxalq Audit Standartları, Az Mürəkkəb Müəssisələrin Maliyyə Hesabatlarının Auditləri üzrə Beynəlxalq Audit Standartı, Təhlil Tapşırıqları üzrə Beynəlxalq Standartlar, Davamlılığın Təsdiqlənməsi üzrə Beynəlxalq Standartlar, Təsdiqləmə Tapşırıqlarına dair Beynəlxalq Standartlar, Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standartlar, Beynəlxalq Keyfiyyətin İdarə edilməsi Standartları, Beynəlxalq Audit Təcrübəsi Qeydləri, İlkin Sənədlər, Məsləhətvermə Sənədləri və s., IAASB-nin digər nəşrləri Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) müəlliflik hüququ ilə qorunur.

Beynəlxalq Etika və Audit Fondu™ (IFEA™), Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası (IAASB®) və Beynəlxalq Mühasiblər Federasiyası® (IFAC®) səhlənkarlıq və ya başqa səbəbdən baş verməsindən asılı olmayaraq, bu nəşrdə təqdim olunan material əsasında hərəkəti və ya hərəkətsizliyi nəticəsində istənilən şəxsə dəymiş zərərə görə məsuliyyət daşımır.

"Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası", "Beynəlxalq Audit Standartları", "Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə beynəlxalq standart", "Təhlil Tapşırıqları üzrə Beynəlxalq Standartlar", "Davamlılığın Təsdiqlənməsi üzrə Beynəlxalq Standartlar", "Təsdiqləmə Tapşırıqlarına dair Beynəlxalq Standartlar", "Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standartlar", "Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartları", "Beynəlxalq Audit Praktikası Qeydləri", "IAASB", "ISA", "ISA for LCE", "ISRE", "ISSA", "ISAE", "ISRS", "ISQM", "IAPN" və IAASB loqosu IFAC-ın əmtəə nişanları və ya IFAC-ın ABŞ-da və digər ölkələrdə qeydiyyata alınmış əmtəə və xidmət nişanlarıdır. " Beynəlxalq Etika və Audit Fondu" və "IFEA" loqosu IFEA-nın əmtəə nişanı və ya IFEA-nın ABŞ-da və digər ölkələrdə qeydiyyata alınmış əmtəə və xidmət nişanıdır.

IAASB™
International Auditing and Assurance Standards Board
AN IFEA BOARD

COPYRIGHT OF:
IFAC
International Federation of Accountants®